Xalqın qəzeti!

# Xalq qəzeti

№ 122 (30526) 11 iyun 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı Türk birliyinin lokomotividir

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri

### Ankarada qarşılanma

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib.**



Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz və digər rəsmi şəxslər qarşıladılar.

### Azərbaycan və Türkiyə prezidentləri Esenboğa Hava Limanında görüşüblər

**İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Esenboğa Hava Limanında görüşüblər.**



## Azərbaycan–Misir münasibətləri siyasi həmrəylik müstəvisində



**Azərbaycan Prezidenti İlham Əliyevin iyunun 7-də Misir Ərəb Respublikasına rəsmi səfəri ilə ölkələrimiz arasında münasibətlərin inkişafında yeni səhifə açılıb. Bu səfərlə gələcəkdə yüksək səviyyədə olan əlaqələrin daha da inkişafının və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinin əsası qoyulub. İdman, elektrik və bərpaolunan enerji, informasiya-kommunikasiya texnologiyaları və digər istiqamətlərdə birgə fəaliyyətin dərinləşdirilməsi məqsədi daşıyan bir sıra sənədlərin imzalanması ilə Azərbaycan–Misir dostluğu daha da möhkəmlənib.**

Qeyd edək ki, dövlətimizin başçısının Misir Ərəb Respublikasının Prezidenti ilə geniş tərkibdə görüşündə Misirin COP27-yə, Azərbaycanın isə COP29-a sədrlik etməsi vurğulanaraq iki ölkə arasında bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılmasının zəruriliyi qeyd olunub.

Xatırladaq ki, Misir 2 il əvvəl COP-a evsahibliyi edib. Həmin tədbirdə iqlim dəyişikliyi sahəsində bir çox əməkdaşlıq sahələri, məsələn, iqlimlə bağlı fəaliyyət üçün beynəlxalq ictimaiyyətdən maliyyənin necə səfərbər olunması ilə bağlı geniş müzakirə diqqət çəkib. Bununla bağlı Misirin beynəlxalq əməkdaşlıq naziri xanım Raniyə Əl Maşatın sözlərinə əsasən, ölkəsinin COP-a evsahibliyi mühüm önəm daşıyıb: “Bu, əhəmiyyətli bir cəhətdir. Çünki bu, ekologiyanı çirkləndirməyən ölkələrin nə qədər maliyyəyə ehtiyac duyduqlarını, beynəlxalq əməkdaşlığın tələb olunduğunu nümayiş etdirmək imkanı yaradır ki, hamımız iqlimlə bağlı qlobal məqsədlərə cavab verə bilək. Misirdə bununla əlaqədar bir çox sahələrdə araşdırma aparılıb. Düşünürəm ki, bu, COP29 ilə davam edəcək. İkincisi, araşdırmalarda ölkə platformaları diqqətdə saxlanılıb. Ölkə platformaları dedikdə isə burada dövlətin öhdəlikləri, iqlim fəaliyyəti ilə bağlı istədikləri vurğulanır və sonra ölkələrimiz üçün prioritet olan layihələrin həyata keçirilməsi ilə bağlı güzəştli maliyyənin alınmasına çalışılır. Beləliklə, beynəlxalq maliyyə qurumları, çoxtərəfli inkişaf bankları ilə necə işləmək, məqsədlərə çata bilmək üçün birlikdə necə çalışmalı olduğumuz müəyyənləşdirilir”.

Prezidentlər İlham Əliyev və Əbdülfəttah əs-Sisinin geniş tərkibdə görüşlərində BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) vasitəsilə Dünya Şəhərsalma Forumuna Misirin bu il, respublikamızın isə 2026-cı ildə evsahibliyi edəcəyi nəzərə alınaraq, bu sahədə də təcrübə mübadiləsinin və birgə əməkdaşlığın önəmi vurğulanıb.

(ardı 5-ci səhifədə)

## İrəvanın sülhə yolu konstitusiya dəyişikliyindən keçir



Səhifə ⇨ 4

## Orta Dəhlizin gömrük postlarına “yaşıl işıq” yandırılır

Səhifə ⇨ 7

## Qədim türk yurdunun muxtariyyət statusu



Səhifə ⇨ 9

# Parlament Şurası da revanşistlərin tələbini rədd etdi



**Ermənistanın radikal müxalifətinin yaratdığı “Vətən naminə Tavuş” hərəkatının xeyli vaxtdır güclü şəkildə təbliğatın apardığı və “həlledici” adlandırdığı mitinq iyunun 9-da İrəvanın mərkəzindəki Respublika meydanında baş tutub. Mitinq gözlənildiyi kimi, iştirakçılarının sayının az olması ilə diqqəti çəkib. Çıxış edənlər erməni xalqına problemlərinin həlli, o cümlədən, Azərbaycan və Türkiyə ilə münasibətlərə dair yeni heç nə təqdim edə bilməyiblər.**

Mitinqdə uzun və cansıxıcı nitq söyləyən “Vətən naminə Tavuş” hərəkatının rəhbəri Baqrat Qalstanyan hərəkatın tələblərini açıqlayıb və yaxın günlərdə keçiriləcək növbəti aksiyalardan danışıb. O, parlamentin bütün fraksiyalarına müraciət edərək deyib: “Bizim tələbimizə əsasən, parlamentin müxalifətdən olan deputatları hökumətin istefası və yeni hökumətin formalaşdırılması gündəliyi ilə qanunverici orqanın iyunun 11-də saat 18:30-da növbədənkənar iclasının keçirilməsi təşəbbüsü ilə çıxış edəcəklər. Parlament şurası iyunun 10-da xalqın qərarı ilə növbədənkənar iclas çağırmağa, siyasi çoxluğun – “Mülki müqavilə”nin deputatları xalqın iradəsinə tabe olmağa, şəxsi iradələri və vicdanla hərəkət etməyə borcludur. Biz onlara dövlət əleyhinə növbəti səhv addım atmağa imkan verməyəcəyik. Parlament növbədənkənar iclasında ümumxalq tələbi əsasında hazırkı hökumətin istefa verməsi və yeni hökumətin formalaşdırılması ilə bağlı qərarı təsdiq etməlidir”.

Arxiyepiskop deyib ki, indi oynamaq vaxtı deyil, hərəkət etmək lazımdır. B.Qalstanyan daha sonra xalqı hakimiyyətə öz iradələrini qəbul etdirmək üçün 96 saat ərzində kütləvi itaətsizlik və etiraz aksiyalarına çağırıb: “Biz problemi sabahdan işə getmədən, istirahət etmədən, yuxusuz qalaraq, küçələrdə gecələyərək cəmi dörd gün – 96 saat fasiləsiz hərəkət edərək həll edə, iradəmizi diktə edə bilərik”.

Digər çıxış edən türkoloq, tarix elmləri namizədi Varujan Geqamyanın sözlərinə görə, artıq bir aydan çoxdur ki, Türkiyə və Azərbaycan Ermənistanda cərəyan edən prosesləri diqqətlə izləyirlər. “Onlar sizin mübarizənizi narahatlıqla izləyirlər ki, burada heç bir dəyişiklik olmasın. Ermənistanda hakimiyyət dəyişikliyi onların maraqlarına uyğun gəlmir” – deyə sərsəmləyən Geqamyan daha sonra bir qədər də irəli gedib. İddia edib ki, Türkiyə Təhlükəsizlik Şurasının bir müddət əvvəlki iclası, guya, Ermənistandakı proseslərlə bağlı keçirilib.

*(ardı 4-cü səhifədə)*

# Makronun partiyası “nokdaun”a düşdü

## *Avropa parlamentariləri arasında ifrat radikalların sıraları genişlənir*



**Müstəqil ekspertlərin böyük əksəriyyətinin seçkiöncəsi proqnozları özünü doğrultdu. Avropa İttifaqının (Aİ) ali qanunverici orqanına – Avropa Parlamentinə (AP) seçkilərdə sağ mərkəzçi qrup səs çoxluğu qazanıb.**

2024–2029-cu illər çağırışı üzrə AP-ə seçkilər qurumun üzvü olan bütün ölkələrdə baş tutub. İyunun 6-9-da keçirilən seçkilərin ilkin nəticıləri elan edilib. İlkin məlumatlara görə, bütövlükdə Aİ üzrə seçici fəallığı 51 faiz təşkil edib. 5 il əvvəl bu göstərici 50,66 faiz olub.

Aİ üzvü olan 27 ölkədə səsvermə iyunun 9-da yerli vaxtla saat 23:00-da başa çatıb. İlkin nəticələr onu göstərir ki, Avropa Komissiyasının hazırkı rəhbəri Ursula Fon der Lyayen 2029-cu ilə qədər postunu qoruyub saxlayacaq. “Avropa seçkilərində qalib gəldik. Şübhəsiz ki, biz ən güclü partiyayıq və sabitliyin lövbəriyik”, – deyə Lyayen seçkilərin ilkin nəticələri bəlli olan kimi Brüsseldə AP binasına toplaşan jurnalistlərə bildirib.

(ardı 3-cü səhifədə)

# Ankarada Azərbaycan və Türkiyə liderlərinin təkbətək görüşü



**İyunun 10-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşü olub.**



Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladılar.

Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Bakı–Tbilisi–Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edildi, Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulandı.

Həmçinin Türk Dövlətləri Təşkilatının və qardaş ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha qeyd olundu.

Prezident Rəcəb Tayyib Ərdoğan Şuşadakı qeyri-rəsmi Zirvə görüşündə iştirak edəcəyini bildirdi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Türkiyə Prezidentini COP29-a bir daha dəvət etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan dəvəti məmnunluqla qəbul etdi.

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İlham Əliyevin Qahirə səfəri Misir mediasında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri, onun misirli həmkarı Əbdülfəttah əs-Sisi ilə apardığı danışıqlar bu ölkənin nüfuzlu qəzet və portallarının, eləcə də telekanallarının diqqət mərkəzində olub.**

Rəsmi MENA informasiya agentliyinin səfər haqqında geniş hesabatında, həmçinin Misirin geniş oxucu kütləsi olan “Əl Əhram”, “Cümhuriyə”, “Youm 7”, “Əxbar Əl Youm”, “Masravi”, “Dostor” qəzetlərində dərc edilən “Azərbaycan Prezidenti Misirlə əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib”, “Azərbaycanın lideri Misiri mühüm tərəfdaş ölkə adlandırıb” sərlövhəli məqalələrdə dövlətimizin başçısının misirli həmkarı Əbdülfəttah əs-Sisi ilə mətbuata birgə bəyanatının əsas məqamları yer alıb. Misirli oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev keçən il Əbdülfəttah əs-Sisinin Azərbaycana səfərindən sonra keçirilən bu rəsmi səfərin də Misir–Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcəyini, iki dost ölkə arasında siyasi dialoqun müntəzəm xarakter daşıdığını bildirib.





Materiallarda o da vurğulanıb ki, Prezident İlham Əliyev misirli həmkarı ilə Cənubi Qafqazdakı prosesləri də müzakirə etdiyini bildirib. Azərbaycanın dövlət başçısı əlavə edib ki, hazırda Azərbaycan və Ermənistan öz dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olunub. Demək olar ki, 12,7 kilometr dövlət sərhədi razılaşdırılıb. Azərbaycanın Qazax rayonunun 30 ildən çox müddət ərzində işğal altında olmuş dörd kəndi danışıqlar yolu ilə Azərbaycana geri qaytarılıb.

Məqalələrdə göstərilib ki, Azərbaycanın dövlət başçısı Əbdülfəttah əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət edib. O bu dəvətin qəbul edilməsinə şad olduğunu deyib, eyni zamanda, Misirin COP27 sədrliyi və evsahibliyinin böyük uğurla nəticələndiyini vurğulayıb, bu münasibətlə həmkarını təbrik edib. Prezident İlham Əliyev Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdiyini və iki ölkənin nümayəndələrinin daim təmasda olduqlarını deyib.

Prezident İlham Əliyevin rəsmi səfəri “Şuruk”, “Əl Vətən”, “Masrtimes”, “Aleqaria”, “Maspero”, “Əl Qahira”, “Əl Balad” qəzet və portalları tərəfindən də geniş işıqlandırılıb. Bu media orqanlarında Azərbaycanın dövlət başçısının Fələstin məsələsi ilə bağlı rəsmi Qahirənin mövqeyini dəstəklədiyi vurğulanıb. Məqalələrdə Azərbaycan Prezidentinin aşağıdakı fikirləri sitat gətirilib: “Fələstin–İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır – müstəqil Fələstin Dövləti qurulmalıdır, Şərqi Qüds onun paytaxtı olmalıdır”.

Misir mediası Əbdülfəttah əs-Sisinin isə Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikirlərinə də geniş yer ayırıb. Oxucuların diqqətinə çatdırılıb ki, Misir Prezidenti azərbaycanlı həmkarına Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyini bir daha bildirib.

Bildirilib ki, iki dost ölkənin dövlət başçıları müxtəlif sahələrdə iqtisadi, humanitar-mədəni əlaqələrin sürətlə inkişaf etdiyini, qarşılıqlı faydalı əməkdaşlığın geniş perspektivləri olduğunu vurğulayıblar. Tərəflər inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə edib, həmçinin Azərbaycanla Misir arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin əhəmiyyətini qeyd ediblər. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsi qərara alınıb.

Prezident İlham Əliyevin rəsmi səfər çərçivəsində Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü də Misir və digər ərəb ölkələrinin mediasının diqqət mərkəzində olub.

**XQ**

# Azərbaycan və Türkiyə prezidentləri birgə nahar ediblər

**İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.**

# Səfər başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 10-da başa çatıb.**

**AZƏRTAC**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Son 30 ildə ölkələrimiz arasında qardaşlıq münasibətləri xüsusilə iqtisadiyyat və ticarət, mədəniyyət, təhsil, eləcə də müdafiə sahələrində dərinləşən çoxsahəli əməkdaşlığımız əsasında möhkəmlənmişdir.

Bu müsbət tendensiyanı davam etdirmək və ikitərəfli əlaqələri yeni zirvələrə yüksəltmək niyyətindəyik.

Zati-alinizin Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunması istiqamətində şəxsi səylərini və qətiyyətini yüksək qiymətləndirirəm. Pakistan sınaqlar zamanı qürurla Azərbaycanın yanında olub və ölkənin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstək verməkdə davam edəcəkdir.

Cənab Prezident, Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və firavanlıq diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və xalqınıza ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

İnanıram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənərək genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ali missiyanızda uğurlar, Azərbaycan xalqına isə davamlı əmin-amanlıq və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

*

**Bismillahir-rəhmanir-rəhim.**
**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Xoşbəxtlikdən qarşılıqlı mənafeyə əsaslanan, iki ölkənin dərin tarixi, dini və mədəni ortaqlıqlarından və qohumluq bağlarından qaynaqlanan dostluq münasibətlərimiz daha da dərinləşməkdə və inkişaf etməkdədir.

“Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılışı mərasimində İran İslam Respublikasının mərhum Prezidenti cənab Seyid İbrahim Rəisi ilə olan görüşünüzün, müzakirələrinizin və razılaşmalarınızın əhəmiyyətini vurğulayaraq, əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin inkişafı prosesi gələcəkdə də davam etdiriləcəkdir.

Sonda Allah-Taaladan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, dost, qardaş və qonşu ölkə olan Azərbaycan Respublikasının xalqına isə rifah və xoş günlər arzulayıram.

**Hörmətlə,**

***Məhəmməd MOXBER,***
***İran İslam Respublikasının Prezidenti vəzifəsini icra edən***

# Milli Məclis heyətinin Belarusa rəsmi səfəri

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Belarus Respublikasının Minsk şəhərinə rəsmi səfərə gedib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, səfər çərçivəsində Sahibə Qafarovanın bir sıra görüşləri nəzərdə tutulub.

Qeyd edək ki, nümayəndə heyətinə Azərbaycan parlamentinin Belarusla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Ziyad Səmədzadə, deputatlar Ağalar Vəliyev, Arzu Nağıyev və digər rəsmi şəxslər daxildirlər.

**XQ**

# Xarici işlər Nazirliyi xəbər verir

**İyunun 10-da Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyənin Xarici İşlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**




Xarici İşlər Nazirliyindən XQ-yə bildirilib ki, söhbət zamanı nazirlər iki ölkə arasında ikitərəfli müttəfiqlik münasibətlərinin müxtəlif aspektləri üzrə görülən işləri və regional məsələləri müzakirə ediblər.

*

**Xarici İşlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikasında işgüzar səfərdədir.**

Səfər çərçivəsində nazirin iyunun 11-12-də Berlin şəhərində keçiriləcək Ukrayna Bərpa Konfransında iştirakı və çıxışı, habelə tədbir çərçivəsində ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

**XQ**

# Makronun partiyası “nokdaun”a düşdü

(əvvəli 1-ci səhifədə)

Seçkilərin ilkin nəticələrinə görə, AP-də sağ-mərkəzçi qrup olan Avropa Xalq Partiyası (AXP – EPP) Aİ üzvü olan 27 ölkədə üstün olub və 720 yerdən 191-ni qazanıb. İkinci yerdə 135 mandat əldə edən, bir qədər zəifləmiş sol-mərkəzçi qrup, 83 mandatla geriləyən “Yenilənmə” liberal qrupu isə üçüncü yerdə gəlir. Daha 95 yeri fraksiyalara daxil olmayan, müstəqil deputatlar tutacaqlar.



Nəticələr onu göstərir ki, Fransa və Almaniyada ifrat sağçı partiyaların uğur qazanması AP-də mərkəzçi çoxluğun sıralarını bir qədər də genişləndirəcək. Dünən “Deutsche Welle” nəşrinin yazdığına görə, Fransa və Almaniyada sağçıların uğurları fonunda Ursula Fon der Lyayen “sağ və solçu ifrat radikallara qarşı qala quracağına” söz verib. “Avropa Xalq Partiyası olmadan parlamentdə heç bir çoxluq yarana bilməz. Biz onları dayandıracağıq. Buna şübhəniz olmasın”, – Avropa Komissiyasının rəhbəri seçkilərin nəticələrini şərh edərkən deyib.



## Radikalizm güclənir

Qeyd edək ki, 2024-cü ildə Avroparlamentdə deputatların sayı 705-dən 720-yə qədər artırılıb. Yəni, bu seçkidə AP-yə 705 deyil, ilk dəfə 720 deputat seçilib. Kürsülərin bölüşdürülməsi ölkələrin əhalisinin sayına görə aparılır. İlk beşliyə Almaniya – 96 deputat, Fransa – 81, İtaliya – 76, İspaniya – 61, Polşa – 53 deputatla daxildir.

* Almaniyada müxalif mühafizəkar Xristian Demokrat İttifaqı birinci yerdədir. Kansler Olaf Şoltsun partiyası isə Rusiyayönlü “Almaniya üçün alternativ” partiyasından sonra üçüncü yeri tutub.

* Fransada Marin Le Penin sədri olduğu Milli Birlik Partiyasından Cordan Bardelanın başçılıq etdiyi namizədlər seçkilərdə mütləq qələbə qazanıblar. Seçkilərin nəticələri açıqlandıqdan sonra C.Bardela çıxışında mütləq qələbə münasibətilə tərəfdarlarını alqışlayıb. Bu, o deməkdir ki, Prezident Emmanuel Makronun partiyası məğlub olub və hətta “nokdaun”a düşüb. Çünki C.Bardela onu yeni parlament seçkilərini təşkil etməyə çağırıb. “IPSOS”-un keçirdiyi sorğunun nəticələrinə görə, AP-yə seçkilərdə fransızların 45,26 faizi iştirak edib. Bu rəqəm 2014-cü illə müqayisədə 9 faiz azdır.

* Polşada seçkinin qalibi Baş nazir Donald Tuskun Mülki Koalisiyası olub. İkinci yerdə Prezident Anjey Dudanın “Qanun və Ədalət” partiyası qərarlaşıb.

* Avstriyada seçkinin qalibi Rusiyayönlü Azadlıq Partiyasıdır.

* Slovakiyada səslərin çoxunu müxalif “Slovakiyaya tərəqqi” partiyası qazanıb. Baş nazir Robert Fikonun partiyası ikinci yerdədir.

* Yunanıstanda baş nazir Kiriakos Mitsotakisin “Yeni Demokratiya” partiyası mütləq çoxluğu qazanıb.

* İspaniyada müxalifətdə olan Xalq Partiyası qalib gəlib.

AP-də ən böyük fraksiya Ukraynayönlü Avropa Xalq Partiyasıdır (EPP). O, yeni parlamentdə 720 yerdən 180-ni qazana bilər.

Sağçı populist partiyaların, o cümlədən, “Almaniya üçün alternativ”in cari seçkilərdə 2019-cu illə müqayisədə nəticələri xeyli yaxşılaşdırmasına baxmayaraq, Brüssel siyasətinin tərəfdarları düşərgəsi ən böyük partiya olaraq qalır. “DPA” agentliyinin hesablamalarına görə, AP-yə daxil olan bütün sağçı partiyalar birləşsə belə, onların nümayəndələri, ümumilikdə, 200-dən az mandat ala biləcəklər. İndi AP-də sadə səs çoxluğu üçün 361 yer lazımdır.

## Seçkinin ilk fəsadı – istefa!

Qaliblərin sevindiyi, məğlubların pəjmürdə olduqları seçkilərin doğurduğu yeni fəsadlar artıq özünü göstərməkdədir. Birinci “şok xəbər” Brüsselin özündən gəldi. Belçikanın iqtidardakı Açıq Flaman Liberalları və Demokratları (Açıq VLD) partiyası həm milli parlamentlərinə, həm də AP-yə keçirilən seçkilərdə ciddi məğlubiyyətə uğradıqdan sonra Baş nazir Alexander De Kroonun istefa verdiyi açıqlanıb. Bu barədə dünən səhər məlumat yayan “Euronews” De Kroonun fransız dilində etdiyi çıxışından sitat gətirib: “Biz bu seçkidə məğlub olduq. Mən kampaniyanın siması idim. Bu, gözlədiyimiz nəticə deyil. Mən bütün məsuliyyəti öz üzərimə götürürəm. Bizim üçün olduqca çətin bir axşam idi. Biz uduzduq və mən sabahdan etibarən baş nazir vəzifəsindən istefa verəcəyəm. Amma unutmayın ki, liberallar güclüdür, biz geri dönəcəyik”. “DPA” agentliyinin məlumatına görə, Kroo bu açıqlamanı verdiyi zaman gözləri yaşarıb.

Agentliyin xəbərində o da vurğulanır ki, Alexander De Kroo hökumət başçısı vəzifəsindən istefa vermək niyyəti barədə Belçika Kralı Filippi məlumatlandıracaq.

## Bakı Aİ ilə dialoqu davam etdirəcək

Seçkilərdən sonra yaranan ilkin mənzərə onu göstərir ki, nəticələr Aİ-yə üzv ölkələrin daxili atmosferinə, milli siyasətinə öz təsirini göstərə bilər. Emmanuel Makronun seçkinin nəticəsindən asılı olaraq Senatı buraxması, erkən seçkilər elan etməsi, həmçinin partiyasının milli seçkilərdə sağ-separatçı qüvvələrə qarşı zəif çıxışına görə Belçikanın Baş naziri Aleksander De Kroonun qəfil istefası, bütövlükdə, “qoca qitə”də baş verəcək maraqlı proseslərin preambulası sayıla bilər.

Amma bütün bunlara baxmayaraq, rəsmi Bakının Brüssellə siyasi, iqtisadi və enerji sahələrində daloqu davam etdirəcəyi şübhəsizdir. Bu dialoqa hər iki tərəfin ehtiyacı var. Çünki Azərbaycanın əsas ticarət və enerji tərəfdaşları Avropa İttifaqına üzv ölkələrdir. Deməli, Azərbaycandan Avropadakı tərəfdaş ölkələrə qaz və yaşıl enerjinin nəqli daha da artacaq. Məhz bu baxımdan tərəflər arasında əməkdaşlığın bundan sonra da genişlənməsi həm Bakının, həm də Brüsselin maraq dairəsinə tam uyğundur. Avropa İttifaqının və onun qanunverici orqanının – Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul edəcəkləri istər siyasi, istərsə də hüquqi qərar, qətnamə və bəyanatlar isə onların Brüsseldəki ofislərinin divarları arasından kənara çıxmayacaq. Buna əmin olmaqdan ötrü yaxın bir ilin tarixinə nəzər yetirmək kifayətdir.

**Ekspert rəyi**



**Elxan ŞAHİNOĞLU, “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Avropa Parlamentinə keçirilən seçkilərdə sağ və mühafizəkar partiyaların üstünlük qazanacağı gözlənilən idi. Hazırda Avropanın əsas problemlərindən biri miqrasiya ilə bağlıdır. Sağ və mühafizəkar partiyaların təmsilçiləri miqrasiyanın qarşısının alınması üçün ciddi tədbirlər görülməsini tələb edirlər. Avropa Parlamentinin yeni tərkibinin Ukrayna mövzusuna mövqeyi dəyişməyəcək. Ancaq bu məsələdə sağ partiyalar arasında fikir ayrılığı var. Avropanın bir qrup sağ partiyası Ukraynaya yardım edilməsini dəstəkləyərkən, digər sağ partiyalar bu yardımların müharibəni dayandırmayacağı, əksinə, Avropaya yayılması təhlükəsindən danışırlar. Avropa Parlamentnin Azərbaycana qərəzli mövqeyinin dəyişəcəyini gözləmək mümkün deyil. Ümumiyyətlə, Azərbaycana münasibət Avropa Parlamentindəki qüvvələr nisbətindən asılı deyil. Avropa anti-Azərbaycan mövqeyində olan bir qrup deputat istənilən zaman Azərbaycan əleyhinə qətnamə qəbul etdirə bilir. Bunun üçün Avropa Parlamentində kvoruma ehtiyac yoxdur, az deputatın iştirakı ilə də Azərbaycan əleyhinə sənəd qəbul etmək mümkündür.

Azərbaycan üçün önəmli olan Avropa İttifaqının (Aİ) icra qurumlarının mövqeyidir. Seçkidən sonra Aİ-nin yeni rəhbərliyi və komissarları müəyyənləşəcək. Aİ rəhbərliyi Azərbaycanla dialoqu davam etdirməkdə maraqlıdır. Çünki bu, ilk növbədə, Avropanın maraqlarına cavab verir. Aİ Şurasının Prezidenti Şarl Mişel bir neçə dəfə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüşlər təşkil etdi. Bakı və İrəvan Brüsselin vasitəçiliyini müsbət qiymətləndirdi, bu görüşlərdə ortaq bəyanatlar qəbul edildi. Ancaq artıq Bakının və İrəvanın Brüsselin və ya digər ölkənin vasitəçiliyinə ehtiyacı yoxdur. Bakı ilə İrəvan arasında birbaşa danışıqlar davam edir. Bundan başqa, görüş üçün tərəflərin vasitəçiyə deyil, məkanın seçilməsinə ehtiyacları var. Son zamanlar Azərbaycan və Ermənistan təmsilçiləri Almaniyada və Qazaxıstanda görüşüblər. Bu iki ölkə vasitəçi deyil. Ona görə də Aİ Şurasının yeni prezidentinin kimliyinin Azərbaycan üçün xüsusi əhəmiyyəti yoxdur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qafqaz zəhərli separatizmdən xilas edilməlidir

## *Azərbaycanın bununla bağlı mövqeyinə keçmişin izi ilə sözardı*

**“Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 9 iyun 2024-cü il tarixində Gürcüstanın Tsxinvali bölgəsində keçirilmiş qondarma “parlament seçkiləri”ni, həmçinin onların nəticələrini tanımır”. Bəli, Azərbaycan dövlətinin mövqeyi belədir və həmişə də bu cür olub. Qafqazda separatizmin kökü birmənalı şəkildə kəsilməlidir. Arxasında hansı qüvvənin dayanmasından asılı olmayaraq, bölgə dövlətlərinin ərazi bütövlüklərini və suverenliklərini təhdid altına alan heç bir təmayül qalmamalıdır.**



Ölkəmiz öz ərazisindəki separatizmin kökünü kürüyüb tarixin arxivinə atdı. İnanırıq ki, qonşu Gürcüstan üçün də belə bir şans yaranacaq. Ancaq indi vəziyyət başqadır və hazırda ölkənin Cənubi Osetiya və Abxaziya bölgəsində separatizm ocaqları qalmaqdadır. Tsxinvalidə keçirilmiş “parlament seçkiləri” isə mövzunun aktuallığını bir daha göstərməkdədir. Mövzu həm də ona görə aktualdır ki, ona diqqət yetirəndə Azərbaycanın başına gətirilmiş bəlalarla oxşarlıq görmək mümkündür. Axı bir vaxtlar hazırda canını tapşırmış separatçı “Dağlıq Qarabağ Respublikası”nda da “seçkilər” keçirilərdi...

Qeyd edək ki, müstəqillik illərində Gürcüstandakı münaqişələr 2004-cü ilə qədər aktiv fazaya daxil olmamışdı. Həmin il ölkədə “Qızılgül inqilabı” nəticəsində hakimiyyətə gəlmiş Mixeil Saakaşvili bildirdi ki, Cənubi Osetiyanı və Abxaziyanı yenidən Gürcüstanın nəzarəti altına qaytarmaq onun prioritet vəzifəsidir. Saakaşvili 2004-cü ildə Acarıstandakı separatizm təmayülünü yenməsindən, Aslan Abaşidze problemini aradan qaldırmasından sonra ümidvar idi ki, eyni durum Cənubi Osetiya və Abxaziya üçün də keçərli olacaq. Gürcüstan hökuməti Cənubi Osetiyada olan qaçaqmalçılığa qarşı mübarizəyə başladı da. Ancaq buna qədər olan bir tarix var.

***

1918-ci ildə Şida Kartlidə məskunlaşmış və bolşevizm hərəkatından ruhlanaraq öz əkib-becərdikləri torpaqların özlərinə məxsus olduğunu iddia edən torpaqsız osetin kəndlilərlə menşevik hökuməti tərəfindən dəstəklənən, bu torpaqların qanuni sahibi olan gürcü aristokratları arasında münaqişə başlandı. Əvvəllər də osetinlər mərkəzi hökumətin iqtisadi siyasətindən narazı idilər. Tərəflər arasındakı narazılıqlar tezliklə etnik münaqişəyə çevrildi. Osetinlər 1919 və 1920-ci illərdə baş vermiş üsyanlarda Sovet Rusiyası tərəfindən dəstəklənsələr də, məğlub oldular.

Müstəqil Gürcüstan Demokratik Respublikası Qırmızı Ordu tərəfindən işğal olunduqdan və ölkədə sovet hakimiyyəti qurulduqdan sonra 1922-ci ildə Gürcüstan SSR-in tərkibində Cənubi Osetiya Muxtar Vilayəti yaradıldı. Halbuki, rus işğalına qədər regionda heç bir separatçı qurum mövcud olmamışdı. Bir sıra tarixçilərin fikrincə, muxtar vilayət Gürcüstan Demokratik Respublikasına qarşı apardıqları mübarizədə dəstək verdikləri üçün bolşeviklər tərəfindən osetinlərə hədiyyə kimi yaradılmışdı.

1989-cu ildə Sovet İttifaqının artıq zəifləməyə başladığı vaxt Gürcüstanda millətçilik hərəkatı gücləndi. Belə bir dövrdə Rusiyanın bəzi dairələri Cənubi Osetiyadakı həmin millətçilərdən gürcülərin müstəqillik hərəkatına qarşı istifadə etdilər. 1990-cı ildə Cənubi Osetiyanın ölkədən ayrılmaq cəhdinə cavab olaraq, Gürcüstan Ali Soveti bölgənin muxtar statusunu aradan qaldırdı. 1991-ci ilin yanvarında isə Gürcüstanla Cənubi Osetiyadakı separatçılar arasında hərbi münaqişə başlandı. Gürcüstan 1991-ci il aprelin 6-da müstəqilliyinin bərpasını elan etdi. Həmin vaxt separatçılar bölgədəki rus hərbi birləşmələr tərəfindən dəstəkləndilər və paytaxt Tbilisini bombaladılar.

1992-ci ilin iyun ayından etibarən Rusiya ilə Gürcüstan arasında genişmiqyaslı müharibə ehtimalı daha da artdı. Bunun böyük risk olduğunu düşünən Gürcüstan hökuməti 1992-ci ilin iyununda atəşkəs müqaviləsi ilə razılaşdı. Müqavilənin şərtlərinə əsasən gürcü, Cənubi osetiyalı, rus və Şimali osetiyalılardan ibarət Birgə Nəzarət Komissiyasının mandatı təsdiq olundu və ortaq sülhməramlı qoşunların Cənubi Osetiya münaqişə zonasında yerləşdirilməsi qərara alındı. Keçmiş Cənubi Osetiya Muxtar Vilayətinin əhalisinin əksəriyyəti etnik gürcülərdən ibarət olan hissəsi Gürcüstanın nəzarəti altında qaldı. Mərkəzi Tsxinvalidə yerləşən, öz müstəqilliyini elan etmiş Cənubi Osetiya separatçı hökuməti isə keçmiş muxtar vilayət ərazisinin üçdə birinə nəzarət etdi. Uzun müddət bu vəziyyət davamlı oldu.

***

Bəli, bildirdiyimiz kimi, M.Saakaşvili hakimiyyətə başladıqdan sonra ölkəsindəki separatizmi aradan qaldırmaq qərarına gəldi. O, 2005-ci ilin yanvarında Avropa Şurası Parlament Assambleyasının iclasında çıxış edərkən, sülhün təmin olunması üçün Cənubi Osetiyanın yenidən Gürcüstanın tərkibinə qayıtması barədə təklif verdi. Təklif Cənubi Osetiya Prezidenti Eduard Kokoyti tərəfindən qəbul olunmadı. Bu, azmış kimi, 2006-cı ildə Abxaziyada yerli hərbi qruplaşmanın lideri də gürcü hökumətinə qarşı çıxdı. Buna cavab olaraq Gürcüstan Silahlı Qüvvələrinin bölmələri Kodori vadisinə daxil oldular. 2007-ci ildə Gürcüstan tərəfindən Cənubi Osetiyada keçmiş baş nazir Dmitri Sanakoyevin başçılığı altında müvəqqəti idarəetmə sistemi yaradıldı. Sistem Rusiya tərəfindən “kukla hökumət” adlandırıldı.

2008-ci ilin mart ayının əvvəllərində bir çox Qərb dövlətlərinin Rusiyanın əleyhinə çıxaraq Kosovonun müstəqilliyini tanımasından sonra, Cənubi Osetiya və Abxaziya separatçıları Rusiyaya öz müstəqilliklərinin tanınması barədə təklif göndərdilər. Gürcüstanın NATO-ya üzvlüyü istəklərini artdığı bir dövrdə Rusiya Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanıyacağını bəyan etdi. Elə həmin zaman kəsiyində Rusiya Dövlət Duması Rusiya Prezidentinə və hökumətə başqa bir dövlətin müstəqilliyinin tanıması barədə səlahiyyət verən yeni qanun qəbul etdi.

Yeri gəlmişkən, 2008-ci ilin aprelində NATO-nun Buxarestdə təşkil olunmuş sammitində iştirak edən ABŞ-nin o zamankı Prezidenti Corc Buş Gürcüstana və Ukraynaya Alyansın Üzvlük Fəaliyyət Planına (MAP) qoşulmaq barədə təklif verdi. Maraqlıdır ki, Almaniya və Fransa rəsmiləri bunun Rusiyaya qarşı “lüzumsuz hücum” olduğunu açıqladılar. Onu da deyək ki, sözügedən sammit ərzində Rusiya Prezidenti Vladimir Putin də Buxarestdə idi. O, tədbirin sonuncu günü çıxış edərək, NATO-nun Rusiya sərhədlərinə doğru genişlənməsinin ölkəsinin təhlükəsizliyinə qarşı birbaşa təhdid yaratdığını bildirdi. Ümumən, Buxarest sammitindən sonra Rusiya Gürcüstanla münasibətlərdə daha aqressiv davrandı. Qarşı tərəfin anti-Rusiya ritorikası fonunda ziddiyyətlərin dərinləşməsi qaçılmaz oldu.

2008-ci il aprelin 16-da V.Putin Rusiya hökuməti ilə separatçı Abxaziya və Cənubi Osetiya arasında rəsmi əlaqələrin yaradılması barədə fərman imzaladı. Aprelin 23-də Gürcüstanın istəyi ilə toplanmış BMT Təhlükəsizlik Şurasının iclasından sonra ABŞ, Böyük Britaniya, Fransa və Almaniyanın ortaq bəyannaməsində Rusiya bu qərarı ya ləğv etməyə, ya da həyata keçirməməyə dəvət edildi. Bu dəvət Rusiyanın BMT-dəki o zamankı səfiri Vitali Çurkin tərəfindən “həddini aşan təklif” kimi adlandırıldı. Beləcə proseslər Avropada XXI əsrin ilk müharibəsinə doğru getdi.

2008-ci il avqustun 1-dən Cənubi osetiyalı separatçılar gürcü kəndlərini atəşə tutmağa başladılar. Bölgədə yerləşən gürcü sülhməramlıları tərəfindən qarşı tərəfə cavab atəşi açıldı. Nəticədə 1992-ci ildə imzalanmış atəşkəs razılaşması qüvvədən düşdü. Avqustsun 7-də Gürcüstanın ordu bölmələri Cənubi Osetiyaya göndərildi. Bir neçə saat ərzində separatçıların əsas dayaq məntəqəsi hesab edilən Tsxinvalinin böyük hissəsi nəzarətə götürüldü. Buna Rusiyanın cavabı çox sərt oldu. Moskva Gürcüstanı “Cənubi Osetiyaya qarşı aqressiyada” təqsirləndirdi və avqustun 8-də “sülhü təmin etmə” əməliyyatı adı altında havadan, qurudan və dənizdən Gürcüstan ərazisinə genişmiqyaslı hücuma başladı. Nəticədə, gürcülər geri çəkilmək məcburiyyətində qaldılar.

Rus və abxaz qoşunları Gürcüstanın nəzarəti altında olan Kodori vadisinə hücum edərək ikinci cəbhə açdılar. Rusiya Hərbi Dəniz Qüvvələri Gürcüstan sahillərinin bir hissəsini blokadaya aldı. Rusiya Hərbi Hava Qüvvələri münaqişə zonası ilə yanaşı, Gürcüstanın digər ərazilərinə də zərbələr endirdi. Nəhayət, avqustun 12-də Fransanın o zamankı Prezidenti Nikola Sarkozinin təşəbbüsü ilə atəşkəs müqaviləsi imzalandı və müharibə başa çatdı.

Rusiya avqustun 26-da Cənubi Osetiya və Abxaziyanın müstəqilliyini tanıdı. Rəsmi Tbilisi buna cavab olaraq Moskva ilə diplomatik münasibətləri kəsdi. Rusiya oktyabrın 8-dək öz qoşunlarının əksər hissəsini Gürcüstanın münaqişə zonasına aid olmayan ərazilərindən geri çəkdi. Nəzərə alaq ki, müharibə gedişində rus qoşunları tərəfindən Zuqdidi, Senaki, Poti və Qori kimi gürcü şəhərləri işğal olunmuşdu, üstəlik, rus qoşunları Tbilisinin həndəvərlərinədək gəlib çıxmışdılar.

***

Sonda Azərbaycanın başına gətirilmiş bəlalarla oxşarlıq məsələsi üzərində dayanaq. Bəli, istər Qarabağ, istərsə də Cənubi Osetiya və Abxaziya problemləri müstəvisində sülhün əldə edilməməsi qlobal güclərin bir-biri ilə rəqabətinin doğurduğu acı mənzərədir. Bu mənzərənin ayrı-ayrı epizodları haqq və ədalət anlayışlarını ikinci plana atır. Nəticədə, hər kəs özünü haqlı hesab edir, böyük haqlar unudulur. Durumdan əziyyət çəkən isə bölgənin xalqlarıdır. Xalqların dinc birgəyaşamı qlobal siyasi oyunların, avantürist baxışların qurbanına çevrilir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanın sülhə yolu konstitusiya dəyişikliyindən keçir

## Ermənistan üçün presedentlər: Yaponiya, Almaniya, İtaliya, Fransa...

**Dövlətin sosial sistemindən asılı olmayaraq, hər bir konstitusiyanın müəyyən funksiyaları vardır. Buraya hüquqi, sosial, daxili və xarici siyasət, sistem-yaradıcı, təsisedici, səlahiyyətverici və mühafizəedici funksiyalar daxildir. Bu yazıda bizi maraqlandıran xarici siyasət funksiyasıdır ki, o da təkcə siyasi həyatı ehtiva etmir, eyni zamanda dövlətin xarici siyasət fəaliyyətinin də əsasını təşkil edir. Bu, konstitusiyaya xarici siyasət və müdafiə ilə bağlı xüsusi fəsillərin daxil edilməsi ilə ifadə olunur. Ermənilər də belə ediblər, əsas qanunlarında xarici siyasətlə bağlı müəyyən prioritetləri yazıblar. Lakin bunu bütün beynəlxalq normaları pozaraq həyata keçiriblər. Yəni Ermənistan konstitusiyasına Azərbaycana qarşı torpaq iddiası irəli sürən maddə daxil etmiş "unikal" ölkədir. İrəvan Azərbaycan ilə sülh imzalamaq istəyirsə, əsas qanuna dəyişiklik etməlidir və dünya tarixində belə addım atmış bir çox ölkə var.**



Ölkə konstitusiyasının xarici siyasət funksiyası həm də ondan ibarətdir ki, o, dövlətdən kənarda da mühüm informasiya mənbəyi rolunu oynayır. Konstitusiya ictimai-siyasi quruluş və dövlət quruluşu haqqında təsəvvür yaradır. Konstitusiyada sosial-iqtisadi və siyasi sistemin hansı parametrlərinin təsbit edildiyi ilə tanış olan xarici dünya ölkənin mümkün inkişaf perspektivləri haqqında təsəvvür əldə edir. Ermənistanın əsas qanunu isə bu baxımdan pis mənada fərqlənir. Qonşu ölkənin konstitusiyasında birbaşa olmasa da, istinad etdiyi İstiqlaliyyət Bəyannaməsində həm Azərbaycana, həm də Türkiyəyə ərazi iddiası irəli sürür. Bunu erməni konstitusiyasının 1-ci maddəsində ümumilli dəyərlərin mənbəyi kimi istinad edilən Ermənistanın "İstiqlaliyyət Bəyannaməsi" də təsdiqləyir. Buna görə də, Azərbaycan bildirir ki, İrəvan konstitusiyasına dəyişiklik etməsə, sülh imzalanması mümkün olmayacaq.

Bəs Ermənistan niyə dəyişiklik etməyə tələsmir? Ermənilər rahat və uzunmüddətli davamlı sülh şəraitində yaşamaq və inkişaf etmək istəyirlərsə, boş qürurlarını rəfə qoyub reallığa uyğun addım atmağa can atmalıdırlar. Münaqişədən sonrakı dövrdə konstitusiyanın dəyişdirilməsi adi bir təcrübədir və Ermənistan normallaşma prosesini səmimi şəkildə təşviq etmək istəyirsə, qonşularına qarşı ərazi iddialarını konstitusiyasından çıxarmalıdır. Məgər yaponlar ermənilərdən az qürurludurlar? 1947-ci ildə Yaponiya "Postmüharibə Konstitusiyası" olaraq adlandırılan, müharibədən imtina və fundamental insan hüquqlarının təminatı da daxil olmaqla, əhəmiyyətli dəyişikliklər edilən yeni konstitusiya qəbul etdi. 9-cu maddə ölkənin əsas qanununun "özəyini təşkil edir": "Yapon xalqı beynəlxalq mübahisələrin həllində bir vasitə kimi millətin suveren hüququ olan müharibədən, həmçinin təhdid etməkdən və silahlı qüvvə tətbiqindən həmişəlik imtina edir". Bununla yaponlar ölkədə demokratik və qeyri-militarist təməllərin bərqərar olmasını bir daha təsbit etmişdilər.

Eyni sözləri Almaniya barədə də demək olar. İkinci Dünya müharibəsində milyonlarla insanın ölməsinə, minlərlə şəhərin viran qalmasına məhz nasist Almaniyasının siyasəti səbəb olmuşdu. Bu qədər fəlakətin səbəbkarı olan almanlar özlərində güc və iradə taparaq reallığın gözünə dik baxmağı bacardılar və zəruri hüquqi islahatlara getdilər. 1949-cu il mayın 23-də təntənəli iclasda Parlament Şurasının sədri Konrad Adenauer Almaniyanın Əsas Qanununun qüvvəyə mindiyini elan etdi. Bu hadisə Almaniya Federativ Respublikasının yaranması günü hesab olunur. Əsas Qanunun mətni elə ertəsi gün Almaniya Ədliyyə Nazirliyinin Federal qəzetində dərc olundu. Sənədin əsli bu gün Almaniya Bundestaqında saxlanılır. Almanlar yeni konstitusiya qəbul etməklə işğalçı keçmişlərinə birdəfəlik "yox" demişdilər.

İkinci Dünya müharibəsindən və faşizmin süqutundan sonra İtaliya da 1948-ci ildə yeni konstitusiya qəbul etmişdi. Bu, Benito Mussolininin totalitar rejimindən demokratik və respublikaçı idarəetmə formasına əhəmiyyətli keçidini təsdiqləmişdi. Eyni yolu Cənubi Koreya da getmişdi. Belə ki, 1953-cü ildə Koreya müharibəsi başa çatdıqdan sonra Seul 1963-cü ildə yeni konstitusiya qəbul etmişdi. İkinci Dünya müharibəsindən sonra Fransada da yeni konstitusiya qəbul olunmuşdu. Aparteidin sona çatmasından sonra Cənubi Afrika 1994-cü ildə müvəqqəti konstitusiya, ardınca 1996-cı ildə yekun konstitusiya qəbul etmişdi. Bu, irqi cəhətdən təcrid olunmuş cəmiyyətdən demokratik və multikultural bir millətə əhəmiyyətli transformasiyanı təsdiqləmişdi.

Daha bir presedent 1998-ci il noyabrın 19-da Böyük Britaniyada baş vermişdi. Ölkə parlamenti Şimali İrlandiya aktını qəbul etmişdi. Həmin qanuna əsasən 1920-ci il İrlandiya hökuməti haqqında və 1973-cü il Şimali İrlandiya Konstitisiyası haqqında qanunlar ləğv olunmuşdu və Britaniya ilə İrlandiya Respublikası arasında 1998-ci il aprelin 10-da əldə edilmiş Belfast razılaşmasına əsasən yeni qaydaları müəyyən etmişdi. Şimali İrlandiyanın Konstitusiyasının 2 və 3 maddələri çıxarılmışdı. İrlandiya Respublikasının Konstitusiyasından Şimali İrlandiyaya ərazi iddialarını nəzərdə tutan maddələrin çıxarılması təsbit olunmişdu.

İndi Azərbaycan Ermənistan Konstitusiyasından ona və Türkiyəyə qarşı ərazi iddialarını aradan qaldırmağı tələb edir. Bakı davamlı sülhə gedən yolun boş bəyanatlardan deyil, bu sülhə olan təhdidlərin aradan qaldırılmasından keçdiyini bildirir. Ermənistan da yuxarıda sadalanan ölkələrin getdikləri yola çıxmalıdır, eyni addımları atmalıdır. Azərbaycan ərazilərində daşı-daş üstə qoymayan ermənilər keçmişə boylanmaq vərdişindən əl çəkməli və gələcəyə istiqamətlənmiş əməllərə üz tutmalıdırlar. Bu əməl də qonşularına xoş münasibətin olduğunu de-yure təsdiqləməməkdən ibarət olmalıdır. Əgər Ermənistan! həqiqətən də sülh imzalamaqda səmimidirsə, münasibətləri birdəfəlik olaraq normallaşdırmaq istəyirsə, buna mane olan bütün maneələri aradan qaldırmalıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz gələcək nəsillərə Cənubi Qafqazda sülhü, sabitliyi miras qoymaq istəyirik. Əgər Ermənistan da bunu istəyirsə, üzərinə düşən öhdəlikləri yerinə yetirməli, o cümlədən də konstitusiyasında dəyişiklik etməlidir.

***S.ELAY***
***XQ***

# Parlament Şurası da revanşistlərin tələbini rədd etdi

**(əvvəli 1-ci səhifədə)**

Dünən "Vətən naminə Tavuş" hərəkatı bəyanat yayıb. Bəyanatda deyilir ki, "Vətən naminə Tavuş" hərəkatı hayları birləşməyə və Ermənistanın gələcəyi ilə bağlı problemi həll etməyə çağırır: "Əziz dostlar, "müqəddəs ata" qalib gəlmək üçün bizdən cəmi 96 saat vaxt istədi. Bu vaxtın bir hissəsi artıq keçib. İyunun 9-da biz çox vacib məsələlərdən danışdıq. Artıq aydındır ki, qələbəyə nail olmaq üçün çox şey lazım deyil – polis səddini keçmək kifayətdir. Biz bunu edə bilərik. Biz bunu həm də ona görə edə bilərik ki, polislərin böyük əksəriyyəti ağıl və qəlbən bizimlədir. Sadəcə, uşaqlar (polislər nəzərdə tutulur–S.H.) əsirlikdədir. Xuliqanlar və yalançılar onları əsir götürüblər. Onların bəzilərini rüşvətlə ələ ala biliblər. Biz polis əməkdaşlarımızı bu əsirlikdən azad etməliyik. Mümkün olan hər şeyi etmək lazımdır ki, polis zəncirləri xalq qarşısında spontan şəkildə açılsın və həqiqət yalana qalib gəlsin. Əziz həmvətənlər, bütün işlərinizi bir kənara qoyun. Gəlin, Ermənistanın gələcəyi ilə bağlı məsələni həll edək. Cəmi 3 gündən sonra bərpaolunan, ədalətli, güclü, mənəvi Ermənistana sahib olacağıq".

Ancaq Ermənistan hakimiyyəti də, necə deyərlər, yerində möhkəm dayanıb və radikallar qarşısında geri çəkilənə oxşamır. Parlamentin spikeri Alen Simonyan keçirdiyi brifinqdə deyib ki, hakimiyyət növbədənkənar parlament seçkisinin keçirilməsi məsələsini müzakirə etməyəcək. Onun sözlərinə görə, bu məsələ, ümumiyyətlə, gündəlikdə deyil: "Biz müxalifətin növbədənkənar seçki təklifini rədd edəcəyik. Mənə bir səbəb göstərin ki, ölkədə növbədənkənar seçkinin keçirilməsini zəruri etsin. Müxalifətin siması ildən-ilə dəyişsə də, tələbləri dəyişmir. Biz nə etməliyik? Hər dəfə onlar 20 minə yaxın imza toplayanda hökumət istefa verməli və ölkədə növbədənkənar seçki keçirilməlidir? Onlar nə danışdıqlarını bilirlərmi? İki müxalif partiya birlikdə 300 min vətəndaşın səsini topladığını iddia edirdi. Bəs indi onlar haradadırlar?".

Parlamentin deputatı Andranik Koçaryan isə hakim "Mülki müqavilə" partiyasının gündəliyində növbədənkənar iclasın çağırılması məsələsinin olmadığını bildirib. Deputat "Azadlıq" radiosunun erməni xidmətinin ("Azatutyan") efirində deyib: "Yox, bizim gündəliyimizdə belə bir məsələ yoxdur, bu məsələ "Baqrat Brothers"in gündəmindədir. Onların gündəmi bizimki ilə üst-üstə düşmür. Ümumiyyətlə, bu din xadiminin siyasi gündəmi yoxdur".

Jurnalistin "qanuna əsasən, gələn bazar ertəsi növbədənkənar iclas çağırıla bilər, əgər "Mülki müqavilə" razılıq verməsə, bu halda onlar iclas keçirməyəcəklər?" sualına cavab olaraq Koçaryan bildirib: "Hadisələrin inkişafını izləyin, hər şey qanun çərçivəsində olacaq".



Qeyd edək ki, parlamentdəki müxalifətçi "Hayastan" və "Şərəfim var" fraksiyaları iyunun 11-də, yaxud iyunun 17-dək növbədənkənar iclas çağırmaq, hökumətin istefası və yeni hökumətin formalaşdırılması tələbi ilə artıq parlament şurasına müraciət ediblər. Parlament şurası müxalifət fraksiyalarının təklifini rədd edərsə, o zaman "Ermənistan parlamentinin reqlamenti haqqında" qanuna əsasən parlamentin növbədənkənar sessiyası beşinci iş gününədək, yəni, iyunun 17-si yerli vaxtlar saat 18:30-dək çağrılmalıdır.

Hakim partiyanın daha bir deputatı Narek Kaqramanyan isə hesab edir ki, "srbazan"ın rəhbərlik etdiyi hərəkat növbədənkənar seçkilərə gətirib çıxara biləcək hərəkat deyil. O, parlamentdə jurnalistlərlə söhbətində deyib: "Hakimiyyətin ələ keçirilmədiyi, azad və ədalətli seçkilərlə formalaşdığı yerdə hökumət növbəti parlament seçkiləri vasitəsilə dəyişdirilməlidir". Deputat qeyd edib ki, əgər onlar uğursuzluğa düçar olsalar, 2026-cı ildə hakimiyyətdə olmayacaqlar.

Erməni ekspertlər də ölkədə baş verən proseslərə biganə qalmırlar. Onlar Baqratın başçılıq etdiyi hərəkatın Hayastanı hara sürüklədiyinin fərqindədirlər. Politoloq Arutyun Mkrtçyan onlardan biridir. O, revanşist keşişin vətəndaşları toqquşma və iğtişaşa çağırmasına belə reaksiya verib: "Keşiş Qalstanyan Ermənistan vətəndaşlarını öz ambisiyalarına qurban vermək istəyir. O, zorakılığa təhrik edir, iğtişaş salmağa çalışır. Kimin "təndirdə yanmaq" arzusu varsa, iştirak edə bilər".

Günortadan sonra parlamentin deputatlarının növbədənkənar iclasın çağırılması üçün petisiya təqdim etdikləri açıqlanıb. Onun gündəliyinə bir məsələ daxildir: hökumətin istefası və yeni hökumətin formalaşdırılması. Parlamentin "Hayastan" fraksiyasının üzvü Artsvik Minasyan jurnalistlərə bildirib ki, petisiyaya 33 deputat imza atıb. O əlavə edib ki, 35 deputatın imzası olacaq, lakin texniki səbəblərdən iki deputat hələlik petisiyaya imza atmayıb.

A.Minasyan onu da bildirib ki, aksiyalar "xalq öz tələblərinə, konkret olaraq, mövcud hökumət dəyişikliyinə nail olana qədər" aparılmalıdır.

"Ermənistan parlament şurasının iclasını nailiyyət kimi təqdim etmək ucuz və primitiv manipulyasiyadır". Bunu isə "Mülki müqavilə" partiyasından olan deputat Arpi Davoyan "Facebook" səhifəsində yazıb. O, öz fikirlərini bununla əsaslandırıb ki, parlamentin növbəti dördgünlük sessiyası ərəfəsində, saat 16:00-da həmişə parlament şurasının iclası olur.

Dünən günortadan sonra parlament şurasının iclası başlanıb. İclasın getdiyi ərəfədə Baqramyan prospektində olan "srbazan" bildirib ki, şuranın iclasında müxalifətin növbədənkənar sessiya çağırmaq və baş nazirə etimad göstərməmək təklifi müzakirə olunacaq. Qeyd edib ki, böyük ehtimalla, deputatlardan biri, məsələn, Artsvik Minasyan gəlib parlamentdə baş verənlər və hansı addımların atıldığı barədə məlumat verəcək: "Əgər bu tələb rədd edilərsə, biz sadəcə olaraq, bu insanları (deputatları nəzərdə tutur–S.H.) işə buraxmamalı olacağıq. Onların bizim ödədiyimiz vergilər hesabına, guya, işləməyə ixtiyarı yoxdur. Onların kimə, nəyə görə işlədikləri aydın deyil".

Bu bəyanatın verilməsindən sonra İrəvan polisi parlamentin binası qarşısında tikanlı məftillər quraşdırmağa başlayıb. Bu barədə isə yerli teleqram kanalları məlumat yayıb.

Günün sonuna yaxın Ermənistan parlament şurasının müxalifətin baş nazir Nikol Paşinyana etimadsızlıq göstərilməsi məsələsinin müzakirəsi üçün iyunun 11-də növbədənkənar iclas keçirilməsi tələbini rədd etdiyi məlum olub. "Armenia Today"in yaydığı məlumata görə, "Mülki müqavilə" fraksiyasının rəhbəri Ayk Konjoryan bildirib ki, onlar qanuna uyğun olaraq, iyunun 17-də keçiriləcək növbədənkənar sessiyada iştirak etməyəcəklər.

Qeyd edək ki, növbədənkənar iclas keçirilməsi tələbini rəsmi şəkildə parlamentdəki müxalifətdəki "Hayastan" və "Şərəfim var" fraksiyaları rəsmən irəli sürmüşdülər. Bu isə Paşinyanın impiçmenti ilə bağlı məsələnin ən azı indki mərhələdə uğursuz olduğu qənaətinə gəlməyə əsas verir. Ancaq aranı qarışdırmaq, gərginlik yaratmaq səylərindən əl çəkməyən revanşistlərin qarşıdakı günlərdə yeni addımlar atacağı da istisna olunmamalıdır.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev "XQ"-yə açıqlamasında bildirdi ki,** radikalların bundan sonra nəyəsə



nail olacağı gözlənilmir. Onun sözlərinə görə, Paşinyana impiçment prosedurunun tətbiq olunacağı inandırıcı deyil: "Mən belə bir halın baş verəcəyinə inanmıram. Görünən odur ki, son mitinqlərdə erməni apostol kilsəsi də çıxış edir. Biz bilirik ki, kilsə hər zaman erməni millətçiliyinin, irqçiliyinin, şovinizminin əsasında dayanan bir qüvvədir. Amma görünən odur ki, hələlik Paşinyana ciddi təhlükə yoxdur".

***Səxavət HƏMİD***
***XQ***

**Replika**

# Geosiyasi letargiya

## Bütün dünya erməniləri, ayılın!

**Tarixdə bu cür hallar çox olub. Gözləmədiyi qəfil hadisədən, üzləşdiyi şok durumdan, aldığı küt zərbədən keçirdiyi dərin stress insan orqanizmində letargiya adlandırılan yuxulama ilə nəticələnə bilir. Tibb elmi bu təzahürün anatomiyasını hələ sona qədər aça bilməyib. Necə ki, yuxunun insanın beynində keçmişin, yoxsa gələcəyin inikası, ismarıcı olduğu barədə qəti qərara gəlməkdə çətinlik çəkir.**



Amerika Erməni Milli Komitəsinin (ANCA) icraçı direktoru Aram Hamparian gülməli bir açıqlama yayıb. ABŞ vətəndaşı olan Hamparian bunları deyib: "Konqres Ağ Ev administrasiyasının uğursuz olduğu yerlərdə fəaliyyəti gücləndirməlidir. O, Azərbaycanı məsuliyyətə cəlb etməli, yeni təcavüzün qarşısını almalı və "beynəlxalq himayə altında" "Artsax"ın yerli xalqının təhlükəsiz və davamlı şəkildə öz "ata-baba yurduna qayıtmasını təmin etməlidir". Bax belə!..

İndi biz Aramı hansı dildə və nə üsulla başa salaq ki, rəngli letargik yuxusunda gördüklərini gerçəklik kimi qəbul edib xam xəyallara dalmasın. Onun ABŞ Konqresini borclu çıxarmağa çalışması ilə işimiz yoxdur. Bəlkə orada hansısa konqresmenin Arama, yaxud ANCA-nın erməni zənginінə qaytara bilmədiyi borcu əmələ gəlib? Bununla işimiz yox, çünki şəxsi məsələdir, öz aralarında həll etsinlər. Amma, o ki qaldı, "Artsax" ermənilərinin "beynəlxalq himayə altında ata-baba yurduna qaytarılması" məsələsinə, burada Hamparian əyləci basmalıdır. Sadəcə bu səbəbdən ki, o, bu məsələni, hətta yuxusunda birdəfəlik unutmalı olacaq. Çünki daha "artsax" filan yoxdur, ona görə ki, oradan özləri çıxıb gediblər. Məgər adam da özünün ata-baba yurdunu "dobrovolnı" tərk edər? Hə, az qala unutmuşduq, axı burada söhbət ermənilərdən gedir. Əgər Amerikada doğulub-böyümüş, beyninin "boz hüceyrələri" şovinizmlə suvarılmış Aram dediyimizdən bir şey kəsdirə bilmirsə, onda daha anlaşıqlı dildə başa salmağa çalışaq: Əgər Ermənistanda bircə nəfər də olsun azərbaycanlı yoxdursa, nəyə görə Azərbaycanda erməni olmalıdır?

Aram Hamparian "kepkasını" qarşısına qoyub bu sualın cavabını axtarmağında olsun, biz letargik yuxuya getmiş başqa bir hayın – Qaqik Ambarsumyanın İrəvanın mərkəzində "ifraz etdiyi" dərin fəlsəfi mülahizələri ilə oxucularımızı tanış edək. Bu erməni Ermənistan DİN binasının qarşısında keçirilən etiraz aksiyalarında iştiraka görə həbs edilib. Onun məhkəmə qarşısındakı bəlağətli çıxışına ən istedadlı hay vəkil, lektor belə qibtə edərdi. Sitat: "Hörmətli məhkəmə! Mən "Vətən naminə Tavuş" hərəkatında iştirak etmişəm, iştirak edirəm və bundan sonra da iştirak edəcəyəm".

Bu yerdə nəfəsinizi dərin və Qaqikin "emal etdiyi" ədəbi "şedevr"ə diqqət kəsilin: "Ona görə iştirak edəcəyəm ki, başınızın üstündə asılmış Ermənistan Respublikasının gerbindəki Ararat dağını aypara ilə əvəz etməsinlər".

Erməni "mücahidin" vətənpərvərlik pafosunu layiqincə qiymətləndirmək lazımdır. Amma ardınca yuxuda sayıqlayırmış kimi danışan Ambarsumyana qısa xatlrlatmaya ehtiyac yaranır. Gerbinizə rəsmini yamaq etdiyiniz o dağın adı Ararat yox, Ağrıdır. Ararat isə sizin xarici işlər nazirinizin adıdır. Yəni hər şey bu qədər sadədir. Əslində, Qaqik aypara ilə bağlı maraqlı ideya vermiş oldu. Ağrıdağı yalnız Türkiyənin ərazisindədir, hilal isə ayda bir dəfə hamının başının üstündə parlayan Ayın "cavanlığıdır". Sadəcə, gözlərinizi ovuşdurub ayda bir dəfə səmaya tamaşa etməyiniz gərəkir. Onda çox şeyin yuxudakından tamamilə fərqli olduğunun fərqinə varacaqsınız.

Bunların hamısı, tibbin dili ilə desək, letargik yuxunun əlamətləridir. Özü də belə yuxudan əziyyət çəkən hayların sayı bir deyil, beş deyil, minlərlə, yüz minlərlədir. Odur ki, üzümüzü okeanın o tayındakı Amerika Erməni Milli Komitəsinin timsalında bütün dünya ermənilərinə tutub "Ayılın! Rəngli letargik yuxulardan real həyata, Yer üzünə qayıdın!" deyirik.

Yazımızı statistik haşiyə ilə bitirmək istərdik: Ginnesin rekordlar kitabına düşmüş, rəsmi qeyd olunmuş ən uzun letargik yuxuya getmə hadisəsi 1954-cü ildə 34 yaşlı Nadejda Artyomovna Lebedina ilə baş verib. Həyat yoldaşı ilə qalmaqaldan sonra qadın aldığı güclü stresdən 20 illik yuxuya gedib və bir də 1974-cü ildə ayılıb.

İndi biz durub adı ruscadan tərcümədə Ümid kimi səslənən qadının taleyi ilə letargik yuxudan əziyyət çəkən hayların mərəzini müqayisə etmək fikrindən uzağıq. Sadəcə, yazdıq ki, bundan da xəbərləri olsun...

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan–Misir münasibətləri siyasi həmrəylik müstəvisində

## Qarabağ və Şərqi Zəngəzurun bərpasında Şimali Afrika ölkəsi də iştirak edəcək

**Azərbaycan xalqı ilə Misir ərəblərinin dostluq və əməkdaşlıq münasibətlərinin çoxəsrlik tarixi olsa da, iki ölkə arasındakı rəsmi-siyasi münasibətlərin əsas stimulu ulu öndər Heydər Əliyevin 1994-cü ilin sentyabrındakı Qahirə səfəri olmuşdur. Ümummilli liderimiz həmin tarixdə BMT tərəfindən keçirilən "Əhali və inkişaf" məsələlərinə həsr olunmuş beynəlxalq konfransda iştirak edirdi.**



Yeri gəlmişkən, xatırladaq ki, Ulu öndərin həmin səfərindən təxminən 6 il sonra Azərbaycan hökuməti ilə BMT-nin Əhali Fondu arasında əməkdaşlıq çərçivəsində 2000–2004-cü illər üçün ölkə proqramı üzrə "Əhali və inkişaf" layihəsi həyata keçirilmişdir. Layihə üzrə müxtəlif demoqrafik, əhali və gender göstəriciləri hazırlanmış, müvafiq məlumat bazası təşkil olunmuş, məlumatlar toplusu paylanmış, 4 min ədəbiyyatla təchiz edilmiş milli kitabxana, Beynəlxalq İnformasiya və Resurs Mərkəzi yaradılmışdır.

Ümummilli liderimizin Qahirə səfəri çərçivəsində (sentyabrın 5-də) Misir parlamentindəki Misir – Azərbaycan Dostluq Cəmiyyətinin numayəndələri ilə görüşdə çıxış edən Heydər Əliyev xüsusilə vurğulamışdır ki, xalqlarımız arasında əlaqələrin tarixi çox böyükdür. Uzun əsrlər boyu bir-biri ilə əlaqə saxlayıb, kömək ediblər. Bizim milli, dini, tarixi ənənələrimizdə çox oxşarlıq, eynilik vardır: "Bunlar hamısı Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası, bizim xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək üçün, hər bir sahədə əlaqələrimizi daha səmərəli etmək üçün çox böyük əsasdır".

Fikrimizcə, keçən il Prezident Əbdülfəttah əs-Sisinin Azərbaycana, bu il iyunun 8-də isə Prezident İlham Əliyevin Misirə rəsmi səfərləri məhz ümummilli liderin "xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək üçün, hər bir sahədə əlaqələrimizi daha səmərəli etmək üçün çox böyük əsas" adlandırdığı dəyərlərin müsbət nəticəsidir.

Təbii ki, dövlət başçılarının səfərləri zamanı təşkil olunan rəsmi qarşılanma, təkbətək və geniş tərkibdə görüş, sənədlərin imzalanması, digər tədbirlər olduqca böyük əhəmiyyət kəsb etsə də, mətbuat təmsilçiləri daha çox "birgə mətbuat konfransı"na önəm verir və gözləyirlər. Çünki bütün müzakirələrin, imzalanan sənədlərin əsas qayəsi məhz dövlət başçılarının mətbuat üçün verdikləri birgə bəyanatdan aydın olur.

Elə buna görə də Misir və Azərbaycan prezidentlərinin iyunun 8-də jurnalistlərə verdikləri bəyanatdan iqtibas gətirməyi məqsədəuyğun saydıq. Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi xatırlatdı ki, Azərbaycan Respublikasının Prezidenti ilə keçirdiyim danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir: "Eyni zamanda qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik".

Azərbaycan Prezidenti İlham Əliyev isə misirli həmkarının "qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər" adlandırdığı gündəlik barədə daha açıq şəkildə danışdı: "Fələstin–İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır – müstəqil Fələstin Dövləti qurulmalıdır, Şərqi Qüds onun paytaxtı olmalıdır".

Onu da əlavə edək ki, Azərbaycan Prezidenti bu mövqeyini təkcə Qahirədə dilə gətirmədi. Dövlət başçımız həm İstanbulda keçirilən Fələstin mövzulu beynəlxalq tədbirdə, həm də 2022-ci il noyabrın 1-də Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimindəki çıxışında dilə gətirmişdi.

Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycan Fələstin məsələsinin 1967-ci il sərhədləri şərqi əl-Qüds paytaxt olmaqla iki dövlət prinsipi əsasında həllinin tərəfdarıdır. Azərbaycan QH sədri olarkən də bu prinsiplərin təşviqinə daim töhfə verib. Son zamanlar irəli sürülən bəzi iddialara baxmayaraq Azərbaycanın Ərəb İslam dünyasının mərkəzlərindən biri olan Misirdə bu prinsipial mövqeyini səsləndirməsinin ələhiddə əhəmiyyəti var.

Yeri gəlmişkən, cənab Prezident Qahirədə olduğu kimi, Əlcəzairdə də ölkəmizin haqq işini dəstəkləyən ərəb dövlətlərindən gördüyümüz həmrəyliyi yüksək qiymətləndirərək demişdi: "Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq. Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, Qoşulmama Hərəkatının sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik". Əlavə edək ki, dövlət başçımız Fransa ordusunun Əlcəzairdə törətdiyi soyqırımında azadlıq uğrunda şəhid olmuş ərəblərin məzarını da ziyarət etmişdi.

Fikrimizcə, "Nəyi, nə zaman, necə etməyi" hamıdan yaxşı bilən dövlət başçımızın 3 gün əvvəl – iyunun 8-də reallaşdırdığı Misir səfəri məhz "birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik"– vədinin gerçəkləşdirilməsi istiqamətində atılan addımlardan biridir. Ekspertlərin fikrincə, ötən il Misir Prezidentinin Azərbaycana səfər etməsi, bu il isə Azərbaycan Prezidentinin Misirə səfəri ikitərəfli əlaqələrin inkişafına növbəti təkan oldu.

Onu da əlavə edək ki, Misir Azərbaycanın çoxtərəfli əməkdaşlıq çərçivəsində ən çox tribunaya malik olduğu ölkələrdəndir. Yeni Qahirə ilə Bakı bir-birinin mövqelərini BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, EKO, Ərəb Dövlətləri Liqası ( Türkiyə və Azərbaycan orada müşahidəçi statusuyla təmsil olunurlar) və digər qurumların tribunasından dəstəkləyirlər. Bu zaman xüsusilə vurğulanmalı məqamlardan biri də Azərbaycan və Misirin İslam həmrəyliyinin gücləndirilməsinə xüsusi töhfələr verməsidir.

Elə dövlət başçımızın iyunun 8-də Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü də Azərbaycan dövlətinin İslami dəyərlərə böyük önəm verdiyinin göstəricisi kimi qəbul edilir. Prezident İlham Əliyev həmin görüşdə, bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı. Eləcə də ölkəmizdə dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, Azərbaycanın dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirdi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibi ölkəmizə səfərə dəvət etdi.

İslami dəyərlərə daim böyük önəm verən bir dövlətin ərazisindəki məscidlərdən 65-nin işğalçı dövlət tərəfindən tamamilə dağıdıldığını diqqətə çatdıran Prezident Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini dedi. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, İslam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq 5 məscidin bərpa olunduğunu bildirdi. Ona görə o da vurğulandı ki, Azərbaycanın işğaldan azad edilmiş Şuşa şəhəri İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu dilə gətirərək bildirdi ki, o, Azərbaycanda keçiriləcək COP29-a dəvət almaqdan məmnundur və həmin tədbirdə iştirak etməkdən də məmnun olacaq.

Beləliklə, Azərbaycan dövlətinin yeritdiyi xarici siyasət təkcə öz ölkəmizə uğur gətirmir, həm də beynəlxalq aləmdəki dost və tərəfdaşlarımızın nüfuzunun artmasına kömək edir. Ölkəmizin istər ABŞ, istər Rusiya, həmçinin region ölkələri, İran, Mərkəzi Asiya, Yaxın Şərq, Avropa İttifaqı ölkələri ilə əlaqələri birmənalı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Dövlət başçımızın Misirə səfəri də həmin düşünülmüş xarici siyasətin mühüm tərkib hissələrindən biri kimi qəbul edilir.

***İttifaq MİRZƏBƏYLİ***

# Xəzər sahillərindən Nil boyuna əməkdaşlıq körpüsü

(əvvəli 1-ci səhifədə)



Bu məqamla bağlı qeyd edə bilərik ki, BMT-nin 2001-ci ildə qəbul olunan müvafiq qətnaməsinə əsasən, adıçəkilən forum iki ildən bir dünyanın şəhərsalma sahəsində ən nüfuzlu şəhərlərindən birində keçirilir. Yəni söhbət urbanizasiya və şəhər inkişafının öyrənilməsi üçün ən böyük platformadan gedir.

Beləliklə, belə bir şərəfli tədbirə evsahibliyi etmək hüququ uğrunda mübarizəyə dünyanın qabaqcıl ölkələrinin 10-dan çox şəhərinin qoşilması və prezidentlər İlham Əliyev və Əbdülfəttah əs-Sisinin qarşıya qoyduqları məqsəd – WUF13-ə evsahibliyi etmək hüququ uğrunda yarışda qalib gəlmək heç də asan məsələ deyil. Amma Azərbaycan və Misir dövlətləri bir daha sübut ediblər ki, onlar qarşısına qoyulan məqsədlərə, hətta ən iddialılarına belə nail ola bilərlər.

Azərbaycan və Misir prezidentlərinin görüşündə ölkələrimiz arasında enerji, tikinti, sənaye, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub, hökumətlərarası komissiyanın növbəti iclasının Misirdə keçiriləcəyi bildirilib. Azərbaycanın biznes nümayəndə heyətinin Misirə səfər etdiyi və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının hazırda nəzərdən keçirildiyi vurğulanıb. Həmçinin Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin imkanlarının artırılması, Misirin Türkiyənin Mersin limanı vasitəsilə bu xətdən yararlanaraq Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub. Şimal–Cənub Nəqliyyat Dəhlizi və bu xüsusda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Prezidentlər İlham Əliyev və Əbdülfəttah əs-Sisinin mətbuata bəyanatlarında da Misir–Azərbaycan əlaqələrinin inkişafı istiqamətində geniş danışılıb. Dövlətimizin başçısının bəyanatında ikitərəfli münasibətlərin bir sıra məqamlarına toxunulub. Ölkələrarası ticarət dövriyyəsinin bir neçə dəfə artmasına baxmayaraq bunun qaneedici olmadığı, lakin imzalanmış sənədlərin, əldə edilmiş razılaşmaların bu istiqamətdə dönüş yaradacağına ümid bəsləndiyi diqqətə çatdırılıb. Ümumiyyətlə, yaxın perspektivdə iki ölkə arasında energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi və digər sahələrində yüksək nəticələr əldə ediləcəyi bildirilib.

Ötən illər ərzində Azərbaycan Misirlə neft emalı sahəsində əməkdaşlıq etməyə başlayaraq İsgəndəriyyə neft emalı zavodu və Midor müəssisəsinin neft təchizatını gerçəkləşdirib, ölkəyə kimya və metallurgiya sənayesi məhsulları ixrac edib. Misir məhsullarının respublikamıza idxalına gəldikdə, bu, əsasən özünü daha çox tibbi ləvazimatlarla təminatda büruzə verib. Çünki bu ölkənin əczaçılıq sənayesi yüksək səviyyədə inkişaf edib, həm də həmin məhsulların qiyməti Azərbaycan vətəndaşları üçün əlverişli olub.

İki ölkə rəhbəri arasında keçirilən görüşlərdə yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi də aparılıb. Həm Şərq–Qərb, həm Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçdiyi, buna görə də respublikamızda bütün logistika infrastrukturunun yaradıldığı və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açıldığı diqqətə çatdırılıb.

Onu da deyək ki, Misir Ərəb Respublikası Azərbaycanın müstəqilliyini tanıdığı 1991-ci il dekabrın 26-dan etibarən iki ölkə arasında siyasi, sosial-iqtisadi əlaqələr davamlı olaraq inkişaf edib, yaradılan hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək komissiyanın səmərəli fəaliyyəti nəticəsində əlaqələrin möhkəmlənməsi istiqamətində mühüm addımlar atılıb, 60-dan çox sənəd imzalanıb.

Hazırda respublikamızda ticarət, sənaye və xidmət sahələrində Misir investisiyalı 10-dan çox şirkət fəaliyyət göstərir. İki ölkə arasında ticarət əlaqələrinin genişləndirilməsi üçün böyük potensial var. Enerji sahəsində əməkdaşlığımız çoxşaxəlidir və bu əlaqələrin genişləndirilməsi üçün davamlı tədbirlər həyata keçirilir, SOCAR Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlıq edir. Əlaqələri turizm sahəsində də diqqət çəkir. Son illər ərzində Misirdən ölkəmizə gələn turistlərin sayının 50 faiz artması da bu fikrin bariz ifadəsidir. Bundan başqa iki ölkə arasında bir sıra mühüm sosial layihələrin gerçəkləşdirilməsi də xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Bütün bunlar onu göstərir ki, hazırda Azərbaycan-Misir münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub və bu, hər iki xalqın milli maraqlarına cavab verir. İki ölkə arasında münasibətlərin inkişafı üçün böyük potensial var və qarşılıqlı səfərlər əməkdaşlığın sürətlə genişləndirilməsi baxımından mühüm imkanlar yaradır. Azərbaycan Prezidenti İlham Əliyevin Misirə indiki rəsmi səfəri də ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsini və bu istiqamətdə yeni uğurların əldə edilməsini şərtləndirir.

Göründüyü kimi, Misir ilə Azərbaycanın sıx əlaqələri var, iki ölkə arasında perspektivli əməkdaşlıq sahələri mövcuddur. Bura infrastruktur, neft-qaz, İKT və əczaçılıq sahələri daxildir. Misir qarşıdakı dövrdə bu sektorlarda daha sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyir. Bu barədə Milli Məclisin deputatı Vüqar Bayramov deyir:

– Son illər ərzində Azərbaycan–Misir arasında həyata keçirilən rəsmi səfərlər bu ölkələrin qarşılıqlı münasibətlərinin daha da güclənməsinə töhfə verib. Eyni zamanda hər iki dövlətin fərqli beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq platformasi formalaşıb və iqtisadi sahədə kifayət qədər ciddi potensial yaranıb.

Azərbaycan–Misir arasındakı ticarət dövriyyəsində cüzi dəyişikliklər müşahidə olunsa da, bu ildən etibarən iqtisadi əlaqələr ciddi şəkildə dərinləşib. Belə ki, 2022-ci ildə 16,2 milyon dollar olan xarici ticarət dövriyyəsi ötən il 13,6 milyon dollara bərabər olub. Cari ilin ilk rübündə ölkələr arasındakı ticarət dövriyyəsində kəskin artım qeydə alınıb.

Yalnız 2024-cü ilin yanvar–mart aylarında Azərbaycan ilə Misir arasındakı ticarət dövriyyəsi 14,9 milyon dollara yüksəlib. Bu, o deməkdir ki, ölkələr arasındakı bu ilki rüblük dövriyyə ötən ilki ümumi dövriyyədən daha çox olub. Belə bir şərait isə münasibətlərin inkişaf dinamikasını göstərir.

Aydındır ki, tərəflər arasında ticarət dövriyyəsinin artırılması üçün daha böyük potensial var. Azərbaycan Prezidenti İlham Əliyevin Misirə səfəri zamanı təşkil edilən görüş və müzakirələr də perspektivdə bu imkanlardan daha çox faydalanmağa şərait yaradır. Bu baxımdan, Azərbaycan Prezidentinin Misirə səfəri ölkələr arasında münasibətlərin inkişafında yeni mərhələ olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# Avropa Parlamentinə seçkilər: Fransa hakimiyyətinin "rəzalət" elegiyası

## *Yaxud "bonapartizmin" iflas ayaq səsləri*

**Bəli, Avropa Parlamentinə seçkilərin nəticələri Fransa Prezidenti Emmanuel Makronun sonunun başlandığından xəbər verir. Belə ki, onun rəhbərlik etdiyi "İntibah" partiyası cəmi 14,7 faiz səs toplayıb ki, bu, əsl rüsvayçılıqdır. Ən maraqlısı isə prosesdə Makrona rəqib milliyyətçi Marin Le Penin "Milli birlik" partiyasının 31,5 faiz səs toplamasıdır.**



Həqiqətən də ortada son dərəcə biabırçı mənzərə var. Əslində, bu nəticədən sonra Makron gərək istefa verib siyasi səhnədən tamamilə uzaqlaşsın. Amma bunu edə bilməyəcək dərəcədə vəzifə düşkünüdür. Adam, belə demək mümkünsə, siyasi şizofrenik durumdadır. İddiası o qədər böyükdür ki, populistcəsinə bunu Fransanın maraqlarına xidmət kimi təqdim etməkdən çəkinmir.

Bəli, bu adamın oxuduğu, dövlət idarəçiliyindən anladığı, yaxşı halda, Napoleon Bonapartın həyatıdır. Hərçənd, ikinci özünün ambisiyası naminə Fransanı nə qədər çətin duruma salsa da, onun tarixdə müəyyənləşmiş yeri və rolu danılmazdır. Makron bu baxımdan da tam qısırdır. O, dövləti qoruyub saxlamaq əzmini Napoleonun Lionda əksiqilabçıları top atəşinə tutması kimi, yeni qəddarlıqda görür. Ona görə Fransada etirazçılara qarşı amansız metodlar işə salınır.

Napoleonun müharibələrinə gəlincə, onun Avropanı işğal üzərində qurulmuş avantürasının ölkəyə necə baha başa gəldiyi məlumdur. Əgər həmin vaxt xarici işlər naziri Taleyranın diplomatik məharəti olmasaydı, Fransa indiki ərazilərinə sahib ola bilməyəcəkdi. Taleyran məğlub Fransanı danışıqlar masasından itkisiz, daha doğrusu, çox cüzi itki ilə çıxarmağı bacarmışdı. Görünür, Makron dünya diplomatiyasının partiarxı sayılan Taleyran haqqında heç nə oxumayıb. Görünür, bu səbəbdən Rusiya Prezidenti Vladimir Putin ötən il ona Napoleonun aqibətini yada salmağı məsləhət görmüşdü.

Ancaq Makron o qədər avantürist-dir ki, yalnız keçmişin sabun köpüyünə əsaslanmış səhnələrindən dərs götürür. Əslində o, daxildəki uğursuzluğunu xaricdə, guya, qlobal fəaliyyət görüntüsü formalaşdırmaqla aradan qaldırmaq istəyir. Bunun bir adı var – gözdən pərdə asmaq. Halbuki, Napoleonu mövcud anlamda tam laqeyd qiymətləndirmək doğru olmazdı. Məsələ burasındadır ki, o, bu gün də Avropa və bütövlükdə dünya üçün vacib əhəmiyyət daşıyan mülkiyyətin toxunulmazlığı məsələsini önə çəkmiş, qanuniləşdirmişdi. Razılaşaq ki, bu, bəşəriyyət üçün, kifayət qədər, böyük xidmətdir.

Bəli, Makron ancaq xariclə bağlı sərsəm planlar qurur. O, elə bilir ki, Fransa dünyada hegemon mövqeyə sahibdir. Öz aləmində həmin hegemonluq üçün yeni praktik istiqamətlər müəyyənləşdirir. Onun planlarının mühüm tərkib hissəsini isə Cənubi Qafqaz təşkil edir. Fransa prezidenti Ermənistan vasitəsi ilə bu region üzərindən gərginlik yaradır, siyasi dividendlər əldə etməyə çalışır və Cənubi Qafqazdan Mərkəzi Asiyaya çıxmağı düşünür. Adamın baxışlarında hər şey su içimi kimi şeydir. Çünki düşüncəsi dayaz, bəsit və primitivdir.

Dəyişən dünyanın reallıqlarını görə bilməmək Makron Fransasının hazırkı rəzillik trayektoriyasındakı ən mühüm məqamdır. Belə bir misal var: deyirlər ki, tarixi şəxsiyyətlər dünyanın axarını dəyişmirlər, yalnız baş verə biləcək siyasi prosesləri ya tezləşdirir, ya da gecləşdirirlər. Bu gün dünya Fransa amilini saymazdan gəlir. Ölkənin bəxti onda gətirməyib ki, ona rəhbərliyi Makron edir. Çünki bu dövlət başçısının işi iflas gerçəkliyini tezləşdirməkdir. Halbuki, Fransanın dünyada Makrona qədərki rolu iflasla üzləşməmə reallığını da doğura bilərdi.

Baxın, 2008-ci ildə Rusiya–Gürcüstan müharibəsində atəşkəsin əldə edilməsinə o zamankı Fransa prezidenti Nikola Sarkozi nail olmuşdu. Sarkozinin özü də bir o qədər həlledici fiqur sayılmasa da, bunu bacarmış, qan tökülməsinin qarşısını almışdı. Ən azından həmin zaman kəsiyi üçün çox aqressiv davranan Rusiyanı nəyəsə inandırmağı bacarmışdı. Bu, adi nəticə deyildi. İndi Makronun belə bir missiya yerinə yetirməsini təsəvvürə gətirin. Əlbəttə, tam qeyri-mümkündür.

Makron dünyada elə görüntü yaradır ki, guya, kollektiv Qərbin maraqlarından çıxış edir. O Qərbin ki, hazırda anti-Rusiya ovqatına köklənib. Fransanın dövlət başçısı bu köklənişdə ölkəsini orta əsr cəngavərləri ampluasında göstərir. İstəyir ki, saxtakarlıqla həm Fransanın, həm də Avropanın ictimai rəyini aldatsın. Əslində, onun öz yarıtmazlığını və səriştəsizliyini sığortalamağa hesablanmış gedişini hamı yaxşı anlayır. Ona görə də Qərbin digər oyunçuları susqundurlar. Onlar, ümumən, anti-Rusiya ovqatında olsalar da, gözəl dərk edirlər ki, Makronun etdikləri başını divara vurmaq kimi şeydir. Sadəcə, səhnəni seyr edirlər. Fransa prezidentinin daha hansı avantürist gedişlər etməsini gözləyirlər. Göləyirlər ki, obrazlı desək, Fransanın başı partlasın. Amma öz işlərini də görürlər. Avropa Parlamentinə seçkilərin nəticələri bunu deməyə əsas verir.

Bəli, Avropa Parlamentinə seçkilər "köhnə qitə"nin ictimai rəyinin Fransaya etimad göstəricisidir. Daha doğrusu, Makron Fransasına. O da aydın göründü ki, Makron beynəlxalq müstəvidə nə qədər canfəşanlıq edirsə-etsin, bu, ciddi qarşılanmır. Yəni, Fransa prezidentinin "bonapartizmi" heç bir faydasını vermir. Avropa bu şəxsi Austerlis döyüşündə məğlubiyyətə üzləşmiş ordunu geri qaytarıb qələbə qazandıran Napoleon qiyafəsində görmür. Ümumən, "köhnə qitə" üçün bonapartizm heç bir anlam daşımayacaq durumdadır. Fransanın özü üçün də.

Digər tərəfdən, Makron kimi yerdən-çıxma birinin prezident seçilməsi Fransa ictimai rəyinin qeyri-ciddilik sindromudur. Görünür, hazırda Fransa kimi, Avropanın özü də baş verənlərdən nəticə çıxarmaq barədə düşünür. Məsələn, Fransa xalqı vaxtilə yol verdiyi səhvdən nəticə çıxarır ki, Makrona qarşı etiraz dalğası səngimək bilmir. Diqqət yetirək, 2008-ci ildə ABŞ-nin Gürcüstan fonunda anti-Rusiya dalğasını qaldırdığı bir vaxtda Almaniya və Fransa buna qarşı çıxmışdılar. Yəni, bu, Avropanın özünü sığorta instinktinin işə düşməsi anlamını verirdi. Bu gün Makronun səriştəsizliyi bir yana, Almaniyadakı rəhbərlik də tam dişsiz durumdadır. Nəticə isə ortadadır. Avropa–ABŞ ənənəvi rəqabətindən əsər-əlamət qalmayıb. Birinci sanki ikincinin quludur. Eynilə İkinci Dünya müharibəsindən sonrakı durum yaranıb. Ukrayna müharibəsi fonunda Avropa çöküb. ABŞ isə bu səhnədən dividendini götürür. Əgər Avropa Parlamentinə seçkilərin nəticələri bu reallığın dərkidirsə, o zaman düşünmək mümkündür ki, müsbətə doğru nə isə dəyişəcək. Əlbəttə, tam dəyişiklik üçün Fransada mütərəqqi qüvvələrin hakimiyyətə yiyələnmələri mütləqdir. Bunu isə zaman göstərəcək.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Uzaq Əfqanıstandan gələn etnik sorağımız



**II YAZI**

**Azərbaycanlıların nisbətən sıx məskunlaşdıqları əcnəbi ölkələrdən biri də Əfqanıstandır. Rəsmi statistikaya görə, bu ölkədə soydaşlarımızın sayı 400 min, qeyri-rəsmi mənbələrə görə isə 2 milyon nəfərə çatır.**

Tarixi mənbələrdə azərbaycanlıların bu bölgəyə gəlişinin əsasən XI–XII əsrlərə təsadüf etdiyi göstərilir. Qədim türk tayfaları sayılan əfşarlar bura səlcuqlarla birlikdə XI əsrdə gəliblər. Daha sonra, Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736-1747) Qarabağ bölgəsindən qacar, şahsevən, bayat, otuziki və digər tayfaların Mərv, Qəndəhar, Qəznə bölgələrinə köçürülüb.

Səfəvilər, Əfşarlar, Qacarların hakimiyyəti illərində həmyerlilərimiz yüksək zümrələrdə təmsil olunublar. Mərv, Herat, Qəndəhar və digər ərazilərdə əyalət hakimləri arasında azərbaycanlıların daha çox olduğunu tarixi mənbələr təsdiq edir.

**Oxucuların bu mövzuya marağını nəzərə alıb AMEA Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi Mübariz Ağalarlı ilə görüşüb söhbət etdik. Müsahibimiz bildirdi:**

– Əfqanıstan öz geosiyasi mövqeyinə və strateji əhəmiyyətinə görə həmişə böyük dövlətlərin maraq dairəsində olub. Tarixən belə bir narahat bölgədə soydaşlarımız necə məskunlaşıblar? Onların bəlalı taleyinə biganə qalmaq olmur. Mərkəzi Asiyanın əhəmiyyətli bölgələrindən biri olan Əfqanıstan etnik baxımdan da zənginliyi ilə seçilir. Tarixən hərbi-siyasi və etnik-tayfa münaqişələrinin meydanına çevrilmiş bu ölkə Pakistan, qərbdə İran, şimalda Türkmənistan, Özbəkistan və Tacikistan, şimal-şərqdə isə Çin Xalq Respublikası ilə həmsərhəddir. Əfqanıstanın ərazisi 652.860 kvadratkilometrdir. 60-dan çox etnik qrup və xalqın yaşadığı bu çoxmillətli ölkədə heç bir etnik qrup əhalinin çoxluğunu təşkil etmir. 40 milyona yaxın əhalisi olan ölkədə yalnız qarşılıqlı nisbətdə üstünlüyə sahib 5 böyük etnik qrup var (puştunlar – 12 milyon, taciklər – 9 milyon, özbəklər – 8 milyon, həzaralar – 6 milyon, türkmənlər – 2 milyon və digər xalqlar 3 milyon).

Əfqanıstanda indiyə qədər bütün ölkəni əhatə edən və nəticələri gerçəkliyi tam əks etdirən siyahıyaalma aparılmadığından əhalinin etnik tərkibi və say haqqında da dəqiq məlumat yoxdur. Bütün rəqəmlər müxtəlif mənbələrin qeyri-rəsmi təxmininə əsaslanır. Avropanın "müstəqil sosial təşkilatları" Əfqanıstanda türk kökənli əhalinin sayını öz rəsmi məlumatlarında süni şəkildə azaldırlar. Qərb mənbələrinin verdiyi dəqiq olmayan, təxmini məlumata görə, Əfqanıstanda türk kökənli xalqlar əhalinin 12 faizini təşkil edirlər (özbəklər 9 faiz, türkmənlər 3 faiz). Ancaq Əfqanıstandakı türk mənşəli etnik qrupların icma rəhbərlərinin məlumatlarına əsasən, bütün türkəsilli xalqlar Əfqanıstan əhalisi içində, təxminən, 35-40 faiz təşkil edir (özbəklər 19 faiz, türkmənlər 10 faiz, azərbaycan kökənli qızılbaşlar, mərvilər, bayatlar, timurlular, cəmşidilər, səlcuqlar, əfşarlar, qacarlar 5 faiz.

**– Əfqanıstanda olarkən azərbaycanlılarla görüşüb təmas edə bilmisinizmi?**

– Böyük özbək şairi və ictimai-siyasi xadim Əmir Əlişir Nəvainin 580 illik yubileyinin Əfqanıstanın Herat şəhərində təntənəli şəkildə qeyd edilməsi Azərbaycan alimlərinin də qədim sivilizasiya mərkəzi olan şəhərlə tanış olmasına imkan yaratdı. Böyük karvan yollarının üzərində yerləşən, tarix boyu Şərqlə Qərb arasında ticarətdə böyük rol oynayan Herat şəhəri öz strateji əhəmiyyətini bu gün də saxlayıb. Şəhərin tikinti və abadlıq işlərində məşhur Azərbaycan memarı Hacı Əli Hafiz Təbrizi də iştirak edib. Azərbaycan rəssamlarından Pir Seyid Əhməd, Xacə Əli Müsəvir, Qəvaməddin Qiyasəddin və başqaları Herat rəssamlıq məktəbinin inkişafında mühüm xidmət göstəriblər.

Təəssüf ki, şəhərdəki abidələrin böyük əksəriyyəti, "yadellilərin" Əfqanıstan uğrunda son 40 illik müharibəsi dövründə dağıdılıb və talan edilib. Amma son bir neçə ildə dağıdılan memarlıq abidələri yenidən bərpa edilir.

Herat şəhərində olarkən yerli azərbaycanlılarla da görüşdük. Azərbaycan alimlərinin Əfqanıstana gəldiyini eşidən soydaşlarımız bizimlə görüşmək üçün gəlmişdilər. Bayat etnik birliyinin rəhbəri Əsədullah Sahab, Firudin Mahmudi, Qızılbaş icmasından olan Əhməd Rəşad Cahid, Nüsrətullah Mudasser, Mərvi icmasının nümayəndələri Fərid Şabanpur, Çolam Hidar Dost, doktor Nasir Əhməd Niyazi, Əfşar icmasından Əli Sina Əfşarla görüşdük. Onlar Əfqanıstanda yaşayan azərbaycanlıların öz etnik kimliklərini, adət-ənənələrini və dillərini qorumasında əllərindən gələni ediblər. İcma rəhbərlərinin bizə verdikləri məlumatlara görə, soydaşlarımız bu ölkədə əfqan dilində təhsil alırlar. Hətta bir çox soydaşlarımız Türkiyə universitetlərində təhsil alıb.

Gənclər gələcəkdə bizim universitetlərdə təhsil alaraq, Azərbaycan dilini dərindən öyrənmək və Əfqanıstanda soydaşlarımıza dərs demək arzusundadırlar. Təəssüflər olsun ki, "Taliban" hakimiyyətə gələndən sonra qeyri-rəsmi icmalar tamamilə qadağan edilib, hətta icma rəhbərlərinin böyük əksəriyyəti Almaniya, İraq, Fransa, Qətər və digər dövlətlərdə siyasi qaçqın statusu ilə məskunlaşıblar.

**– Bəs Azərbaycan türkləri bu ölkədə necə məskunlaşıblar? Necə olub ki, onlar Əfqanıstanda varlıqlarını bu günədək qoruyub saxlamışlar?**

– Orta əsrlərdə Azərbaycan hökmdarları Şərq sərhədlərini qorumaq və etnik dayaq yaratmaq məqsədilə Əfqanıstanda azərbaycan mənşəli tayfaları və əmirləri, xüsusilə də qızılbaşları yerləşdiriblər.

1737–1739-cu illərdə Əfqanıstana, müasir Pakistan və Hindistan ərazisinə yürüş edən Nadir Şah Əfşar da bu ölkələrdə öz hakimiyyətini hərbi cəhətdən möhkəmləndirmək üçün Əfqanıstanda qızılbaş qoşunlarını yerləşdirib. Hindistana yürüş edən Nadir şah Şirvan vilayətindəki qızılbaş tayfalarından olan Sərdar Əli xanı da özü ilə götürüb. Hindistandan qayıdarkən Nadir şah Sərdar Əli xanı Qəndəhar valisi təyin edib. Digər qızılbaş əmirləri də əmin-amanlığı və sabitliyi təmin etmək məqsədilə Kabil və Pişəvərdə hakim təyin olunublar.

Nadir şahın qətlindən sonra 1747-ci ildə Əfqanıstanda hakimiyyətə gələn Əhməd şah Dürrani həmin nüfuzlu əmirlərə hərbi vəzifələr verməyə məcbur olub. Əli xan Qəndəhardan şimalda yerləşən Xazar vilayətinə hakim təyin olunub və Herata qədər ətraf bölgələri özünə tabe edib. Əli xanın ölümündən (1770) sonra onun xanımı bir neçə il bölgəni idarə edib. Əli xanın oğulları da əfqan sarayında nüfuz sahibi olublar. Əhməd şahın oğlu və xələfi olan Timur şahın hakimiyyəti dövründə Əli xanın böyük oğlu Qul Məhəmməd xan Kabilə dəvət edilərək ona sərdar titulu verilib. Əfqan hökmdarı Şah Zamanın dövründə də qızılbaşlar orduda və idarəçilikdə nüfuz sahibi idilər.

Əli xanın oğlu Hidayət xan 1797-ci ildə Şah Zamanı Lahor yürüşündə müşayiət edib. 1813-cü ildə Sərdar Əli xanın oğullarından ən kiçiyi Əli Məhəmməd xan 4 minlik ordu ilə əfqan vəziri Fəth xana Kəşmir yürüşündə dəsdək verib. Bu uğurlu yürüşdən sonra o, yüksək hərbi vəzifəyə təyin olunub. Qızılbaş əmiri Hidayət xanın ölümündən (1836) sonra oğlanları yüksək dövlət vəzifələrində olublar. Hidayət xanın dördüncü oğlu Əli Rza xan Qızılbaş Kabildə böyük nüfuz qazanıb. 1839-cu ildə Britaniya ordusu Kabilə daxil olduqda o, Ticarət Departamentinə baş agent təyin edilib.

**– Əfqanıstanda yaşayan soydaşlarımızın tarixi Vətənləri Azərbaycanla əlaqələrini yaratmaq üçün nə etmək lazımdır?**

– Əfqanıstanda yaşayan Azərbaycan kökənli əhalinin ölkəmizə mədəni və etnik inteqrasiyası olduqca vacibdir. Mərkəzi Asiyanın əhəmiyyətli dövlətlərindən biri olan Əfqanıstanda ölkəmizin geosiyasi maraqlarını qoruya biləcək böyük bir toplum məhz burada yaşayır. Etnik kimliklərini qoruyaraq özlərini azərbaycanlı hesab edən, Azərbaycana bağlı olduqlarını bu gün də dərk edən toplumu formalaşdırmaq, onların tarixi vətənləri ilə münasibətlərini inkişaf etdirmək olduqca vacibdir. Bunun üçün ilkin olaraq aşağıdakı təşəbbüslər məqsədəuyğundur: Əfqanıstanda yaşayan Azərbaycan kökənli əhalinin öz ana dilini yaxşı bilməsi üçün internet üzərindən onlayn dərslər təşkil etmək olar. Bu ölkədə azərbaycanlıların kompakt yaşadığı əyalətlərdə mədəni-maarif mərkəzləri və kitab evləri yaratmaq da önəmli olardı. Soydaşlarımızın Azərbaycan universitetlərində oxuması imkanları nəzərdən keçirilə bilər.

Bu ölkədəki azərbaycanlı iş adamlarının Azərbaycanla biznes-ticari fəaliyyətlərinin qurulması onların ölkəmizlə geniş əlaqələrinin qurulmasına yol aça bilər. Bundan başqa, Əfqanıstan azərbaycanlılarının turizm xətti ilə ölkəmizə davamlı gediş-gəlişini təşkil etmək də olar.

Bu və digər tədbirlərin həyata keçirilməsi Əfqanıstan azərbaycanlılarının dövlətimizə bağlılığını gücləndirməklə yanaşı, Avroasiya nəqliyyat dəhlizinin Əfqanıstandan keçən hissəsində (Laçivərd yolu) ölkəmizin geoiqtisadi maraqlarının təmin olunmasına imkan yaradardı. İkinci Qarabağ savaşından sonra Azərbaycan–Əfqanıstan əlaqələrinin inkişafı üçün geniş imkanlar yaranıb. Qarabağ müharibəsində Azərbaycanı dəstəkləyən əfqan dövləti və xalqı islam həmrəyliyinə sadiqliyini ortaya qoyub. Bu mövqenin nümayiş olunmasında Əfqanıstanda yaşayan türksoylu xalqların önəmli rolu olub.

Bu gün Əfqanıstanda Azərbaycana qarşı isti və səmimi bir münasibət hökm sürməkdədir. Onun dostları siyahısında Azərbaycan və Türkiyə ön cərgədədi. Zaman-zaman tarixi və mədəni əlaqələrimizi, bu ölkədə milyonlarla soydaşlarımızın yaşamasını nəzərə alaraq Azərbaycan–Əfqanıstan əlaqələrinin bünövrələrini genişləndirmək günün zəruri tələbidir.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

# Orta Dəhlizin gömrük postlarına “yaşıl işıq” yandırılır

**Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzərində yerləşən respublikamıza məxsus gömrük postları ilə bağlı yeni layihələr hazırlanıb başa çatdırıldıqdan sonra bütün gömrük-sərhəd buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması ilə bağlı işlərə başlanılacaq. Təbii ki, prioritet Orta Dəhliz üzərində yerləşən “Beynəlxalq Dəniz Ticarət Limanı” və “Qırmızı körpü” gömrük postları olacaq.**

Komitənin bütün gömrük-sərhəd buraxılış məntəqələrində tənzimləmə ilə bağlı standartları var. Hazırda bu standartlara uyğun şəkildə layihə hazırlanaraq müvafiq prosedurlardan keçirilir. Gömrük-sərhəd buraxılış məntəqələrində daha çox buraxılış imkanlarının olması və sahəvi tənzimlənmənin qurulması nəzərdə tutulur. Yeni layihələr də müasir beynəlxalq standartlara uyğun qurulur.

Beynəlxalq standartlarda təchizatla bağlı normaların olması da diqqətdə saxlanılır. Bunlar kompleks tədbirlərdir. Bütün bu işlər yekunlaşdıqdan sonra tikintinin həyata keçirilməsi nəzərdə tutulur. Artıq Xanoba gömrük-sərhəd buraxılış məntəqəsi fəaliyyət göstərir. Belə bir tendensiyanın digər sərhəd-buraxılış məntəqələrində də gerçəkləşdiriləcəyi planlaşdırılır. Bu layihələrin hazırlanması zamanı Orta Dəhliz üzərində yerləşən gömrük-sərhəd buraxılış məntəqələrinin yenidənqurma işləri prioritet hesab edilir.

Qeyd edək ki, Ələt qəsəbəsində yerləşən gömrük postunun infrastruktur imkanları kifayət qədər böyükdür. Amma buna baxmayaraq hazırlanan yeni layihələrdə bu infrastrukturun buraxılış qabiliyyətinin artırılmasına mühüm önəm verilir.

Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 14-də açılışı olmuş “Beynəlxalq Dəniz Ticarət Limanı”nın 1-ci mərhələdə yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteynerdir. Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat qovşaqlarının kəsişməsində yerləşən, yüksək texniki imkanlara malik, əməliyyatlar sahəsində nümunəvi rəqəmsal və “yaşıl” həllər tətbiq olunduğu limanın yükaşırma həcmi hər il artır. Eyni zamanda, dünyada formalaşan yeni reallıqlar fonunda tranzit ölkə kimi Azərbaycana böyük tələb formalaşır və bu amil də respublikamızın ən böyük dəniz qapısı, logistika mərkəzi olan Bakı Limanına cəlb edilən yükün həcminin sürətlə yüksəlməsini, nəticədə isə Ələt gömrük postunun infrastruktur imkanlarının artırılmasını şərtləndirir.

“Qırmızı körpü” gömrük-sərhəd buraxılış məntəqəsində müəyyən infrastruktur tədbirlərinin, layihələrin həyata keçiriləcəyi planlaşdırılır. Cənub–Astara gömrük postunun tikintisi ilə bağlı işlər də sürətlə icra olunur. Qırmızı Körpü sərhəd-buraxılış məntəqəsinin yaxınlığında yerləşən “İpək yolu” – “Abreşumis Qza” gömrük postu layihəsi ilə bağlı mütəmadi Gürcüstan tərəfi ilə görüşülür. Layihənin texnoloji cəhətdən işə düşməsi ilə bağlı müəyyən tələblər var. Buna görə də həm Gürcüstanın, həm Azərbaycanın gömrük orqanlarının eyni baxış altında tədbirlər həyata keçirəcəyi nəzərdə tutulur.

Zəngilan rayonu ərazisində yerləşən “Ağbənd” gömrük-keçid məntəqəsi ilə bağlı layihə isə aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir. Onu da deyək ki, işğaldan azad olunmuş ərazilərdə iki gömrük postu – “Qazançı” və “Eyvazlı” artıq fəaliyyət göstərir.

DGK-nın məlumatında bildirilir ki, ümumilikdə, bütün gömrük-sərhəd buraxılış məntəqələrinin tənzimlənməsi, beynəlxalq standartların tətbiq olunması, təchizatla bağlı normalara diqqət yetirilməsi nəzərdə tutulub. Məsələn, yük nəqliyyat vasitələri keçidinin əlverişli olması üçün “X-ray” aparatlarının quraşdırılma yeri, minik nəqliyyat vasitələri və avtobuslarla səfər edənlərin keçidinin daha səmərəli qaydada təmizlənməsinin həyata keçirilməsi planlaşdırılıb.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat dəhlizidir. Nəqliyyat marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, “vahid pəncərə” prinsipi tətbiq olunur.




Yeri gəlmişkən, dövlətimizin başçısının nəqliyyat-logistika sahəsinə böyük diqqətinin nəticəsidir ki, hazırda Azərbaycanın beynəlxalq yükdaşımalarda fəaliyyəti getdikcə genişlənir. Bu, müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat vasitələrinin sayının getdikcə artması, mövcud sahədə bazarın şəffaflaşması nəticəsində “kölgə”də işləyən daşıyıcıların qeydiyyata alınması, onların bəzilərinin fəaliyyətinin bərpa edilməsi, bəzilərinin isə daxili bazardan beynəlxalq bazara keçidinin reallaşması ilə bağlıdır. Bundan savayı, yükdaşımalarda qanunvericiliyin təkmilləşdirilməsi də daim diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ölkəmizin nəqliyyat üzrə gəlirləri 2024-cü ilin yanvar-aprel aylarında 4 milyard 184 milyon manat (keçən ilin müvafiq dövrü ilə müqayisədə 21 faiz çox) olub.

Cari ilin birinci rübündə Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi isə 7 milyon 980 min ton, yük dövriyyəsi isə 3 milyard 234 milyon ton-kilometr olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, daşınmış yüklərin həcmində əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,3 faiz və 9 faiz artım müşahidə edilib.

Qeyd edək ki, Şərq–Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 3 milyon 763 min ton, o cümlədən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə 1 milyon 967 min ton, Şimal–Cənub nəqliyyat dəhlizi ilə 2 milyon 432 min ton, Şimal–Qərb nəqliyyat dəhlizi ilə 1 milyon 699 min ton, Cənub–Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 86 min ton təşkil edib.

Yüklərin 3 milyon 607,4 min tonu və ya 45,2 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 527,5 min tonu və ya 31,7 faizi avtomobil nəqliyyatı, 1 milyon 845,7 min tonu və ya 23,1 faizi dəniz nəqliyyatı ilə daşınıb. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 60,2 faizini və ya 4 milyon 808 min tonunu tranzit yüklər təşkil edib.

Keçən il ərzində respublikamızın nəqliyyat vasitələri ilə ölkə ərazisindən tranzit daşımalarının həcmi 3,8 dəfə artaraq 36 min 387 ədəd təşkil edib. 2021-ci ildə bu nəqliyyat vasitələri ilə ölkə ərazisindən cəmi 9 min 551 ədəd tranzit daşımalar həyata keçirilmişdisə, 2022-ci ildə bu rəqəm 23 min 366-ya çatıb.

Beynəlxalq yük daşımalarından bəhs edərkən, onu da vurğulayaq ki, son illərdə Azərbaycan Orta Dəhlizin ən yüksək səviyyədə reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. Bakı–Tbilisi–Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də respublikada nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirib.

Hazırda yük daşımaların artmasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun fəaliyyəti daha çox diqqət çəkir. Bu marşrut Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.

Azərbaycan Orta Dəhlizin inkişafına daim önəm verib, bu istiqamətdə reallaşdırılan layihələrin gerçəkləşdirilməsini diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyev “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda aprelin 23-də keçirilən beynəlxalq forumda bu gün Orta Dəhlizə heç vaxt olmadığı qədər ehtiyac yarandığını, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: “Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Bəlkə də, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir”.

*Vaqif BAYRAMOV*
*XQ*

# Kənddə bolluq təntənəsi

## *Samuxda “Ərik” və “Aqrar biznes” festivalları keçirilib*

**Tədbir iştirakçıları əvvəlcə Samux şəhərində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər.**



Samux Şəhidləri Abidə Kompleksini ziyarət edən qonaqlar torpaqlarımızın azadlığı uğrunda canından keçən vətən oğullarını ehtiramla anıblar.

Daha sonra iştirakçılar Heydər Əliyev Mərkəzində Ulu öndərin həyat və fəaliyyətinə dair fotostendlərlə tanış olub, dahi şəxsiyyətin Samux rayonuna səfərləri və zəhmətkeşlərlə keçirdiyi görüşləri əks etdirən fotolara baxıblar.

Festival çərçivəsində qonaqlar Samux rayonunda fəaliyyət göstərən “Casa Aqro” MMC-nin təsərrüfat sahəsinə baxış keçirib, istehsal olunan məhsullarla tanış olublar.

Həmçinin Qarayeri qəsəbəsində mövcud olan Forer qardaşlarının şərab zavodunda olub, istehsal sahəsi ilə maraqlanıblar.

“Ərik Festivalı” və “Aqrar Biznes Festivalı” ilə əlaqədar olaraq Samux şəhərinin mərkəzi küçə və prospektləri, park və xiyabanlar bəzədilib, yerli sakinlərin və qonaqların iştirakı ilə bayram paradı təşkil olunub.

Samux şəhəri, Heydər Əliyev prospektində müasir dizaynda yeni salınan parkda təşkil olunan "Ərik Festivalı" və "Aqrar Biznes Festivalında" milli mətbəximizin təamları hazırlanıb, fermerlərin yetişdirdikləri ərik məhsullarının meyvəsi, mürəbbəsi və şirələrinin stendlərlə təqdimatı olub.

Sənətkarların və satıcıların stendləri, ustad dərslərinin təqdimatı, qol güləşi, uşaqlar tərəfindən milli rəqslər, məktəblilərin əriklə bağlı hazırladığı əl işləri, rəsmlər maraqla izlənilib.

“Aqrar Biznes Festivalı”nda kənd təsərrüfatı təyinatlı qurğu və avadanlıqlar, müasir yeni texnologiyalar sərgilənib, aqrar sahədə fəaliyyət göstərən texnika, gübrə, toxum və dərmanlar nümayiş olunub.

Festivalın keçirilməsində məqsəd fermerlərin yetişdirdiyi ərik növlərini nümayiş etdirmək, fermer və sahibkarlar arasında işgüzar əlaqələri genişləndirmək, eyni zamanda destinasiyanın aqroturizm potensialını canlandırmaq, ərik məhsulunun Samux rayonu üçün brendləşməsinə, rayonun sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərməkdir.

Açılış mərasimində çıxış edən Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev rayonda kənd təsərrüfatı sahəsinin inkişafı barədə tədbir iştirakçılarına məlumat verib. Bildirib ki, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafı istiqamətində gördüyü işlər, eyni zamanda kənd təsərrüfatı sahəsinə diqqət və qayğısı nəticəsində rayonlarda bağçılıq ildən-ilə inkişaf edir. Samux rayonunda təkcə ərik bağlarının sahəsi 500 hektardan çoxdur. Bu bağlarda 16 sort ərik yetişdirilir.

Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov bildirib ki, son dövrlərdə ölkəmizdə müxtəlif meyvələrə həsr olunmuş festivalların keçirilməsi ənənə halını alıb. Bu cür kütləvi tədbirlər kənd təsərrüfatı məhsullarına, xüsusilə də mövsümi meyvələrə marağı artırmaq baxımından əhəmiyyət daşıyır.

Qeyd edək ki, "Ərik Festivalı" və "Aqrar Biznes Festivalı"nın Samux rayonunda keçirilməsi təsadüfi deyil. Belə ki, Azərbaycanda Ordubad rayonundan sonra ən çox ərik yetişdirilən rayon Samuxdur.

Rəsmi hissədən sonra Samux rayonunda 15 İyun Milli Qurtuluş Gününə həsr olunmuş geniş bayram konserti təşkil olunub. Bayram konsertinə möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*
**Samux rayonu**

# Ölkəmizin beynəlxalq reytinq proqnozları nikbinlik doğurur

**Son illər Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər dünyanın aksər dövlətləri, eləcə də bir sıra beynəlxalq təşkilatlar tərəfindən bəyənilir. Təsadüfi deyil ki, hazırda tanınmış reytinq agentlikləri də ölkəmizin gələcək iqtisadi inkişafı ilə bağlı nikbin, ümidverici fikirlər səsləndirir, əvvəlki proqnozları mütəmadi olaraq yeniləyirlər.**

Nüfuzlu “S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin ölkəmizlə bağlı bir qədər əvvəl səsləndirdiyi fikirlər də bu baxımdan diqqət çəkir. Qurumun Azərbaycanın suveren kredit reytinqlərinin təsdiqi ilə bağlı hesabatına əsasən, 2024-cü ildə Azərbaycanda ümumi daxili məhsul (ÜDM) 2,5 faiz real artımla 129 milyard manat (76 milyard ABŞ dolları) təşkil edəcək.




“S&P Global Ratings” 2025-ci ildə nominal ÜDM-i 2 faiz real artımla 130 milyard manat (77 milyard ABŞ dolları), 2026-cı ildə 1,5 faiz real artımla 135 milyard manat (79 milyard ABŞ dolları), 2027-ci ildə isə 1,5 faiz real artımla 140 milyard manat (82 milyard ABŞ dolları) səviyyəsində proqnozlaşdırır. Qurumun proqnozuna əsasən, ölkəmizdə 2024-2025-ci illərdə adambaşına ÜDM-in 7,4 min ABŞ dolları (real artım müvafiq olaraq 1,5 faiz və 1 faiz), 2026-cı ildə 7,6 min ABŞ dolları (0,5 faiz), 2027-ci ildə isə 7,8 min ABŞ dolları (0,5 faiz) səviyyəsində olacağı gözlənilir.

Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-aprel aylarında Azərbaycanda 38 milyard 181,9 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,1 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 7,7 faiz artıb. İlin ilk 4 ayında əhalinin hər nəfərinə düşən ÜDM 3 min 748,1 manata bərabər olub.

Azərbaycan hökuməti cari ildə ÜDM-i 121,3 milyard manat, o cümlədən qeyri-neft gəlirlərini 84,7 milyard manat səviyyəsində proqnozlaşdırır. Xatırladaq ki, ötən il ölkədə ÜDM 1,1 faiz artaraq 123 milyard manat (72 milyard ABŞ dolları), adambaşına düşən gəlir isə 0,5 faiz artaraq 7,1 min ABŞ dolları təşkil edib.

Agentliyin reytinqlə bağlı ənənəvi açıqlamasında Azərbaycan iqtisadiyyatının neftdən asılılığı ilə bağlı məqam da yer alır. Yeni işə düşən qaz sektorunun nefti əvəz edib-edə bilməyəcəyi ilə bağlı təhlillər aparan mütəxəssislər Azərbaycan iqtisadiyyatının neftdən hələ də çox asılı olduğunu vurğulayırlar. Hazırda ölkəmizdə ÜDM-in, təqribən, 50 faizinin, ixracın isə 80 faizinin neft-qaz sektorunun payına düşdüyünü bildirən “S&P Global Ratings”in hesabatında Azərbaycanın neftin qiymətlərində baş verə biləcək potensial mənfi dəyişikliklərə qarşı çox həssas olduğu vurğulanır. Bununla bağlı 2015-ci ildə neftin kəskin ucuzlaşması nəticəsində büdcədə yaranan problemlər və manatın devalvasiyası xatırladılır.

Agentliyin açıqlamasında, həmçinin qeyd olunur ki, problem təkcə neftin qiymətində deyil, həm də həcminin azalmasındadır. Azərbaycanın neft yataqlarının köhnəlməsi nəticəsində hasilatın azalmaqda olduğunu bildirən hesabat müəllifləri yazırlar: “Son illər Azərbaycanın əsas neft yataqları sayılan və “Əsrin müqaviləsi”nin predmeti olan “Azəri–Çıraq–Günəşli” neft yataqları köhnəldikcə hasilat sabit şəkildə azalır. 2019-cu ildə ölkədə gündə 790 min barel neft hasil edildiyi halda, 2024-cü ildə bu rəqəm 650 min barelə enib. Nəticədə, iş o yerə çatıb ki, Azərbaycan OPEC+ tərəfindən ona ayrılan kvotadan da aşağı səviyyədə neft hasil edir. Neft hasilatı 2027-ci ilədək sutkada orta hesabla 0,65 milyon barel səviyyəsində qalacaq”. Bununla yanaşı, ölkədə qaz hasilatının artmaqda olduğunu vurğulayan agentlik bu sahədəki potensiala və əldə olunan uğulara da geniş yer ayırıb.

Azərbaycanda hökm sürən əlverişli biznes mühiti yerli və xarici investisiyaların qorunması və təşviqi üçün də əlverişli imkan yaradır. Təsadüfi deyil ki, nüfuzlu beynəlxalq qurumların müsbət hal kimi vurğuladıqları bu məqam hesabatlarda öz geniş əksini tapır. “S&P”nin proqnozuna görə, həm 2024-2025-ci illərdə Azərbaycanda real investisiya artımı 5 faiz təşkil edəcək (ÜDM-də payı müvafiq olaraq 18,7 faiz və 19,8 faiz). Xatırladaq ki, ötən il bu göstərici ÜDM-də payı 18,3 faiz olmaqla cəmi 6 faiz təşkil edib.

Son illər Prezident İlham Əliyev rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı sosial-iqtisadi islahatların, kompleks tədbirlərin nəticəsi olaraq davamlı şəkildə möhkəmlənən makroiqtisadi və maliyyə sabitliyi ölkənin xarici borcunun da azaldılmasına gətirib çıxarıb. Xarici dövlət borcunun azalmasında büdcə gəlirlərinin yüksək icrası da mühüm önəm daşıyıb. 2023-cü ildə dövlət büdcəsinin gəlirləri, təxminən, 35,6 milyard manata yüksəlib ki, bu da əvvəlki illə müqayisədə 4,9 milyard manat (16 faiz), xərcləri isə 36,5 milyard manat (99,5 faiz) səviyyəsində icra olunub. Bu isə 2022-ci illə müqayisədə 4,4 milyard manat (13,7 faiz) çoxdur.

Xarici dövlət borcunun davamlı azalmasında ölkə Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” da böyük əhəmiyyətə malikdir. Belə ki, sözügedən sənəddə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizini, o cümlədən xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulur.

Artıq bu istiqamətdə də həyata keçirilən tədbirlərin müsbət nəticələri hiss olunmadadır. Məsələn, S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin Azərbaycanın suveren kredit reytinqlərinin təsdiqi ilə bağlı hesabatında bildirilir ki, ölkəmizin xarici likvid aktivləri 2027-ci ilə qədər xarici borcu üstələyəcək və xalis beynəlxalq investisiya mövqeyi 2024-2027-ci illərdə ÜDM-in orta hesabla 68 faizini təşkil edəcək. Agentliyin analitikləri əminliklə bildirirlər ki, Azərbaycan potensial ticarət şərtləri dəyişkənliyinə həssas olsa da, onun böyük xalis xarici aktiv mövqeyi iqtisadi dövrlərin daxili iqtisadi inkişafa potensial mənfi təsirini azalda biləcək bufer rolunu oynayacaq. “Neftin qiyməti və hasilatı ilə bağlı proqnozlarımıza əsasən, biz Azərbaycanın cari əməliyyatlar hesabının profisitinin 2022-ci ildə rekord 30 faizdən sonra 2024-2027-ci illərdə ÜDM-in orta hesabla 7 faizini təşkil edəcəyini gözləyirik. Bu da son 10 ildən artıq müddətdə ən yüksək səviyyədir”, – deyə hesabatda qeyd olunur.

Azərbaycanda həyata keçirilən məqsədyönlü və çevik iqtisadi tədbirlər inflyasiyanın da arzuolunan həddə saxlanmasına imkan yaradır. Artıq ölkədə illik inflyasiya birrəqəmli göstərici ilə ifadə olunur. “S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin sözügedən hesabatında bu hal da müsbət məqam kimi vurğulanır. Agentlik ölkəmizdə orta illik inflyasiyanı 3 faiz səviyyəsində proqnozlaşdırır. Xatırladaq ki, qurumun cari il üçün aprel ayında elan etdiyi inflyasiya proqnozu 3,5 faiz təşkil edirdi.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Yeni tarixi mərhələdə multiregionalizm və milli ideya

**I MƏQALƏ**

Biz "yeni tarixi mərhələ" dedikdə Ulu öndərin 1993-cü ildə Azərbaycan dövləti üçün müəyyən etdiyi "ərazi bütövlüyünün bərpası" milli ideyasına nail olunduqdan sonra başlayan mərhələnin Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kriteriyalar daxilində xarakterizə edilməsini nəzərdə tuturuq. Bu kontekstdə yeni tarixi mərhələni biz faktiki olaraq "postmüharibə dövrü" kimi də qəbul edə bilərik. Həm yeni tarixi mərhələnin nəzəri-konseptual, fəlsəfi, siyasi-praktiki diplomatik xarakteristikalarının müəyyən edilməsinin, həm də postmüharibə dövrünün memarı şəksiz olaraq Azərbaycan Prezidentidir.

Bu ümumi tezisin prizmasında "multiregionalizm" və "milli ideya" anlayışlarına baxılır. Yəni hər iki anlayış ümumi fəlsəfi və ya politoloji aspektlərdə təhlil edilmir, postmüharibə mərhələsində Azərbaycanın yeni milli ideyası kontekstində xarici siyasətinin multiregionallıq istiqamətləri araşdırılır.

İlk olaraq bir suala aydınlıq gətirməyə ehtiyac vardır: xarici siyasətin multiregionallıq xüsusiyyəti ilə milli ideyanın hansı əlaqələri ola bilər?

## Multiregional dünya: reallıq, yoxsa ilğım?

Müasir politoloqlar "multiregional dünya" terminindən istifadə edirlər. Məsələn, amerikalı professor, dünyaca tanınmış, bir sıra regionlarda işləmiş (o cümlədən, Çində, Mərkəzi Asiyada, Türkiyədə, Koreyada, Yaponiyada, Sinqapurda və s.) Pyer Şabal və qazaxstanlı professor Jaras İbraşov həmin terminlərdən geniş istifadə edirlər. Hətta, P.Şabal etiraf edir ki, "multiregional dünya" anlayışını, o, J.İbraşevin "panasiya mərkəzçiliyi" anlayışnın genişləndirərək məzmunlaşdırmışdır. Bu zaman P.Şabal multiregional dünyanı öncəki qlobal dinamikadan fərqli məzmunda radikal milli, müstəmləkəçi, yüksələn xətt (vertikal) faktorlarının dəyişməsi kontekstində dərkini ifadə etmişdir. O, multiregional dünyanı öncəki qlobal bipolyar dinamikadan fərqli olan yeni fenomen kimi qəbul etdiyini deyir.

Belə çıxır ki, nəzəri olaraq multiregionallıq çox sayda faktorların – milli, siyasi, geosiyasi, təhlükəsizlik, sosial, iqtisadi, energetik, ideoloji və s. faktorların vertikal dəyişməsinin (yəni yeni daha zəngin məzmun səviyyəsinə transformasiyası) kompleks halında təzhürü kimi dərk edilir. Onda multiregionallıq yalnız geosiyasi və ya siyasi faktor deyildir. O, özündə çox sayda və müxtəlif xarakterli faktorların sintezini ehtiva edir. Onların sırasında müstəqil dövlətlərin daxili inkişaf xüsusiyyətlərindən qaynaqlanan amillər ayrıca yer tutur.

Məlumdur ki, müasir mərhələdə milli ideya faktiki olaraq müstəqil dövlətin və cəmiyyətin strateji təkamül özəlliyini ifadə edir. Onun inkişafını, fəaliyyətini istiqamətləndirir. Qarşıya qoyulan hədəfi özündə məzmunca ifadə edir və toplumsal miqyasda bütün daxili potensialı onun reallaşmasına yönəldir. Bura daxili və xarici siyasətin vəhdəti amili, onların reallaşma mexanizmləri və sosial-mədəni, mənəvi-psixoloji mühitin özəllikləri daxildir.

Bizcə, multiregional dünyanın formalaşması prosesinin bu cür qoyuluşu işığında onun milli ideya ilə sıx bağlılığı qətiyyən şübhə doğurmur. Və hətta həmin anlayış özündə xarici siyasətin multiregionalizm istiqaməti ilə milli ideyanın ölkənin strateji inkişaf hədəfini qarşılıqlı əlaqədə təhlil etməyə imkan yaradır. Bu ümumi tezisin prizmasında biz multiregional dünyanın formalaşması, Azərbaycanın xarici siyasətində multiregionalizm istiqaməti və milli ideya arasındakı münasibətləri təhlil edə bilərik.

## Multiregional dünya və regionlararası əməkdaşlıq

Multiregional dünya anlayışı müasir mərhələdə qlobal təkamülü "ümumregional" proses kimi ifadə etməyin konkret formalarından biridir. Multiregionallıq özündə iki geosiyasi özəlliyi birləşdirir. Birincisi, nəzərdə tutulur ki, dünya çoxmərkəzlidir. İkincisi, hesab edilir ki, bu özəllikdə regionlararası əlaqələr ciddi geosiyasi rol oynayır.

Bu anlamda multiregional dünyanın formalaşması prosesində dövlətlərin xarici siyasətinin regional və regionlararası aspekti avtomatik olaraq ön sıraya çıxır. Burada dövlətin müstəqilliyi, suverenliyi ilə güclü olması aspektlərinin sıx əlaqəsi də aktuallaşır. Çünki multiregional dünyada yalnız, sözün əsl mənasında, müstəqil, suveren və güclü olan dövlət rol oynaya bilər. Deməli, xarici siyasətdə elə bir "fəaliyyət diapazonu" və "təsir dairəsi şəbəkəsinin formalaşması" sahəsi mövcuddur ki, milli ideya ilə regionlararası əlaqələr bir-biri ilə məzmunca çulğalaşır. Daha dəqiq ifadə etsək, milli ideya müstəqil dövlətin regionlararası miqyasda uğurlu olmasını istiqamətləndirən və məzmunlaşdıran başlıca faktor rolunu oynayır.

Səbəbi onunla bağlıdır ki, milli ideyası dəqiq olmayan istənilən müstəqil dövlət regionlararası mühitin mürəkkəbliyi, ziddiyyətləri və çoxkomponentliyi şəraitində inkişaf istiqamətini itirir. Faktiki olaraq xarici təsirlərin altında qalır və gerçək rol oynaya bilmir. Milli ideyada konkret müəyyən edilən hədəf isə dövlətin maraqlarını qorumaqla regionlar arasında real bağlantıların formalaşmasına töhfə verir.

Belə çıxır ki, hər bir dövlətin multiregional dünyanın formalaşmasında rolu, onun regionlararası əməkdaşlıq modeli ilə müəyyən olunur. Dünya təcrübəsi göstərir ki, bu məqamda iki amil mühüm əhəmiyyət kəsb edir.

Birincisi, müstəqil dövlət yerləşdiyi regionu dünyanın mərkəzi kimi görür. Bu, hazırda perspektivsiz modeldir və köhnə yanaşma hesab olunur. Bu yolda Qərb, Asiyanın inkişaf etmiş ölkələri, Rusiya və digər böyük güclər artıq uğursuzluğa düçar olmuşlar. Onların səhvlərini təkrar etmək heç nə qazandıra bilməz. Məsələn, "Avropasentrizm", "Amerika dünyası", "Rusiya dünyası", "Çin dünyası" və s. təşəbbüslər gözlənilən nəticələri vermir



və hətta, müxtəlif xarakterli yeni ziddiyyətlər yaradır. Çünki onların hər birində təşəbbüskar özünü dünyanın mərkəzində görür, əsas nizamyaradıcı və inkişafetdirici faktor olaraq təsəvvür edir. Xüsusilə, mədəniyyət istiqamətində fərqli mədəni dəyərləri arxa planda görür (yəni dil üstünlüyünə, davranış, mənəvi-əxlaqi dəyərlərin hakimliyinə can atır). Əsas səhv bu zaman digər regionların eyni hüquqa və haqqa sahib olmasını qəbul etməməkdən qaynaqlanır.

İkincisi, regional gücün liderliyi ilə hər bir region qarşılıqlı münasibətlərdə bərabərhüquqlu faktor kimi iştirak edir. Onlar birgə polisentrik mühit yaradırlar. Regionlararası mühit vahid sistem və ya şəbəkə kimi formalaşır. Avrasiya məkanı üçün bu modelin bir sıra xüsusiyyətləri üzərində dayanmaq olar.

Burada ümumi Avropa və Asiya qitələri polisentrik dünyanın təşkiledici faktorları kimi çıxış edirlər. Onlar da öz növbəsində müxtəlif regional və regionlararası geosiyasi konfiqurasiyaların sistemindən ibarət məkan kimi təsəvvür edilə bilər. Hazırda Avrasiyada bu aspektdə bir neçə regional və regionlararası təşkilatlar mövcuddur. Məsələn, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT). BRİKS (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası), Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatı (AİƏT), MDB, Türk Dövlətləri Təşkilatı (TDT) və digərləri bu qəbildəndir. Bu kimi təşkilatların artması multiregionallıq prosesini ierarxik (pilləvari) edir. Ümumi səviyyədə isə "poliregionalmərkəzli dünya" yaranmasına doğru aparır.

Müasir mərhələ üçün xarakterik olan bir məqamı da vurğulamaq lazımdır. Məsələ onunla bağlıdır ki, hər bir regional əməkdaşlıq modeli və regionlararası əməkdaşlıq formasına daha ümumi olan Avropadan Asiyaya və Asiyadan Avropaya yayılan təşkilatlanma nümunələri təsir edir. Məsələn, Çindən "Bir kəmər, bir yol" modeli, Avropadan Aİ, NATO, ATƏT və başqaları hər regional təşkilata öz təsirlərini göstərirlər. Deməli, faktiki olaraq "ikiqat münasibətlər mühiti" yaranır – konkret regionlararası və ümumi Avrasiya miqyasından təsir edən proseslər! Müasir mərhələdə real olaraq geosiyasi mühit bu pilləvari xarakterli təsirlərin kəsişməsində formalaşır. Hər bir regional və regionlararası modelə də məhz həmin kontekstdə baxmaq lazım gəlir.

Vurğulanan fikirlərin işığında Azərbaycanın postmüharibə dövründə regional və regionlararası miqyaslarda multiregionallıq faktoruna milli ideya bağlılığında verdiyi məzmun aktual və maraqlı görünür. Onun üzərində geniş dayanaq.

## Azərbaycan multiregionalizmi

Azərbaycanın siyasətində yer almış multiregionalizmin öz məzmunu vardır. Postmüharibə dövründə onun əsas müəyyənedici faktoru milli ideyanın ərazi bütövlüyünün təmini kimi reallaşmasının nəticəsi olaraq tarixi ədalətin bərpası, milli qürur və beynəlxalq hüququn təmininin qarşılıqlı əlaqəsindən ibarətdir. Ərazi bütövlüyünün bərpası ilə yanaşı, suverenliyin tam təmin edilməsi yeni tarixi mərhələdə xarici siyasətdə multiregionalizmin mahiyyət və məzmununu təşkil edir.

Araşdırma göstərir ki, Azərbaycan diplomatiyası multiregionalizmin məzmununu iki səviyyədə müəyyən etmişdir. Birinci səviyyə multiregionalizmin alt qatını təşkil edən regional liderliyin daha da gücləndirilməsidir. Onun həyata keçmə istiqaməti isə milli ideyanın ilkin mərhələdə reallaşmasının nəticələri əsasında konkretləşir. Yəni tarixi ədalət, milli qürur və beynəlxalq hüququn sintezi yeni mərhələdə multiregionalizmin struktur və funksional özəlliklərinin bazasını yaradırlar. Onun siyasi-diplomatik təzahürləri multiregionalizmdə vurğulanan dəyərlərin regional miqyasdan regionlararası miqyasa transformasiyasından ibarətdir. Bu o deməkdir ki, Azərbaycan yeni tarixi mərhələdə multiregional əlaqələri regional təşkilatlanmada tarixi ədalətin, milli qürurun və beynəlxalq hüququn təminini əsas təşkiledici prinsiplər kimi rəhbər tutaraq formalaşdırmağa çalışır. Konkret ifadə etsək, belə alınır ki, regional miqyasda təsdiqini tapmış ədalətliliyi, milli qüruru və hüququ Azərbaycan regionlararası mühitə proyeksiya etməyi planlaşdırır. Bu proses özlüyündə milli ideyanın ilkin mərhələsinin əsas nəticələrinin postmüharibə dövründə milli ideyanın məzmununun müəyyən edilməsində rol oynaması deməkdir. Yəni dəqiq olaraq, ənənə saxlanılır, milli ideya daxili məntiqi bağlılıq əsasında yeni mərhələ üçün formalaşır.

Bununla postmüharibə mərhələsində Azərbaycanın milli ideyasının çox mühüm bir özəlliyi aydın olur. Həmin özəllik belədir: Azərbaycan postmüharibə mərhələsində milli ideyasını güclü regional liderlikdən regionlararası geosiyasi mühitin aktiv oyunçusu statusuna yüksəlmiş yeni güc kimi müəyyən etməlidir.

Güclü regional liderlikdən regionlararası geosiyasətin güclü oyunçusu olmağa keçid müstəqil dövlətçilik baxımından ciddi keyfiyyət transformasiyasıdır. Bu keçidin istiqamətverici, müəyyənedici və strateji məqsədini formalaşdırıcı faktoru isə milli ideyadır. Obrazlı ifadə etsək, Azərbaycan multiregionallığı özündə postmüharibə mərhələsinin milli ideyasını "daşıyır". Bu özəllik Azərbaycan multiregionallığının məqsədyönlü və müstəqil dövlətçiliyin inkişafı kontekstində formalaşdığını təsdiq edir. Buradan isə multiregionallıq – milli ideya əlaqələri aspektində maraqlı siyasi-nəzəri qənaətlər alınır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Büdcəyə əlavələr strateji sahələri əhatə edir

**Mili Məclisin iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanununda dəyişikliklərdə əsas məqsəd əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, həmçinin digər zəruri sahələrin inkişafıdır. Bununla bağlı Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev fikirlərini qəzetimizlə bölüşdü:**



– Uzun illər torpaqları işğal altında olan və müharibədən yenicə çıxan bir dövlətin büdcəsində hər il artımın olması insanların sosial rifahının yüksəldilməsinə, ölkənin müdafiə və milli təhlükəsizliyinin təmin olunmasına, işğaldan azad olunmuş ərazilərin bərpasına daha çox maliyyə vəsaitinin ayrılması qürurvericidir. Bu, dayanıqlı və davamlı iqtisadi inkişafdan, düzgün maliyyə və vergi siyasəti aparılmasından xəbər verir. 2023 - cü ilin dövlət büdcəsinin icrası bu baxımdan xarakterikdir. 2024-cü ilin yanvar – aprel aylarında Azərbaycanının dövlət büdcəsinin gəlirləri 13 milyard 259,4 milyon manat, xərcləri isə 10 milyard 749,5 milyon manat təşkil edib ki, bu artım ali maliyyə sənədində dəyişikliklərin edilməsini zərurətə çevirmişdi.

**– Tahir müəllim, dövlət büdcəsinə əlavə gəlirlərin hansı sahələrə yönəldilməsi nəzərdə tutulub?**

– Büdcəyə əlavələr əhalinin sosial müdafiəsini daha da gücləndirəcək. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma, tikinti-bərpa işləri geniş vüsət alacaq. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə tikinti, bərpa və yenidənqurma işlərinə, avtomobil yolu, elektrik enerjisi, su təchizatı və digər layihələrin həyata keçirilməsi üçün verdiyi tapşırıqlar, həyata keçirdiyi tədbirlər vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilir və bu, keçmiş köçkün soydaşlarımızın tez bir zamanda öz ata-baba yurdlarına qayıtmasına şərait yaratdı. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, abadlıq-quruculuq işlərinin sürətləndirilməsi iqtisadiyyatımızın yüksəlişinə yeni imkanlar açacaq, aqrar sektorun, turizmin inkişafını təmin edəcək. Bunun üçün əlavə maliyyə vəsaitinin ayrılması günün tələbidir. "Böyük Qayıdış"ın tezləşməsinə, insanlar üçün normal həyat şəraitinin yaradılmasına, ərazilərin abadlaşdırılmasına zəmanətdir. Bu məqsədlə 1 milyard 160 milyon manat vəsaitin ayrılması qəbulediləndir.

**– Büdcəyə artımdan ölkəmizin müdafiə və milli təhlükəsizliyinin təmin olunmasına nə qədət vəsaitin ayrılması nəzərdə tutulub?**

– Dünyada və regionda mövcud olan geosiyasi və hərbi vəziyyət ölkənin müdafiə qüdrətinin möhkəmləndirilməsini, milli təhlükəsizliyinin təmin edilməsini əsas vəzifə kimi qarşıya qoyur. Son 3 ildə hərbi–müdafiə infrastrukturunun müasirləşdirilməsi, hərbi quruculuq tədbirlərinin genişləndirilməsi, sərhədlərimizin möhkəmləndirilməsi və yeni layihənin həyata keçirilməsi əlavə vəsait tələb olunur. Dövlət büdcəsindən bu sahəyə əlavə 807 milyon manat vəsaitin ayrılmasının nəzərdə tutulması təqdirəlayiqdir.

**– Dövlət Sosial Müdafiə Fondunun da xərclərinin artırılması vacib məsələlərdəndir.**

– Hər il dövlət büdcəsi qəbul ediləndə onun sosialyönümlü olması diqqəti cəlb edir. Bu il də elədir. Büdcədə gəlir və xərclərin 3 milyard manatdan çox artırılması, sözsüz, əhalinin sosial təminatının yaxşılaşdırılmasına yönəldilir. Dövlət Sosial Müdafiə Fondunun xərclərinin 30 milyon manat artırılması bunun nümunəsidir. Büdcə artımının vacib uc prioritet xətt üzrə istiqamətləndirilməsi digər sahələrin unudulması demək deyil. Dövlətin aydın proqramları var və büdcə gəlirlərində bütün sahələr nəzərə alınıb. Müasir dövr Azərbaycanın dünyada artan nüfuzunu, beynəlxalq fəaliyyətini genişləndirməyi tələb edir və bu sahəyə əlavə vəsaitin ayrılması başa düşüləndir. Vergi və gömrük orqanları xətti ilə qeyri-neft sektoru üzrə daxilolmaların həcminin ildən-ilə artması yaxşı haldır və bu sahədə çalışanların uğuru kimi dəyərləndirilməlidir. Yeni dövr, yeni reallıqlar qarşıya yeni tələblər, yeni vəzifələr qoyur. Seçildiyimiz regionların əhalisinin tələbləri də yaddan çıxmayıb, gündəmdədir. Ancaq yeni dövr daha vacib olan məsələləri gündəmə gətirməyi və həll etməyi tələb edir. Bu tələblər isə 2024-cü ilin dəqiqləşdirilmiş dövlət büdcəsi zərfində aydın əks olunmuşdur və reallıqların nümunəsidir.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Sosial xəbərlər

## İsmayıllıda "DOST evi"nə qəbul davam edir

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST evi" filialında (İsmayıllı) əlilliyi olan və digər həssas qruplara aid 30-dək şəxs təlimlər vasitəsilə yaradıcılıq bacarıqlarını inkişaf etdirir.



Müəssisədə bölgədə yaşayan əlillər, şəhid ailələrinin üzvləri və digər həssas qrupların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək işləri aparılır. Benefisiarlar dulusçuluq, bədii oyma, dərzilik, xalçaçılıq, un məmulatları emalatxanalarında həmin istiqamətlərdə bacarıqlarını, peşə vərdişlərini təkmilləşdirirlər. Filialda 10 təlim istiqaməti üzrə 6 emalatxana fəaliyyət göstərir.

Mərkəzə benefisiarların seçimini qiymətləndirmə komissiyası aparır və hazırda "DOST evi"nə qəbul prosesi davam edir. Təlimçilər və digər işçilər də əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri və digər həssas qruplar arasından seçilir.

## Sumqayıtda 350 paralimpiyaçı təlim-məşq keçib

Sosial Xidmətlər Agentliyinin Sumqayırdakı Paralimpiya İdman Kompleksində bu kateqoriyadan olan şəxslərin idman bacarıqlarının artırılmasına, müxtəlif yarışlara hazırlaşmalarına, uğur qazanmalarına, cəmiyyətə inteqrasiyasına dəstək işləri aparılır.




Kompleksdə bu il 350-dək əlil şəxsə xidmət göstərilib. Burada əlillər üçün paracüdo, parapauerliftinq, paraüzgüçülük, kamandan oxatma, güllə atıcılığı, tennis, boccia və digər paralimpiya idman növləri üzrə təlim-məşqlər keçirilir.

Müəssisədə təlim-məşq toplanışları, yarışlara hazırlıq üçün zəruri şərait yaradılıb. Məşqlər Azərbaycan Milli Paralimpiya Komitəsi ilə birgə əməkdaşlıq çərçivəsində təşkil edilir. Hazırda burada 200-dən çox əlil xidmətlərdən faydalanır.

## Naxçıvanda proaktiv ödəniş

Ötən ildən Naxçıvan Muxtar Respublikasında sosial ödənişlərin proaktiv təyinatı həyata keçirilir. Artıq 11 min 300 pensiya, müavinət və təqaüd təyinatı e-sistem üzərindən ödənilib.

Bölgədə artıq e-sosial.az portalı üzərindən pensiya barədə məlumat almaq, e-arayışlar əldə etmək və digər e-xidmətlərdən istifadə imkanları yaradılıb. "Ünvanlı yardım" e-sistemi yenidən qurulub və sosial yardım üçün müraciət proseduru təkmilləşdirilib. Artıq ünvanlı yardım üçün "Ərizə-bəyannamə"də bir çox məlumatlar müvafiq qurumların informasiya sistemlərindən əldə edilir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Qədim türk yurdunun muxtariyyət statusu

**Son yüzillikdə Azərbaycan tarixinin ən önəmli hadisələrindən biri ötən əsrin 20-ci illərində imperialist dairələrin tarixi torpaqlarımızı hərraca qoymaq cəhdlərinin meydan suladığı günlərdə qədim türk yurdu Naxçıvanın ərazi muxtariyyəti statusu ilə ölkəmizin tərkibində mövcudluğunu qoruyub saxlaması olmuşdur.**

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında oynadığı yüksək rolu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixdə Sərəncam imzalamışdır. Sərəncamda deyilir: “Naxçıvan diyarı Azərbaycanın çoxəsirlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəylər – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir”.

XX əsrin əvvəllərində Cənubi Qafqazda baş vermiş ictimai-siyasi və hərbi hadisələrin nəticəsində üç müstəqil respublika yarandı. Batum sülh metr ərazisi olan Ararat (Ermənistan) Respublikası təşkil olundu. Lakin erməni daşnakları bu ərazi ilə kifayətlənməyib Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməyə başladı. Onların ərazi iddialarında Naxçıvan diyarı da var idi. 1918 – 1920-ci illərdə ermənilər Naxçıvana mütəmadi olaraq basqınlar edir, şəhər və kəndləri dağıdır, yerli azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirirdi. Bu sahədə böyük dövlətlər onlara hər cür yardım göstərirdilər.

Gümrü müqaviləsinə görə, Naxçıvan ərazisini Türkiyə dövləti öz himayəsinə götürmüşdü və Kazım Qarabəkir paşanın başçılığı ilə buraya türk hərbi hissələri gəlmişdi. Həmin hissələr naxçıvanlılar ilə birgə ərazinin erməni işğallarından qoruyurdu.

Ötən əsrin 20-ci illərinin əvvəllərində Rusiya Sosialist Federativ Sovet Respublikası hökuməti və Türkiyə Böyük Millət Məclisi arasında mehriban münasibətlər yarandı və bu geosiyasi şərait Moskva müqaviləsi ilə nəticələndi. Moskva müqaviləsinin üçüncü maddəsi bilavasitə Naxçıvanla bağlı idi. Bu maddənin şərtinə görə Azərbaycanın protektoratı altında Naxçıvana muxtariyyət statusu verildi və Azərbaycan SSR onu üçüncü dövlətə verməməlidir. Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında Qars müqaviləsi bağlandı və həmin müqavilənin beşinci maddəsinə görə Türkiyə, Azərbaycan və Ermənistan Naxçıvan vilayətinin Azərbaycanın tərkibində muxtariyyət statusunda olmasını qəbul etdilər. Hər iki müqavilə ilə Naxçıvan vilayətinin ərazisi və sərhədləri də dəqiqləşdirildi.

Naxçıvan vilayəti muxtariyyət statusu əldə etsə də, muxtar respublikanın yaranması xeyli vaxt çəkdi. Müqayisə üçün bildiririk ki, Moskva müqaviləsinə görə Acarıstana da muxtariyyət statusu



verilmişdi və 1921-ci ilin iyununda Acarıstan Muxtar Respublikası yaradıldı. Əksinə, 1923-cü ilin fevralında Naxçıvanın muxtar respublika statusu muxtar diyarla əvəz edildi. Lakin bu beynəlxalq müqavilələrə zidd idi. Ona görə də Türkiyə hökuməti buna etirazını bildirdi. Nəticədə, RK(b)P MK Siyasi Bürosunun 1923-cü il 23 avqust qərarı ilə Naxçıvan Muxtar Respublika statusunun bərpa edilməsi haqqında qərar qəbul edildi. Buna müvafiq olaraq Naxçıvan MİK 1924-cü il yanvarın 18-də Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul etdi. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR yaradıldı.

Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu və onun siyasi-hüquqi xarakteri digər muxtariyyətlərdən fərqlənirdi. Naxçıvan muxtariyyətinin siyasi səlahiyyətlərə malik olması, milli və beynəlxalq müqavilələrlə rəsmiləşdirilməsi, parlamentə malik olması ilə fərqlənir. Muxtariyyətlər əsasən milli-etnik amilə əsasən yaradılır. Bu amil Naxçıvana aid deyil, Naxçıvanın muxtariyyəti işğal təhlükəsinə yol verməmək üçün beynəlxalq müqavilələr və xarici dövlətlərin razılığı ilə yaradılıb.

Naxçıvanın statusu Azərbaycan SSR-in Konstitusiyalarında öz əksini tapmışdır. Naxçıvanın muxtariyyəti Azərbaycanın unitar dövlət quruluşuna xələl gətirmir.

## Muxtariyyətin hüquqi statusu

Naxçıvanın muxtariyyəti tarixi zərurətdən irəli gəlib. Belə ki, 1918–1920-ci illərdə bölgədə çox mürəkkəb tarixi şəraitin yaranması, Zəngəzurun qərb hissəsinin itirilməsi nəticəsində Naxçıvan ərazisinin Azərbaycandan ayrı düşməsi uzun illərdən bəri xarici havadarlarının köməyi ilə bu diyara sahib olmağı arzulayan erməniləri cəsarətləndirdi. Lakin Naxçıvanı Ermənistana birləşdirmək cəhdi yerli əhalinin kəskin etirazı ilə qarşılaşdı. 1921-ci ilin yanvarında Naxçıvanda onun Azərbaycan SSR tərkibində olması barədə referendum keçirildi, rəy sorğusunun nəticəsində əhalinin 90 faizindən çoxu



Naxçıvan diyarının muxtar respublika hüququnda Azərbaycan SSR-in tərkibində qalmasına tərəfdar çıxdı.

Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət kimi siyasi-hüquqi statusu öz xarakterinə görə Avropa ölkələrinin tərkibindəki digər tanınmış muxtariyyətlərdən fərqlənir. Məsələ burasındadır ki, Naxçıvan öz statusunu Cənubi Qafqaz regionunun bir neçə ölkəsinin beynəlxalq hüquqi razılaşmaları nəticəsində əldə etmişdir. Həm Naxçıvan, həm də Acarıstan beynəlxalq müqavilələrlə muxtar ərazi statusuna malik olmaq hüququ qazanmışdır. Buna qədər və bundan sonra da dünya təcrübəsində muxtariyyətlər xarakterinə görə müxtəlif formalarda olmuşdur: milli-mədəni muxtariyyət, siyasi-ərazi muxtariyyəti, muxtar respublika, muxtar vilayət, muxtar diyar, muxtar dairə, muxtar mahal və b.

Hətta eyni xarakterli muxtariyyətlər arasında da müxtəlif fərqlər mövcuddur. Gürcüstanın Acarıstan Muxtar Respublikası və Finlandiyanın Aland adaları beynəlxalq müqavilə ilə yaradılsa da, Naxçıvan Muxtar Respublikasının statusu, buradakı muxtariyyətin siyasi statusu qeyd olunan hər iki muxtar qurumdan fərqlidir. Acarıstanın siyasi səlahiyyətləri məhduddur və daha çox inzibati-iqtisadi səlahiyyətlərə aiddir. Millətlər liqası tərəfindən yaradılan Aland adalarındakı muxtariyyət isə dövlət statusuna malik deyil.

Naxçıvanın muxtariyyəti aşağıdakı əlamətlərə görə seçilir:

– Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi;

– bu statusun dəyişdirilməsinin müqaviləni imzalayan dövlətlərin razılığı ilə ola bilməsi;

– muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsinin konstitusion səviyyədə əksini tapması;

– Naxçıvan muxtariyyətinin daxili qanunvericilik, sərbəst büdcə siyasəti sahəsində, mərkəzi hakimiyyətlə əlaqələr mexanizminin istər siyasi, istərsə də hüquqi cəhətdən heç yerdə təkrarlanmaması;

– prezidentlik üsul-idarəsi olan dövlətin tərkibində parlamentli respublikanın mövcud olması və s.

Beləliklə, bir daha aydın olur ki, Naxçıvan Muxtar Respublikası eksklav xarakterli muxtariyyət modelidir. Bütün siyasi muxtariyyətlərin meydana gəlməsi üçün başlıca amil olan milli-etnik amil dünya təcrübəsində yeganə olaraq Naxçıvan muxtariyyətində tam istisnadır. Hazırda dünyada müxtəlif səbəblərdən yaranmış 283 anklav ərazi mövcuddur. Dünya təcrübəsində bu tip ərazi quruluşlarının yaranması tarixi, siyasi və coğrafi səbəblərlə əlaqədardır. Naxçıvan eksklavının yaranması daha çox siyasi-tarixi proseslərin nəticəsidir.

Naxçıvanın muxtariyyəti, daha dəqiq desək, Azərbaycanın tərkibində beynəlxalq-hüquqi tanınması və onun xüsusi siyasi-hüquqi statusunun təmin edilməsi ermənilərlə azərbaycanlılar arasında etnosiyasi münaqişə nəticəsində yaradılmışdır. Bu münaqişə faktı və region ölkələrinin Birinci Dünya müharibəsindən sonra onun lokallaşdırılması və minimallaşdırılması istiqamətində səyləri daxili siyasi yox, daha çox xarici siyasi mənşəyə malik olan Naxçıvan muxtariyyətinin unikal xarakterini müəyyən etmişdir. Demək olar ki, 1920-ci ilin əvvəllərində konkret tarixi şəraitdə Naxçıvanın muxtariyyəti bir etnosun milli-siyasi hüquq və mənafelərinin digər birinin təcavüzü şəraitində və hər iki ölkənin dövlətçiliyinin əldə edilməsi ərəfəsində öz dövrü üçün orijinal beynəlxalq hüquqi qorunma forması oldu.

1921-ci ildə Naxçıvan muxtariyyəti başqa bir dövlətin tərkibində ilk dövlət ərazi subyekti olmuşdur ki, onun siyasi-hüquqi statusu, yurisdiksiyasına verilmiş metropoliya dövlətinin bilavasitə iştirakı ilə xaricdən müəyyən edilmişdir. Şübhəsiz ki, bundan əvvəl də bəşəriyyət tarixində xarici dövlətlər növbəti silahlı qarşıdurmanın nəticələrinə əsaslanaraq beynəlxalq müqavilələr vasitəsilə məğlub olan ölkənin müəyyən bir hissəsinin hüquqi statusunu kollektiv şəkildə müəyyənləşdirdikləri nümunələri olmuşdur.

Naxçıvanın muxtariyyəti məsələsində isə vəziyyət tam əksinə idi. Burada muxtariyyətləşmə siyasəti Azərbaycan etnosunun siyasi, mədəni, dini birliyini onun üçün kifayət qədər mürəkkəb, konkret tarixi, milli dövlətçilik şəraitində qoruyub saxlamaq məqsədi daşıyırdı. Naxçıvanda muxtariyyətin yaradılması nəinki Azərbaycan xalqının bir hissəsinin siyasi müqəddəratını təyin etməsini, hətta etnik-dini əlamətə görə ona qarşı edilən təqiblər şəraitində yaşamasını təmin etdi. Naxçıvanın muxtariyyət tarixi yeni dövrün siyasi-hüquqi tarixində bir nümunə oldu.

Müəyyən ərazinin dövlət-siyasi cəhətdən gərginləşməsi yalnız separatçı deyil, həm də tamamilə yunionist, inteqrasiya məqsədləri güdə bilər. Etnosun milli birliyinin qorunub saxlanılması ideallarına bu xalqın öz müqəddəratını təyin etməsinin siyasi formalarının və praktiki ifadə üsullarının müxtəlifliyi ilə xidmət edə bilər. 1921-ci il Moskva və Qars müqavilələri yalnız beynəlxalq hüquqi sənədlər şəklində azərbaycanlıların millət kimi öz müqəddəratını təyin etdi, hətta bir etnos nümayəndələrinin formalaşdırdığı iki dövlət subyektinin paralel birgə mövcudluğu formasında oldu.

## Moskva və Qars müqavilələrinin təhlili

Naxçıvanın hüquqi statusu Rusiya Sosialist Federativ Sovet Respublikası hökuməti və Türkiyə Böyük Millət Məclisi hökuməti arasında bağlanmış 16 mart 1921-ci il tarixli Moskva müqaviləsinin III maddəsi və I (C) əlavəsi ilə tənzimlənmişdir. Müqavilə mətninə birləşdirilən əlavənin məzmununda Naxçıvan dairəsinin (müqavilənin rus dilində olan variantında belə adlanır – İ.H.) sərhəddinin Ermənistan istiqamətinə müəyyənləşdirilməsi qeyd edilən müqavilənin ikinci abzastını konkretləşdirdi. Moskva müqaviləsində Naxçıvanla bağlı üç prinsipial məqam öz əksini göstərir.

**Birincisi,** RSFSR hökuməti və TBMM hökuməti “razılaşırlar”, yəni de-yure Azərbaycanın protektoratı altında muxtar ərazinin Naxçıvan ətrafında de-faktonun obyektiv mövcudluğunu etiraf edirlər. Başqa sözlə, hər iki tərəf yalnız Moskva müqaviləsinin bağlanması zamanı obyektiv olaraq mövcud olan tarixi həqiqəti beynəlxalq normativ aktın normativ müddəası şəklində qanuniləşdirirlər.

**İkincisi,** nə RSFSR hökuməti, nə də TBMM hökuməti, perspektivin və hətta Naxçıvan muxtariyyətinin gerçəkliyinin nə olacağına dair dəqiq bir mövqeyə malik deyildilər.

Moskva müqaviləsinin bu məsələ ilə bağlı tərəflərinin qeyri-müəyyənliyi daha yaxşı səciyyələndirir: belə ki, müqavilənin III abzastında Naxçıvan muxtariyyətinin inzibati yurisdiksiyasının coğrafi arealı “Naxçıvan dairəsi” kimi, ikinci abzastında isə “Naxçıvan ərazisi”, I (C) əlavəsində isə “Naxçıvanın ərazisi” kimi müəyyən edilir. Yaxşı məlumdur ki, Moskva konfransının işçi dili Fransız dili idi, hər bir sözün mənasını dəqiqliklə və birmənalı şəkildə işlədilməsi vacib idi.

Definsiyaların bu cür uyğunsuzluğu bolşeviklərin və kamalçıların mövqelərinin kompromis kimi və ya vəziyyətin




ümumi qeyri-müəyyənliyi nəticəsində, yaxud da tərəflərin qarşılıqlı olaraq Naxçıvan muxtariyyətinin hüquqi statusu məsələsində mövqeyini dəqiq konkretləşdirmək istəməməsinin nəticəsi kimi meydana çıxmışdır. Müqavilənin müddəalarına əsasən, Naxçıvan muxtariyyəti Azərbaycanın protektoratı altında yerləşən suveren ərazi kimi tanınırdı və öz növbəsində üçüncü tərəfin xeyrinə olan bu beynəlxalq-hüquqi öhdəlikdən imtina edə bilməzdi.

**Üçüncüsü,** Moskva müqaviləsinin III maddəsinin II bəndinə əsasən Sovet Rusiyası özü “Naxçıvan bölgəsi” ilə Ermənistan arasındakı sərhədi müəyyənləşdirmək və sonrakı demarkasiya işində iştirak etməkdən çəkildi. Moskva razılaşmasının tərəfləri, Naxçıvan muxtariyyəti Moskva müqaviləsi ilə qanuniləşdirilən Naxçıvan muxtariyyətinin ərazi ayrılması və sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı bütün məsələlərin Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət üçtərəfli komissiya tərəfindən həll edilməsinə dair razılığa gəldilər. Rusların bu prosesə “müdaxiləsi” sırf texniki xarakter daşıyırdı. Komissiyanın üzvləri tərəfindən sərhəd direktrisasının təyin edilməsi Rusiya Baş Qərargahının xəritəsində 1/210000-bir düymdə - 5 verst boyunca aparılmalı idi.

Qeyd olunan 3 tarixi-hüquqi aspekt tələb edir ki, bəzi suallara da cavab verilsin.

İlk növbədə, Moskva müqaviləsinin mətnində o dövr Azərbaycanın dövlət hüquqi adının qeyri-müəyyənliyi ilə bağlıdır. O, 1920-ci il aprelin 28-də elan edilmiş Azərbaycan Sosialist Sovet Respublikasının artıq mövcud olduğu dövr, 16 mart 1921-ci ildə səlahiyyətli şəxslər tərəfindən imzalanmışdır. Lakin müqavilənin III maddəsində “ASSR” deyil, “Azərbaycan” termindən istifadə olunur.

Həmin dövrdə “Naxçıvan bölgəsi” anlayışı 1921-ci ilin yazında türk qoşunlarının nəzarətində olan Naxçıvan, Şərur–Dərələyəz və İrəvan mahalının bir hissəsində yerləşən ərazini adlandırmaq üçün Azərbaycan diplomatiyası tərəfindən istifadə edilmişdir. Naxçıvan muxtariyyətinin siyasi-hüquqi vəziyyəti Qars müqaviləsinin V maddəsində də ifadə olunur. Bu maddənin mahiyyəti ondan ibarət idi ki, Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələri “razılıq verirlər ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etsin”.

Hər iki müqavilənin sənəd mətninin müqayisəli təhlili müəyyən fərqi ortaya çıxarır. Moskva müqaviləsində söhbət “Naxçıvan dairəsi” və ya “Naxçıvan ərazisi”, Qars müqaviləsində isə artıq müəyyən edilmiş “Naxçıvan vilayəti”ndən gedir. İki müqavilənin ikinci mühüm mətn fərqi Naxçıvan ilə Azərbaycan arasında münasibətlərin hüquqi definasiyasına aiddir: Moskva müqaviləsində Azərbaycanın Naxçıvan üzərində protektoratı, Qars müqaviləsində isə himayəçiliyi haqqında danışılır. Fikrimizcə, bəhs olunan məsələ kontekstində Moskva və Qars müqavilələrinin məzmununun əsas fərqi məhz bundadır.

Moskva müqaviləsinin mətnində Azərbaycanın və Naxçıvan muxtariyyətinin tabeliyini göstərmək üçün istifadə edilən “protektorat” termini beynəlxalq hüquq mövqeyindən neytral və daha az müəyyən edilmiş “himayə” termini ilə əvəz edilmişdir. Moskva konfransında TBMM hökumətinin nümayəndə heyəti Türkiyənin Naxçıvanı qorumasını elan etmiş, Qars müqaviləsinin mətninə bu ifadə daxil edilmişdir. “Protektorat” hüquqi termininin “himayə” anlayışı ilə əvəz edilməsi, onun “heç bir üçüncü dövlətə” güzəşt edilməməsi haqqında istisnaya səbəb oldu. Qars müqaviləsinin bu cür ifadəsini qəbul edən Cənubi Qafqaz ölkələri, əslində, Azərbaycanın Naxçıvan üzərində protektoratı dövlət-siyasi suverenliyə çevirdilər.

Naxçıvanla bağlı hər iki müqavilə mətnində başqa fərqlər də özünü göstərir. Moskva müqaviləsinin üçüncü bəndində Türkiyə nümayəndə heyətinin təkidi ilə yazılmış “Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir” müddəası nədənsə Qars müqaviləsində yoxdur. Əksinə Qars müqaviləsinin 5-ci bəndində isə “Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gələn” tərəflər daxil edilib ki, bunlar Türkiyə hökuməti, Azərbaycan və Ermənistan sovet respublikaları idi.

Moskva müqaviləsində Naxçıvan vilayətinin sahəsi 6038 kv. km (bəzi mənbələrdə 5988 kv.km) müəyyən edilsə də, Qars müqaviləsində bu 285 kvadrat kilometr azaldılaraq 5 min 753 kvadrat kilometr olmuşdur.

**(ardı var)**

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

Rəfiq Zəka Xəndan – 85

# Türklüyün poetik nəğməkarı



**İsti bir yay günü azərbaycanlı şair, tənqidçi, ədəbiyyatşünas Cəfər Xəndanın ailəsində dünyaya gəlmiş şair Rəfiq Zəkanı dostları, rəfiqləri daim isti duyğularla xatırlayırlar. Elə Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda anım mərasiminə toplaşanlar düz 25 il əvvəl həyata əlvida demiş şair, filosof, ssenarist Rəfiq Zəka ilə bağlı günəş şəfəqli xatirələri yay təşnələri kimi dinlədilər.**

Mərasimi açan Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı şairin 1962-ci ildə çapdan çıxmış "Çağlayan" adlı ilk kitabı ilə tanışlığından başlayaraq, şəxsi dostluq tellərinə qədər bir çox maraqlı məqamlara işıq tutdu. Qeyri-adi türk sevgili Rəfiq Zəkanı həm də dostları birləşdirən dəyər kimi xarakterizə etdi. Onun Atatürkə, Müşfiqə sonsuz sevgisindən misallar çəkdi, Anadolu ləhcəsinə aid "ulus", "sancaq", "soydaş" kimi bir çox sözü ilk dəfə leksikonumuza gətirdiyini vurğuladı. Saatlarca türk poeziyasından nümunələri əzbər söyləmək bacarığının olduğunu qeyd etdi.

AYB-nin sədri, Xalq yazıçısı Anar Rəfiq Zəkanı həm məclis iştirakçılarından, həm də burada iştirak edən ömür-gün dostu Nailə xanımdan da əvvəl tanıdığını bildirdi. Hələ uşaq ikən Rəfiqlə və Vaqif Səmədoğlu ilə eyni bir musiqi məktəbində oxuduqlarını yada saldı. Rəfiq Zəka Xəndanın həyatsevər, yumor hissi güclü olan (yeri gəlmişkən, "xəndan" şən, üzügülər deməkdir) bir insan, heyrətamiz şeir formalarında poetik nümunələr yazan, qələmini ən müxtəlif ədəbi janrlarda sınayan cəsarətli şair kimi üstün keyfiyyətlərini diqqətə çatdırdı.

Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Rəfiq Zəka keçən əsrin 80–90-cı illərində Azərbaycan–Türkiyə ədəbi əlaqələrinin təməlini qoyanlardan olub.

Həmin illərdə şair Türkiyə mətbuatı səhifələrində Azərbaycan ədəbiyyatını geniş işıqlandırırdı. O, "SIZE", "Tanıtım" kimi məşhur türk jurnallarında Azərbaycan şair və yazıçıları haqqında yazılar dərc etdirib. Rəfiq Zəka şairlik fəaliyyəti ilə yanaşı, Azərbaycan İncəsənət Akademiyasının professoru olaraq müəllim heyəti içərisində yer alıb, estetikadan mühazirələr oxuyub. Əruzu da heca vəzni qədər dərindən bilib. Uşaqlıqdan musiqiyə bağlılığının nəticəsidir ki, "Axırı yaxşı olar" (1968), "Mənim əziz vəhşiciyim" (1970) musiqili komediyalarına, eləcə də "Füzuli" və "Söyüdlər ağlamaz" operalarına çox gözəl mətnlər yazıb.

Xalq yazıçısı Mirzə İbrahimov onun haqqında yazırdı: "Rəfiq Zəka əlinə qələm aldığı gündən gənclik ehtirası ilə şeir və gözəllik məftunu olduğunu sübut edib. Onun şeirlərində canlı xalq dilinə bağlılıq, axıcılıq və səlislik nəzərə çarpır. Hafizəsinin kəskinliyini, zəngin Şərq ədəbiyyatını dərindən duyduğunu, sənət haqqında ehtiraslı düşüncələrə malik olduğunu görməmək mümkün deyil".

Rəfiq Zəkanın adı türk dünyasında geniş tanınıb və sevilib. Dəfələrlə Türkiyənin bir çox şəhərlərində keçirilən elmi konqreslərdə, beynəlxalq konfranslarda və simpoziumlarda iştirak edib. Türkiyədə kitabları çap olunub, haqqında monoqrafiyalar nəşr edilib, yaradıcılığından sevgilərlə söz açılıb.

Məclisdə AYB-nin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid, Xalq şairi Vahid Əziz, görkəmli yazıçı Seyran Səxavət, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə, filologiya üzrə fəlsəfə doktoru Natəvan Mustafayeva, Slavyan Universitetinin professoru Flora Naci, həmin ali təhsil ocağının dosenti Kamalə Umudova, qəzəlxan şair Mahcamal Babayeva, "525-ci qəzet"in əməkdaşı, şair Nadir Yalçın və başqaları Rəfiq Zəka Xəndan haqqında ürək sözlərini söylədilər, onun yaradıcılığını geniş aspektdə təhlil etdilər.

Xüsusi qeyd olundu ki, Rəfiq Zəka təkcə şair və yazıçıların deyil, sadə insanların, zəhmət adamlarının da sədaqətli dostu idi. Yadıma düşdü ki, Masallı rayonunun Təzə Alvadı kəndində yaşamış Əlisa kişi (şair Süleyman Əlisanın atası) Rəfiq Zəkanın dəfələrlə onlara qonaq gəldiyini fəxrlə yada salır, necə sadə, səmimi bir insan olduğundan ürəkdolusu danışırdı. Yeri gəlmişkən, dostum Süleyman da həmişə qürurla bildirir ki, onu Vaqif Səmədoğlu, Vaqif Nəsib, Əleviyyə Babayeva kimi ünlü yazarlarla məhz Rəfiq Zəka tanış edərək: – Dostum Əlisanın oğludur, – deyib və gənc şairin "Durna yolu" (1986) adlı ilk kitabının çapına kömək edib...

Sonda unudulmaz şairin qızı Aydan xanım və oğlu Xəndan çıxış edərək özəl xatirələrini dilə gətirdilər. Həyat yoldaşı – elə məclisdə dəfələrlə xatırlanan mərhum şair Azad Talışoğlunun qızı, özü də filoloq olan Nailə xanım isə həm də Rəfiq Zəkadan gözəl şeir parçalarını əzbərdən səsləndirdi və məclisin təşkilatçılarına, iştirakçılarına minnətdarlığını bildirdi.

Beləcə, maraqlı mərasim 2 saatdan çox çəkdi. Rəfiq Zəka Xəndanı tanıyanlar şairin yad edilməsindən məmnun qaldıqları kimi, onu elə də dərindən tanımayan gənc ədəbiyyatsevərlər də xeyli dəyərli bilgi əldə etdilər.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Bülbül Beynəlxalq Fondu ölkəmizdə Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsini keçiriblər.**

Müsabiqəyə Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Qırğızıstan, Cənubi Koreya, Makedoniya və digər ölkələrdən, ümumilikdə, 140 nəfərdən çox 18–36 yaş arasında vokalçı qatılmışdı. Şərtlərə görə, bütün əsərlər orijinalın dilində ifa edilib. İlkin turlardan sonra həlledici mərhələyə 16 iştirakçı vəsiqə qazanmışdı. Nəhayət, səs və sənət yarışmasının qalibləri bəlli olub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazovun sədrlik etdiyi beynəlxalq münsiflər heyətinin qərarı ilə yarışmanın Qran-pri mükafatı Kanada təmsilçisi Kler Kulenə verilib. 1-ci yerə Atəş Qarayev (Azərbaycan) və Stepan Volkov (Rusiya) layiq görülüblər. 2-ci yeri Maksad Camalov və Leyla Alamanova (hər ikisi Qazaxıstan) paylaşıblar. Rusiya nümayəndəsi Yuliya Sitnikova 3-cü mükafatı qazanıb. Monqolustan vokalçısı Mongolkhuu Byambajay və Rusiyanı təmsil edən Samira Qalimova 4-cü olublar.

Onu da qeyd edək ki, Atəş Qarayev həm də "Ən yaxşı tenor" hesab edilib. Rusiyadan olan Aleksey Yurkovski Bülbül repertuarından nümunənin ən yaxşı ifaçısı kimi fərqlənib. Daniel Kirillov isə "Ən yaxşı müşayiətçi" kimi seçilib. Azərbaycandan Günel Şirinova müsabiqənin "Ümid" mükafatına layiq görülüb. Digər finalçılar Mahir Tağızadə (Azərbaycan), Otobek Nazirov (Qazaxıstan), Polina Hafizova və Nadejda Meyyer (hər ikisi Qazaxıstan) müsabiqənin diplomuna layiq görülüblər.

Qaliblərin mükafatlandırılması mərasimi Bülbülün doğma yurdu Şuşada qala-konsertlə sonuclanıb. Möhtəşəm konsert hər kəsdə xoş duyğular yaradıb. Bu sətirlərin müəllifi qala-konsertdən sonra yarışmanın Qran-pri mükafatşısı, Kanada təmsilçisi Kler Kulendən müsahibə alıb. Onun dediklərini qısaca təqdim edirik:

# "Bülbül festivalı" Bülbülün Vətənində başa çatdı



– Kanadalı olsam da, hazırda İtaliyada çalışıram. Bu müsabiqəyə gəlməyimin əsas səbəbkarı anam oldu. Anam sizin görkəmli sənətkarınız, dramatik tenor Yusif Eyvazovun pərəştişkarıdır və onunla bağlı sosial şəbəkələrdən vokalçıların Bülbül adına müsabiqəsinin keçiriləcəyi xəbərini öyrənib mənə dedi ki, bəlkə, gedib iştirak edəsən. Mən də müsabiqə barədə ətraflı məlumat toplayıb sənədlərimi göndərdim. Çox şadam ki, burada Qran-priyə sahib oldum, sevincim hədsizdir. Onu da deyim ki, Azəırbaycan paytaxtını çox bəyənmişəm. Dağlar qoynundakı azad Şuşa da heyrətamiz dərəcədə gözəldir. Srağagün axşam Bakıya qayıtdıq. Qərara gəldim ki, burada daha 5 gün qalıb, hər tərəfini doyunca gəzim, zövq alım.

***GÜLCAHAN***

# Sözün işığına qızınan şair

**Şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Təranə Dəmirin "Üşüyəndə özünü yandıran şair" adlı kitabı çap olunub.**

Kitabda tanınmış şair, "Ulduz" jurnalının baş redaktoru Qulu Ağsəsin yaradıcılığının və fəaliyyətinin müxtəlif istiqamətlərindən bəhs edən məqalələr toplanıb. "Üşüyəndə özünü yandıran şair", "Qulu Ağsəs: Tanrı və söz", "Ulduz"un Qulu Ağsəs dönəmi", "55 illik dostuma", "Qulu Ağsəs və İlahi eşq!", "Sözü özünə bənzəyən şair", "Qulu Ağsəsin savaşdan çıxan şeirləri" adlı məqalələrdə müəllif şairin şeirlərinin məzmunu və bədii məziyyətləri barədə fikirlərini dolğun şəkildə ifadə edib. Oxucu kütləsinə təqdim olunan bu kitabda Qulu Ağsəsin insani xüsusiyyətləri, şeirlərində olduğu qədər səmimi münasibəti və iş prinsipləri də diqqətə çatdırılıb.

Kitabın redaktoru AYB və AJB-nin üzvü Nəzirməmməd Zöhrablıdır. O, "Səmimiyyət dolu sətirlər" adlı ön sözdə nəşrin maraqlı tərtibatı, məqalələrin səmimiyyəti və Qulu Ağsəs yaradıcılığının




yüksək keyfiyyətləri barədə söhbət açıb.

Qeyd edək ki, indiyə qədər Təranə Dəmirin "Uzaqlar", "Daş arzular", "Payız qadın", "Sıfırdan əvvəl", "Səssizliyin melodiyası", "25-ci saat" adlı şeir kitabları və "Cəhənnəmdən gələn işıq" adlı povest və hekayələr toplusu işıq üzü görüb. "Üşüyəndə özünü yandıran şair" müəllifin sayca 8-ci kitabıdır.

***XQ***

Böyük sənətin davamçıları

# İstedadlı aktyor, ümidverici rejissor






**İncəsənət də bir növ idman kimidir. Məsələn, futbolda oyunçular qol vurmağa, kapitan olmağa, daha sonra özlərini məşqçi və ya hakim kimi sınamağa çalışırlar. İncəsənətdə isə teatr aktyoru yaxşı filmlərə çəkilməyi də arzulayır, sonra qabiliyyəti müqabilində rejissorluq etmək, pyeslərə quruluş vermək, ssenariləri ekranda canlandırmaq keçir könlündən. İstedadı, bacarığı imkan verdiyi qədər buna nail olur və uğur qazanır.**

Əslində, bu cəhddə heç bir qəbahət yoxdur. Məsəl var, deyirlər: Bir əsgər ki, general olmaq istəmir, o, əsgər deyil. Yaxşı mənada ambisiya təqdir edilməlidir. Təki, özünə inamın güclü olsun, addım atanda büdrəməyəsən. Haqqında söhbət açmaq istədiyimiz aktyor-rejissor Hikmət Rəhimov kimi.

O, 20 il qabaq orta məktəbi bitirib, elə həmin ildə ADMİU-nun dram və kino aktyoru fakültəsinə daxil olub və 2008-ci ildə ali təhsil haqqında diplom alıb. Növbəti ildən Azərbaycan Dövlət Yuğ Teatrında, sonra Azərbaycan Dövlət Akademik Milli Dram teatrında çalışmağa başlayıb...

Hikmət Rəhimov bir müsahibəsində deyib: "Atam, anam bu sahənin adamı deyillər. Mətbəə işi ilə məşğuldurlar. Ümumiyyətlə, bizim nəsildə bu sahənin adamı yoxdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bizim kurs rəhbərimiz rəhmətlik Əliabbas Qədirov idi. O zaman Əliabbas müəllim Akademik Milli Dram Teatrının direktoru idi və elə buna görə də sərasər dərslərə gələ bilmirdi. Sonra xəstələndi və dünyasını dəyişdi. Bu illərdə mən Yuğ teatrına da gəlirdim. Uşaqların təklifi ilə Yuğda keçirilən dərslərə qatıldım. Elə o zamandan Vaqif müəllimlə tanış oldum. Və o mənə M.F.Axundovun "Lənkəran xanının vəziri" tamaşasında Teymur ağa rolunu tapşırdı. Sonra Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsəri əsasında qoyulmuş tamaşada Cadugəri oynadım".

Arada 1 il hərbi xidmətdə olan Hikmət daha sonra teatr səhnəsində "Qadın məhəbbəti", "Naməlum Axundzadə", "Qatil", "Sənətkarın taleyi", "Şah İsmayıl və məni sevənlər hamısı burdadır" tamaşalarında maraqlı rollar alıb. Yaratdığı obrazlar yadda qalıb.

Kinoaktyor kimi "Çaqqal nəfəsi", " Fədakar", "Xənnas", "Miras", "Sən demə", "Mən burada tək olmuşam" filmlərində çəkilib. Bu sıraya "Döngələr", "İmtahan", "Əqrəb mövsümü" kimi serialları da qoşmaq olar.

O, ssenari müəllifi və rejissoru Xalq artisti Vaqif Mustafayev olan və 2022-ci ildə təqdim edilən "Həyat, deyəsən, gözəldir" tammetrajlı bədii filmində çəkilib. Bu film erməni daşnaklarının 30 ilə yaxın bir müddətdə zəbt edərək talayıb viran qoyduğu Qarabağ torpaqları uğrunda gedən 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən bəhs edir. Azərbaycan Ordusunun hücumları nəticəsində ermənilər aciz qalır, təlaşa düşürlər. Əsir alınan erməni əsgərləri arasında iki qardaş da var. Qardaşların sonrakı aqibəti tragikomik janrda olan ekran əsərinin əsasını təşkil edir. Hikmət filmdə əsas rollardan birini məharətlə oynayıb.

Sonra, 2023-cü ildə rejissor Emil Quliyevin "Pərdəarxası/Mən burada tək olmuşam" filmində baş rolda çəkilib.

Hikmət Rəhimovun rejissor kimi ilk işi qısametrajlı "Adam" (2021) filmi olub. Ardınca inişil dram janrında "Çılpaq" adlı tammetrajlı bədii film çəkib. Həm də filmin ssenari müəllifi olub. Süjet xətti sadədir: çox kasıb bir adam ölür. Rüstəm adlı xəstə oğulun nəinki atasını axirətə layiqincə yola salmağa, heç dəfn etməyə belə imkanı yoxdur. Sabir adlı bir şəxslə (Əməkdar artist Rasim Cəfər) birlikdə atasının tabutunu gəzməyə məcbur olur. Və müxtəlif insanlarla qarşılaşırlar...

Bir vaxt Hikmət Rəhimov demişdi ki, 35 yaşımda arzularımdan biri də öz tammetrajlı filmimi çəkmək idi. Çəkdi də, üstəlik, uğur da qazandı. Əvvəlcə rejissor debütü Fransa və Türkiyədə 4 beynəlxalq mükafata layiq görüldü. Ötən ilin əvvəlində isə bu film Praqa festivalında "Ən yaxşı film" kateqoriyasında 1-ci yeri qazandı.

İndi, budur, daha bir filmi – marginalların həyatından bəhs edən "Apatiya" psixoloji tpilleri də çəkildi. Bu film bir müddət öncə təqdim olunub və bütün kinoteatrlarda göstərilib. Rollarda Tural Baxış, Şəhla Əliqızı, Fuad Cəbiyev, Məhəmməd Şahməmmədli, Azər Aydəmir, Elşən Əsgərov və başqaları həvəslə yer alıblar.

Qələm dostum Etibar Cəbrayıloğlunun bu barədə dedikləri:

– Hikmət Rəhimov çox istedadlı aktyordur. Bunu səhnədə, ekranda yaratdığı rollarla sübut edib. Kino rejissoru kimi də özünü sınamağa başlayıb və çəkdiklərindən görünür ki, bu, ötəri həvəs və ya dəblə ayaqlaşmaq deyil, onun bu sahədə görmək istədiyi ciddi işlər var.

Fevral ayında Hikmət bizi həm ssenarisini yazdığı, həm də quruluşçu rejissoru olduğu "Apatiya" bədii filminin qala-gecəsinə dəvət etmişdi. Bu ekran işi həyatın dibində yaşamağa məcbur olan bir ailə haqqındadır. Baxdıqca düşünürsən ki, onlar təkdirmi? Bəlkə ətrafdakılar, səhər-axşam baxdığımız telekanallar, cəmiyyətin müəyyən kəsimi bu gündədir?

Filmdə möhtəşəm aktyor oyunu var, rol alan hər kəsi təbrik edirəm. Məncə, "Apatiya" birmənalı qarşılanmayacaq, mənim də razılaşmadığım məqamlar var, bəzi epizodlar, aşırı söyüşlər olmadan da keçinmək olardı. Peşəkar kino tənqidçiləri, yəqin ki, filmi ətraflı və obyektiv təhlil edəcəklər. Hikmət qardaşımın uğurları davamlı olsun!

Rejissorun dostu – mənim dostum olmuş şair Akif Səmədin oğlu Ulucay Akif də cəsarətli səhnələri qeyd edir və obrazların dilindən auditoriyaya ünvanlanan sosial mesajların elə də çox olmadığını bildirir. Bununla bərabər, o, dostyana tənqiddən çəkinmir, Hikmət Rəhimovun yaradıcı potensialına inandığı üçün ondan daha bəşəri ideyaları ehtiva edən filmlər gözləyir.

Biz də bu arzulara qoşuluruq.

***Ə. DOSTƏLİ***
***XQ***

# "Soyuq suda azacıq Günəş"

**Parisdə Azərbaycan incəsənətinin iki istedadlı nümayəndəsi – xanım şair Ülviyyə Axundova və pianoçu Nazxanım Dadaşovanın iştirakı ilə "Soyuq suda azacıq Günəş" adlı musiqili poeziya axşamı böyük uğurla keçib.**



Qeyd edək ki, müasir ədəbiyyatın və musiqi mədəniyyətinin təbliği məqsədini daşıyan tədbir "Azərbaycan–Fransa dialoqu" Assosiasiyasının və Toğrul Nərimanbəyov adına Assosiasiyanın təşkilati dəstəyi ilə baş tutub. Musiqili poeziya axşamının kuratorları qismində "Azərbaycan–Fransa dialoqu" Assosiasiyasının vitse-prezidenti Aytən Muradova və Azərbaycanın Əməkdar rəssamı Əsmər Nərimanbəyova çıxış ediblər.

Yeri gəlmişkən, tədbirin proqramı elə tərtib edilib ki, müasir poeziya Qara Qarayevin, Debüssinin, Raxmaninovun, Azərbaycan, fransız və rus musiqisinin digər klassiklərinin yaradıcılığı ilə ahəngdar şəkildə təqdim olunub.

Ülviyyə Axundova şair, yazıçı, tərcüməçi, Rüstəm İbrahimbəyov adına Beynəlxalq Kino Məktəbinin rejissorluq ixtisası üzrə məzunu, mədəni layihələrin kuratoru, bir neçə şeir kitabının müəllifidir. O, həmçinin Baninin iki avtobioqrafik romanı – "Qafqaz günləri" və "Paris günləri" əsərlərini fransız dilindən rus dilinə tərcümə edib.

Nazxanım Dadaşova isə pianoçu, Mərkəzi Musiqi Məktəbinin və Moskva Konservatoriyasının məzunu, bir çox beynəlxalq müsabiqə və festivalların, o cümlədən 2012 və 2014-cü illərdə Parisdə keçirilən Rubinşteyn Beynəlxalq Musiqi Müsabiqəsinin qalibidir. O, musiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə Prezident təqaüdünə layiq görülüb.

***XQ***

# “Risalə” kimdən və nədən yazıb?

**İyunun 10-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Risalə” elmi araşdırmalar jurnalının növbəti nömrələrinin təqdimatı keçirilib.**



Tədbiri giriş sözü ilə muzeyin direktoru, akademik Rafael Hüseynov açaraq ədəbiyyatın müxtəlif sahələri üzrə tədqiqatların yer aldığı jurnalın yeni nəşrlərindən danışıb. Bildirib ki, 2004-cü ildən etibarən Ədəbiyyat Muzeyində işıq üzü görən “Risalə” elmi araşdırmalar jurnalı elmi-tədqiqatların nəticələrini əks etdirən, ildə 2 dəfə dərc olunan elmi-tədqiqat məcmuəsidir. Jurnal həm də dissertasiya işini müdafiə edəcək gənc alim və tədqiqatçılara kömək məqsədi daşıyır. O, toplunun filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısında olduğunu bildirib.

Akademik Rafael Hüseynov jurnalın əhatə dairəsinin daha da genişləndiyini, nəşrin redaksiya heyətinin bu sahədə tanınmış xarici mütəxəssislərdən formalaşdığını diqqətə çatdırıb. Direktor gələcəkdə jurnalda ingilis dilində məqalələrin sayının artırılmasının zəruriliyini qeyd edib. Vurğulayıb ki, toplunun məqsədi tədqiqatçıların ədəbiyyat sahəsində elmi yenilikləri əks etdirən məqalələrini beynəlxalq auditoriyaya çatdırmaq və gənc alimlər arasında elmi ünsiyyətin genişləndirilməsinə yardımçı olmaqdır.

Alim bildirib ki, Ədəbiyyat Muzeyində “Risalə” elmi araşdırmalar jurnalı ilə yanaşı, “Beşlik” – “Qaynaq” mənbələr, “Şərq” tərcümə, “Xəzinə” kataloqlar və “Məclis” mərasimlər topluları da nəşr edilir.

Təqdim edilən jurnallarda akademik Rafael Hüseynovun “Köç ədəbiyyatının Azərbaycan fenomeni: Vətəndən Vətənə mühacirətin bədii və elmi irsi” və “Nizami Gəncəvinin “Xəmsə”sində türk qatı və türk kimliyi düşüncələri”, eləcə də muzey əməkdaşlarının, elmlər doktorları, fəlsəfə doktorları, dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzuları ehtiva edən elmi məqalələri yer alıb.

Sonda tədbirdə iştirak edən məqalə müəlliflərinə “Risalə” elmi araşdırmalar jurnalının yeni nömrələri təqdim olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Həlak olmuş sərhədçi Gəncədə dəfn olundu

**Xəbər verildiyi kimi, iyunun 9-da Sərhəd Qoşunlarının Lənkəran Sərhəd Dəstəsinin mayouru Baxış Baxışlı və əsgər Əli Nağıyev xidməti vəzifələrini icra edərkən ildırım vurması nəticəsində həlak olublar.**



Bədbəxt hadisə nəticəsində həyatını itirmiş əsgəri Əli Nağıyevin hərbi xidmətə getdiyi Gəncə şəhərində yaşadığı ünvanda mərhumla vida mərasimi keçirilib. Sonra onun nəşi Şəhidlər xiyabanında torpağa tapşırılıb. Həlak olmuş əsgərin xatirəsinə yaylım atəşi açılıb, ruhuna dua oxunub.

Dəfn mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, şəhərin rəhbər işçiləri, ictimaiyyət nümayəndələri və mərhumun yaxınları iştirak ediblər.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

# Bakı dünya üzrə çövkənin mərkəzidir

**Xalqımızın tarix və mədəniyyətinin, milli-mənəvi dəyərlərinin nəsildən-nəslə ötürülüb təbliğ edilməsində qeyri-maddi mədəni irsin mühüm əhəmiyyəti var. Milli atçılıq oyunları da ölkəmizin mədəni zənginliyini özündə ehtiva edir.**



Bakıda qədim və zəngin tarixə malik çövkən üzrə dünya çempionatının təşkili bu baxımdan mühüm əhəmiyyət daşıyır. 10 ölkədən komandaların iştirakı ilə Binə Atçılıq Mərkəzində keçirilən yarışın açılış mərasimində Azərbaycan Respublikasının Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev, vitse-prezident, həmçinin Beynəlxalq Çövkən Federasiyasının prezidenti Bəhruz Nəbiyev, federasiya rəsmiləri və idman ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

Tədbirdə Atçılıq Federasiyasının birinci vitse-prezidenti Bəsirət Quliyev, eləcə də Beynəlxalq Çövkən Federasiyasının prezidenti Bəhruz Nəbiyev çıxış edərək çövkən idman növünün tarixindən danışdılar.

Bildirildi ki, Bakıda artıq 2-ci dəfə dünya çempionatı keçirilir. Bu idman növü Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı sayəsində inkişaf edir və kütləviləşir. Beynəlxalq Çövkən Federasiyasının məhz Azərbaycanda yaradılması tarixi hadisədir. Təşkil edilən yarışlar, keçirilən tədbirlər çövkən idman növünün dünyada tanınmasında əhəmiyyətli rol oynayır. Qeyd edildi ki, Peşəkar Çövkən Liqasının təşkili bu idman növünün daha da inkişaf etməsinə səbəb olacaq.

Sonra yarışa start verildi. Qrup mərhələsində keçirilən ilk görüşdə Azərbaycan və Qazaxıstan yığmaları qarşılaşdı. Azərbaycan seçməsi rəqibinə 5:0 hesabı ilə qalib gəldi.

Matçdan sonra jurnalistlərə açıqlama verən Azərbaycan millisinin üzvü Elçin Camallı qələbə qazanacaqlarına inandığını dedi. Komandanın kapitanının sözlərinə görə, yarışa yüksək səviyyədə hazırlaşıblar.

Bəhruz Quliyev isə açıqlamasında mundialda 3 qitəni təmsil edən yığmaların iştirak etdiyini bildirdi. Qeyd etdi ki, budəfəki yarışda iştirak edən millilər arasında debütantlar da var.

Qeyd edək ki, dünya çempionatına iyunun 16-da yekun vurulacaq. Əminik ki, tarixi və mədəni irsimiz olan çövkənin inkişafında, coğrafiyasının daha da genişlənməsində və beynəlxalq arenalarda inkişaf etdirilməsində dünya çempionatı daha bir töhfə olacaq.

***Leyla QURBANOVA***
***XQ***

# Qaraçöpdə “Parlaq gələcək” ocağı

**Borçalıda Qaraçöp Bələdiyyəsinin Keşəli kəndində yerli müəllimlərin təşəbbüsü ilə “Parlaq gələcək” kitab evi yaradılıb. Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində kitab evi həm də tədris mərkəzi kimi fəaliyyət göstərir. Hazırda burada pulsuz kurslara start verilib.**



**Mərkəzin direktoru Rafael Süleymanov bildirdi:**

– Qaraçöp mahalı Gürcüstanın azərbaycanlı icmasının yığcam şəkildə məskunlaşdığı və Kaxeti bölgəsinin Saqareco Bələdiyyəsinə daxil olan bir ərazidir. Qaraçöpdə əsrlər boyu türk boyları yaşayıb. Milli dəyərlər, adət-ənənələrimiz bu torpaqlarda bu gün də yaşadılır. Qaraçöp mahalı 8 kəndi özündə birləşdirir: İor-Muğanlı, Düzəyrəm, Ləmbəli, Keşəli, Tüllər, Qazlar, Qarabağlı, Muğanlı, Baldo. Burada yaşayan əhalinin əsas məşğuliyyət sahələri maldarlıq, qoyunçuluq və ticarətdir. Statistik məlumata əsasən, ölkə üçün xarakterik olan əhalinin azalma tendensiyası Qaraçöp mahalında qeydə alınmayıb.

Qaraçöp mahalında Azərbaycan dilində 4 tam orta məktəb fəaliyyətdədir, bu tədris ocaqlarında 4 minədək şagird təhsil alır. Gənclər kitab evində yeni açılan kurslarda tamamilə təmənnasız iştirak etmək imkanı əldə edirlər. Kurslara qeydiyyat may ayının 6-dan başlayıb. Dərs müddəti bir saat olmaqla həftədə 3 dəfə 4 ay davam edəcək. Qeydiyyatdan 12–18 yaşlı şəxslər keçə bilərlər. Mərkəzdə Azərbaycan dili, gürcü dili, şahmat və saz kurslarlı tədris olunur. Biz həm də elimizə xas olan xalçaçılıq sənətinin sirlərini də öyrətmək üçün belə bir dərnəyin açılmasını nəzərdə tuturuq.

Tea Qurqenidze uşaqların bu dili öyrənməsi üçün mərkəzdə hər cür şəraitin olduğunu qeyd etdi.

**Kitabxanaçı Durna Mərdanova bildirdi:**

– Mərkəz bizim uşaqlar üçün bir işıq yoludur. Məktəb şagirdləri bu mərkəzin kitabxanasından çox fəal bəhrələnirlər. Ancaq uşaq ədəbiyyatının azlığı ibtidai sinif şagirdlərinin cəlb olunmasına mənfi təsir göstərir. Azərbaycan dilində belə kitabların əldə olunmasına böyük ehtiyacımız var.

Jurnalist İsmixan Məmmədov isə Qaraçöp mahalının ictimai-siyasi xadimləri, yazıçıları və görkəmli şəxsiyyətləri barədə “Qaraçöp. Ensiklopedik toplu” adlı kitabın işıq üzü gördüyünü bildirdi.

***XQ***

# MEDİA-nın növbəti jurnalist müsabiqəsi

**Medianın İnkişafı Agentliyi jurnalistlər üçün 8 istiqamət üzrə müsabiqə elan edib.**

Bu barədə MEDİA-nın mətbuat xidmətinin açıqlamasında bildirilir ki, müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə olunan sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə göndərilir.

Müsabiqəyə son 3 ayda dərc edilmiş və ya yayımlanmış materiallar təqdim edilməlidir. Jurnalist aşağıdakı yazı nominasiyalarından yalnız birini seçə biər: ən yaxşı reportaj; ən yaxşı ictimai-siyasi təhlil; ən yaxşı sosial-iqtisadi təhlil; ən yaxşı müsahibə; ən yaxşı mədəniyyət materialı; ən yaxşı köşə yazısı; ən yaxşı jurnalist araşdırması; ən yaxşı oçerk.

Jurnalist audiovizual media subyektində yayımlanmış və həcmi (xronometrajı) ən çoxu 5 (beş) dəqiqə olan süjetini aşağıdakı nominasiyalardan yalnız biri üzrə təqdim edə bilər: ən yaxşı ictimai-siyasi reportaj; ən yaxşı iqtisadi reportaj; ən yaxşı sosial reportaj; ən yaxşı mədəniyyət reportajı; ən yaxşı idman reportajı.

Yazı nominasiyalarının hər biri üzrə 5, süjetlər üçün nominasiyaların hər biri üzrə isə jurnalist və 2 operator qalib elan edilir və mükafatlandırılır.

Müsabiqəyə müraciət qəbulu iyunun 20-dək davam edəcək.

**XQ**

**Bizə yazırlar**

# “Ağ ölüm”ü dirilməyə qoymayaq!

## Bu bəla məndən, səndən, bizdən ötsə hamımıza dəyəcək

**Narkomaniya müasir dünyanın ən ciddi problemlərindən biridir. Hər il milyonlarla insan narkotik maddələrə aludə olaraq, öz həyatlarını və cəmiyyətlərini təhlükəyə atır.**

Azərbaycanda da “ağ ölüm” aludəçilərinin olması gizli deyil. Xüsusilə, gənclər arasında narkotiklərdən istifadə meyilləri yox deyil. Narkotik asılılığı olan şəxslərin sağlamlığı pozulur, iş qabiliyyəti azalır və bu da cəmiyyətdə sosial təhlükəsizliyi zəiflədir.

Cənub bölgəsində narkomaniya ilə bağlı vəziyyətə nəzər salaq: Son illərin statistikasına görə, Lənkəranda narkotik maddələrdən asılılığı olan şəxslərin sayı artmaqdadır. 2023-cü ilin məlumatlarına əsasən, rayonda bu say 250 nəfəri keçmişdir. Həmin şəxslərin 60 faizi 18–35 yaş aralığındadır və bu göstərici, narkomaniyanın əsasən gənclər arasında yayılmasını göstərir. Lənkəran Polis İdarəsi tərəfindən narkotik cinayətkarlıqla bağlı 100-dən artıq cinayət işi açılmışdır və bu, problemin ciddiliyini bir daha təsdiqləyir.

Bununla yanaşı, narkomaniya ilə mübarizə çərçivəsində Lənkəranda müxtəlif maarifləndirici tədbirlər və proqramlar həyata keçirilir. Məsələn, 2024-cü ilin birinci yarısında Lənkəran şəhərində 10-dan artıq məktəbdə narkotiklərin zərərləri ilə bağlı seminarlar keçirilmişdir. Bu seminarlar vasitəsilə 1500-dən artıq şagird və valideyn narkomaniyanın zərərləri haqqında məlumatlandırılmışdır.

Ümumiyyətlə, dünyada “ağ ölüm”ün yaratdığı təhlükəni aradan qaldırmaq üçün mütəmadi olaraq qabaqlayıcı tədbirlər həyata keçirilməlidir. İlk növbədə, narkotiklərə qarşı mübarizə üçün qlobal səviyyədə koordinasiya olunmuş siyasətin hazırlanıb tətbiq olunması zəruridir. Təhsil proqramlarının genişləndirilməsi, narkotiklərin zərərləri haqqında məlumatlandırma kampaniyalarının təşkili və gənclərin bu mövzuda daim maarifləndirilməsi əhəmiyyətlidir. Eyni zamanda, narkotik asılılığı olan şəxslərə yardım proqramları daha da gücləndirilməli və reabilitasiya mərkəzlərinin əməli fəaliyyəti artırılmalıdır.



Yalnız bu şəkildə mübarizə ilə gələcək nəsillərin sağlam və təhlükəsiz bir mühitdə yaşaması təmin edilə bilər.

***Zamin VƏLİYEV,***
***Məhkəmə Ekspertizası Mərkəzi Lənkəran regional bölməsinin rəisi***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC
tabeliyindəki idarələrə tələb olunan tikinti materiallarının satın alınması məqsədilə
AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyunun 20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 12-42.
Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 122 (30526) 11 iyun 2024-cü il, çərşənbə axşamı

İDMAN

## Basketbolçularımız Avropa Kubokunda

**Azərbaycanın həm kişilərdən, həm də qadınlardan ibarət 3x3 basketbol millilәri Kosovonun paytaxtı Priştina şəhərində təşkil olunan Avropa Kubokunun təsnifat mərhələsində uğurla çıxış ediblər.**




Final uğrunda yarışda hər iki yığma Kipr seçmələri ilə mübarizədən qalib ayrılıblar. Bununla da, basketbolçularımız Avropa Kubokunun final mərhələsinə vəsiqə qazanıblar.

Qeyd edək ki, avqustun 22–25-də Avropanın ən güclü 3x3 basketbol yığmaları Avstriyanın paytaxtı Vyana şəhərində təşkil olunacaq Avropa Kubokunun oyunlarında iştirak edəcəklər.

## Dünya reytinqi: “Zirə” və “Sabah” irəliləyib

**Futbol klublarının dünya reytinqi açıqlanıb.**

Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının cədvəlində dünyanın ən güclü 507 klubu arasında Azərbaycanın 4 təmsilçisi var. Klublarımız arasında ən yaxşı göstərici “Qarabağ” FK-ya məxsusdur. Ağdam klubu hazırda (183,75 xal) 53-cü sıradadır. “Neftçi” 59,25 xalla 403-cü pillədədir. Hər iki klub 5 pillə geriləyib. 15 pillə irəliləyən “Zirə” 62,25 xalla 369-cu, 17 pillə yüksələn “Sabah” 60,75 xalla 388-ci sırada yer alıblar.

Dünya reytinqinə “Mançester Siti” (401 xal) başçılıq edir.

## Vasif Durarbəyli ABŞ-da qalib oldu

**Azərbaycan şahmatçısı Vasif Durarbəyli “Las Vegas International” turnirinin qalibi olub.**



ABŞ-da keçirilən yarışda idmançımız 7,5 xal toplayaraq 1-ci yeri tutub.

Turnir 9 turdan ibarət olub.

***L.QURBANOVA***
***XQ***

Bakı milyonçuları

**Şəmsi Əsədullayev 1841-ci ildə Bakının Əmircan kəndində yoxsul bir ailədə anadan olub. Erkən yaşlarından atasına əkin-biçin işlərində kömək edib. Taxıl daşıyıb, xırman döyüb. O dövrdə əmircanlıların taxıl yerləri, əsasən, Suraxanı torpaqlarında yerləşib.**



# Bəxti fontan vuran neftxuda – Şəmsi Əsədullayev

## O, 500 manatı 20 ildə 10 milyon manatlıq varidata çevirmişdi

…XX əsrin əvvəllərində neft sənayesinin inkişafı ilə əlaqədar, bu torpaq sahələrinin mühüm bir hissəsi Suraxanıda neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirləri tərəfindən ucuz qiymətə satın alınıb. Onlar Suraxanıda Atəşgahın yanında kerosin emal edən bir zavod tikdiriblər. Nəticədə, Suraxanı və Əmircan kənd camaatının torpaqları əllərindən çıxıb. Buna görə də onlar rus tacirlərinin neft mədənlərində işləməyə məcbur olublar. O illərdə Şəmsi Əsədullayev də neft mədənlərində fəhləlik etməyə başlayıb. Gənc Şəmsi öz çalışqanlığı və bacarığı ilə rus tacir Kokorevin rəğbətini qazanıb. Kokorev onu öz yanında işlər müdiri təyin edib.

Şəmsi ildən-ilə, aydan-aya deyil, gündən-günə püxtələşib, səriştəli işçi kimi yetişib. Böyük təcrübə topladıqdan sonra qarşısında yeni yollar açılıb. Şəmsi neft və duz podratçılığı ilə məşğul olmağa başlayıb. Bu sahədə 15 illik fəaliyyəti ərzində xeyli sərmayə əldə edib. Bir müddət sonra özünün kerosin zavodunu qurub. Daha sonra neft sahəsində çalışan bir neçə iş adamı ilə birlikdə yeni şirkət yaradıb. Həmin şirkətin vasitəsilə Rusiya bazarına çıxmağın yeni yollarını axtarıb. O, neftin Xəzər dənizi vasitəsilə daşınması üçün Bakının neft maqnatları arasında ilk dəfə dorlu, yelkənli gəmi alıb.

…Bir müddət əvvəl cüzi vəsaitlə aldığı primitiv üsulla işləyən neftçıxarma idarəsinin bazasında yeni şirkət qurub. Yeni avadanlıqların və texnikanın hesabına həmin kiçik neftçıxarma idarəsi Şəmsi Əsədullayevin adını daşıyan və yeni texnoloji üsullarla işləyən qabaqcıl neftçıxarma şirkətinə çevrilib. Şirkətin gəliri ildən-ilə artıb və maliyyə vəsaiti 20 il ərzində 500 manatdan 10 milyon manata yüksəlib. Beləliklə, milyonçu adını qazanıb.

O, Sabunçu, Suraxanı və Ramanada yerləşən, qiyməti milyon manatlarla ölçülən çox sayda neft buruqları, mexaniki emalatxanalar, neftçıxarma zavodları, eyni zamanda neft və neft məhsulları daşıyan gəmilər alıb.

Demək olar ki, bəxti hər sahədə gətirib. Aldığı torpaq sahələrindən birində neft fontan vurub. Fontan günlərlə, aylarla davam edib. Həmin yataqdan hər gün bir milyon yarım puddan çox neft hasil edilib.

Şəmsinin adı milyonçu kimi məşhurlaşdıqdan sonra təkcə neft sahəsində işləməklə kifayətlənməyib. Onun fəaliyyəti çoxşaxəli olub. Neft mədəninin, neft daşıyan dəniz və çay donanmasının sahibi olmaqla yanaşı, Bakının mərkəzində milli memarlıq üslubunda əzəmətli binalar tikdirib.



Şəmsi Əsədullayevin özünün şəxsi elektrik stansiyası olub. Stansiyanı işlətmək üçün xaricdən mütəxəssislər dəvət edib. Bakının sərnişin limanında küçə çıraqları quraşdırıb.

O dövrlərdə xarici sərmayə ilə yanaşı, yerli sərmayənin payı Şəmsi Əsədullayev kimi Bakı milyonçularının sayəsində artıb. Bakının neftlə zəngin torpaqlarına sərmayə qoyan ilk milyonçularından biri olub. O, torpaqlara yatırım qoymaqla yerli əhalini işlə təmin edib. Onun obyektlərində minlərlə fəhlə çalışıb. Beləliklə, o, həm xalqın qayğısına qalıb, həm də özü milyonlar qazanıb.

Qazandığı milyonlar hesabına müxtəlif təyinatlı tikililər inşa etdirib. Onun bir zamanlar tikdirdiyi binalar bu gün də Ramana kəndinin camaatı arasında “Əsədullayevin evləri”, “Əsədullayevin uşaqlarının evləri” adlanır.

O, Musa Nağıyevlə birlikdə 1896-cı ildə “Böyük Puta” adlı yerdə Məşədi Əbdülrəhmandan böyük torpaq sahəsini satın alıb. Orada özünün neft mədənlərini qurub. Əsədullayevin mədənlərində təkcə 1900-cü ildə 7,3 milyon pud neft çıxarılıb və 11,5 milyon pud neft məhsulları satılıb.

Şəmsi Əsədullayev sonra Moskva və Peterburqda məskən salıb. Bakıdakı obyektlərini isə oğlu Mirzə Əsədullayev idarə edib. Əsədullayevin mədənlərində neft hasilatı artdıqca Volqaboyu sahələrdə bu ailəyə məxsus iri neft çənlərinin sayı artıb. Əsədullayev Xəzəryanı və Volqaboyu şəhərlərə öz gəmiləri ilə neft daşıtdıraraq satdırıb.

Ş.Əsədullayev XX əsrin əvvəllərində artıq Azərbaycanın ən böyük neft maqnatlarından biri olub. Onun adı həmişə Nobel qardaşlarının adı ilə qoşa çəkilib. Çünki o, Rusiyada, İranda, hətta Finlandiyada da Nobel qardaşlarının ciddi rəqibinə çevrilib. Bakıda neftin qiyməti ucuzlaşanda o, nefti ucuz qiymətə alıb, anbarlara doldurub, sonra Rusiyada baha qiymətə satdırıb.

Bakıdakı mülkləri ilə yanaşı, Peterburqda Neva çayının sahilində, “Qış sarayı”nın yanında möhtəşəm bina inşa etdirib. Moskvaya köçdükdən sonra Mariya adlı rus qadınla evlənib. O, Mariya üçün orada füsunkar bir imarət alıb.

Şəmsinin Bakıda ilk həyat yoldaşı azərbaycanlı qadın olub. Həmin qadından iki oğlu (Mirzə, Əli) və üç qızı (Sara, Xədicə və Ağabacı) dünyaya gəlib. Böyük oğlu Mirzə Musa Nağıyevin, kiçik oğlu isə Zeynalabdin Tağıyevin qızı ilə ailə həyatı qurub.

Şəmsi Əsədullayev Azərbaycan elminə, mədəniyyətinə xüsusi qayğı göstərib. Onlarca azərbaycanlı gəncin Almaniya, Fransa, Polşa kimi ölkələrdə, Rusiyanın Kazan, Moskva, Odessa, Peterburq və Xarkov kimi şəhərlərində təhsil almalarına himayədarlıq edib.

Moskvaya köçdükdən sonra da maarifçilik və xeyriyyə işlərini davam etdirib. Kasıb ailələrin uşaqları üçün məktəb açdırıb. Moskvadakı “Kiçik Tatar döngəsi”ndə tikdirdiyi evi o zaman təzə yaradılmış Tatar Mədəniyyət Mərkəzinə bağışlayıb.

Şəmsi Əsədullayev 1905-ci ilin avqust ayında ümumrusiya müsəlmanlarının Nijni-Novqorodda keçirilən 1-ci qurultayının iştirakçısı olub. Qurultay 1917-ci ilin may ayında Ş.Əsədullayevin müsəlmanlara bağışladığı binada keçirilib. O, “Nəşri-maarif” cəmiyyətinin üzvü kimi də fəaliyyət göstərib.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra kommunist rejimi Əsədullayevin bütün mülklərini milliləşdirib. Milyonçu Şəmsi Əsədullayev 1913-cü ildə Yaltada vəfat edib və Bakıda dəfn olunub.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Hava

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-23°, gündüz 27-32° isti olacaq.**

## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...



Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 30-35°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Kosmos

## Neytronun sirli siqnalları

**Alimlər uzun illərdir kosmosa qulaq asır, ağıllı sivilizasiyalardan gələn siqnalları axtarır. Axtarışlar hələlik uğursuz olsa da, onlar heç vaxt ruhdan düşməyiblər. Kainatı öyrənmək üçün daha təkmil vasitələr yaradıblar. Nəhayət, bu yaxınlarda neytron ulduzların birindən gələn sirli siqnalı qeydə alıblar.**

Bu siqnal ağıllı sivilizasiyaya aid olmasa da, gələcək araşdırmaların aparılması üçün önəm daşıyır. Radiasiyanın özü isə qalaktikamızın dərinliklərindən, Yerdən, təxminən, 15 min 820 işıq ili məsafədə, Süd Yoluda yerləşən ASKAP J1935+2148 adlı neytron ulduzdan gəlib.

Astronomlar qeyd ediblər ki, ASKAP J1935+2148-dən gələn siqnallar unikaldır və əvvəllər məlum olanlardan fərqlidir. Bəlli olub ki, ulduz güclü və zəif impulslarda, ümumiyyətlə, impulsların olmadığı müddətdə dövrilik nümayiş etdirir. O hər 53,8 dəqiqədən bir radio siqnalı yayır.

Tədqiqat qrupunun rəhbəri, Sidney Universitetindən astrofizik Manişa Kaleb qeyd edib ki, bu dəyişikliklərin səbəbi hələ də məlum deyil. “Bu, maraq doğurur, çünki o, neytron ulduzlarının təkamülünün mövcud modellərindən fərqlənir. Bu, onun təkamülünün bir mərhələsi ola bilər”.

Xatırladaq ki, neytron ulduzları kütləsi 8 ilə 30 Günəş kütlələri arasında dəyişən fövqəlnova partlayışından sonra əmələ gəlir. Ulduzun qalan nüvəsi cazibə qüvvəsinin təsiri altında dağılır və diametri cəmi 20 kilometr olan, lakin kütləsi Günəşinkindən bir neçə dəfə böyük olan cisim əmələ gətirir.



Neytron ulduzlarının isə bir neçə növü var: müntəzəm neytron ulduzları, pulsarlar və maqnitarlar. Pulsarlar qütblərindən radio impulslar yayır, maqnitarlar isə enerji püskürməsinə səbəb olan son dərəcə güclü maqnit sahələrinə malikdir.

***PÜNHAN***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Respublika Pediatriya Mərkəzi Publik Hüquqi Şəxsin direktoru Azər Əhmədov və mərkəzin kollektivi Nərimanov Uşaq Klinik Xəstəxanasının reanimasiya və intensiv terapiya şöbəsinin müdiri Pərvin Qasımovaya atası

**FAİQ MEHDİYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4041
SİFARİŞ 1285
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00